Xalqın qəzeti!

# Xalq qəzeti

№ 71 (31040) 25 aprel 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dövləti özəl sahənin inkişafını davamlı himayə edir

Sahibkarlara çox böyük, hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır. Dövlət dəstəyi nəticəsində ölkəmizdə sahibkarlığın inkişafı sürətlə getmişdir.

Ötən illərdə sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər hesabına və sahibkarların öz vəsaiti hesabına yüzlərlə, bəlkə də, minlərlə yeni müəssisə yaradılmışdır və qeyri-neft sektorunun inkişafı təmin edilmişdir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



Səhifə ⇨ 7

## Rusiyaya dəstək verənlər ciddi cəzalandırılır




Səhifə ⇨ 3

## Hakimlər də güzəştli ipoteka krediti alacaqlar



Səhifə ⇨ 8

## Əqli mülkiyyət və zaman: yeni infrastruktur, innovasiya, yaradıcılıq və süni intellekt

Səhifə ⇨ 11

## Hörmüz – dünya iqtisadiyyatının boğazı bağlı qalarsa...




Səhifə ⇨ 15

## Qərbin Ermənistandakı seçkilərlə bağlı narahatlığı artır



Səhifə ⇨ 3

## Cənubi Qafqazda sülh prosesi Ankara ilə İrəvanı da yaxınlaşdırır



Səhifə ⇨ 4

## Kürdə suyun artması nəzarətdə saxlanılır



Səhifə ⇨ 5

## Berlinin yeni hərbi doktrinası



Səhifə ⇨ 6

## Neft ticarəti və logistikası forumu başa çatdı




Səhifə ⇨ 7

## Qürbətdə cənnət xülyasının gerçəkdə cəhənnəm əzabları



Səhifə ⇨ 8

## Təhcir qərarı və saxta soyqırımı iddiaları



Səhifə ⇨ 9

### "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Qaçqın və köçkünlərin məskunlaşdığı düşərgələrdə idarəetmə sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 17 sentyabr tarixli 207 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 257 (Cild I) 2-ci hissəsində "hakimiyyətinin nümayəndəsi, nümayəndənin müavini, nümayəndəliyin katibi" sözləri "hakimiyyəti başçısının nümayəndəsi, baş məsləhətçi–ev təsərrüfatlarının uçotu işinin aparıcısı, xadimə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 624 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.8.4-cü abzasda "orqanlarının" sözü "başçılarının" sözü ilə əvəz olunsun, həmin abzasa ikinci halda "dairələri" sözündən sonra "üzrə" sözü əlavə edilsin və həmin abzasdan ikinci halda ", böyük məsləhətçi, aparıcı məsləhətçi" sözləri çıxarılsın;

2.2. 2.3.4-cü yarımbənd üzrə:

2.2.1. 3-cü abzasdan ", yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində" sözləri çıxarılsın və həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

2.2.2. aşağıdakı məzmunda 4-cü abzas əlavə edilsin:

"4. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində aparıcı mütəxəssis.".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 508 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 892 (Cild I) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydaları"nın 2.4-cü bəndində "hüquq şöbəsinin" sözləri "hüquq məsələləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 186 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü bənddə, 7-ci bəndin birinci və ikinci abzaslarında, 8-ci bənddə, 9-cu bəndin ikinci cümləsində, 10-cu bəndin ikinci abzasının ikinci cümləsində, 12-ci bəndin birinci cümləsində, 15-ci bəndin birinci və üçüncü abzaslarında və ikinci abzasının birinci cümləsində, 17-ci bəndin ikinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.2. 25-ci bəndin birinci abzasının birinci cümləsində "hüquq şöbəsinin" sözləri "hüquq məsələləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.3. 28-ci bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.4. 29-cu bəndin birinci abzasında və 30-cu bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.5. 31-ci bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.6. 38-ci bəndin dördüncü abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.7. 39-cu bəndin birinci abzasında, 45-ci, 49-cu bəndlərdə, 50-ci bəndin birinci abzasında, 52-ci bəndin ikinci abzasında, 53-cü bənddə və 54-cü bəndin birinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.8. 55-ci bənd üzrə:

4.8.1. birinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.8.2. ikinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.9. 57-ci bənddə, 61-ci bəndin birinci abzasında, 62-ci bəndin yeddinci cümləsində, 65-ci bəndin birinci və ikinci abzaslarında, 70-ci bənddə ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.10. 72-ci bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.11. 80-ci, 81-ci bəndlərdə, 83-cü bəndin birinci abzasının birinci cümləsində və ikinci abzasında, 88-ci bəndin birinci cümləsində, 91-ci bənddə, 92-ci bəndin ikinci abzasında, 93-cü bəndin birinci abzasının ikinci cümləsində, 96-cı bəndin birinci abzasının ikinci cümləsində və ikinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.12. 97-ci bəndin birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.13. 98-ci bəndin ikinci abzasının ikinci cümləsində, 99-cu bəndin birinci abzasının ikinci və beşinci cümlələrində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.14. 102-ci bəndin birinci abzasının birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.15. 103-cü bənd üzrə:

4.15.1. birinci abzasda "kadr işlərinin aparılması həvalə edilmiş şöbəsinə" sözləri "kadr məsələləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.15.2. onuncu abzasda "Kadr işlərini aparan şöbə" sözləri "Kadr məsələləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.16. 104-cü bənddə "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.17. 107-ci bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.18. 109-cu bənd üzrə:

4.18.1. ikinci abzasın birinci cümləsində, üçüncü və dördüncü abzaslarda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.18.2. altıncı abzasın ikinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.19. 110-cu bəndin birinci abzasında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.20. 111-ci bəndin birinci abzasında və ikinci abzasının ikinci cümləsində, 115-ci bəndin birinci abzasında və 116-cı bənddə ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.21. 119-cu bənd üzrə:

4.21.1. birinci abzasın birinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə, ikinci cümləsində "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin;

4.21.2. yeddinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsində" sözləri ilə əvəz edilsin;

4.22. 121-ci bənddə və 123-cü bəndin birinci abzasında ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.23. 124-cü bənd üzrə:

4.23.1. birinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.23.2. ikinci abzasda "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinin" sözləri ilə əvəz edilsin;

4.24. 128-ci bənddə, 129-cu bəndin birinci cümləsində, 130-cu bənddə, 136-cı bəndin birinci cümləsində və 137-ci bənddə (hər iki halda) ismin müvafiq hallarında "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ismin müvafiq hallarında "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.25. həmin Təlimata 3 və 26 nömrəli əlavələrdə "Ümumi şöbə" sözləri "Sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsi" sözləri ilə əvəz edilsin;

4.26. həmin Təlimata 13 nömrəli əlavədə "ümumi şöbəyə" sözləri "sənədlər və vətəndaş müraciətləri üzrə struktur bölməsinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2026-cı il**

### "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2070 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2070 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 296 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikasının energetika naziri" sözləri "Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası energetika nazirinin müavini";

1.3. "Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini";

1.4. "Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri" abzasının sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Qazaxıstan Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2026-cı il**

### Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncama əlavə olunan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 1453,09 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin.

**2** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2026-cı il**

### 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 81-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

**1.** 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2 750,0 (iki min yeddi yüz əlli) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1 500,0 (bir min beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2026-cı il**

### Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində

***2026-cı ilin may ayında vətəndaşların qəbulu***

## C Ə D V Ə L İ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **6, 20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **7** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **8, 15, 22** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | **19** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **19** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **19** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **21** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **22** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **22** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **25** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **26** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **26** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **26** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **25** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Qərbin Ermənistandakı seçkilərlə bağlı narahatlığı artır

## *Aİ-nin ardınca ATƏT və ABŞ senatorları da hərəkətə keçdilər*

**İyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkiləri beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Xüsusilə, Avropa İttifaqının (Aİ) rəsmi strukturları və "qoca qitə"nin müxtəlif təsisatları seçkiləri diqqət mərkəzində saxlayırlar. Onlar rusiyapərəst qüvvələrin hakimiyyəti ələ keçirməsinə imkan verməmək, hazırkı baş nazir Nikol Paşinyanın postunda qala bilməsi üçün konkret addımların atılmasına start veriblər.**

Aprelin 21-də Aİ ölkələrinin xarici işlər nazirləri Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərarı təsdiqlədilər. Sənədə görə, missiya Ermənistanın hibrid təhdidlərə qarşı dayanıqlılığını gücləndirməyə yönələcək və nazirliklərə, eləcə də təhlükəsizlik qurumlarına strateji və praktiki məsləhətlər, həmçinin dəstək verəcək. Ermənistan Xarici İşlər Nazirliyi açıqlama yayaraq 2 illik mandatla fəaliyyət göstərəcək və "Avropa İttifaqının Ermənistan Respublikasındakı Tərəfdaşlıq Missiyası" adlanacaq yeni mülki missiyanın yerləşdirilməsi qərarını alqışladığını bildirib. XİN təsdiqləyib ki, missiyanın məqsədi Ermənistanın demokratik dayanıqlılığının gücləndirilməsini dəstəkləmək, dezinformasiya, kiberhücumlar və qanunsuz maliyyə axınları ilə mübarizə səyləri də daxil olmaqla hibrid təhdidləri aradan qaldırmaqdır.

Aprelin 23-də isə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ATƏT/DTİHB) Ermənistana seçkilərlə bağlı müşahidə missiyası göndərəcəyi məlum olub. Büronun yaydığı məlumata görə, missiya Ermənistan hakimiyyətinin dəvəti ilə formalaşdırılıb və seçkiqabağı ehtiyacların qiymətləndirilməsinin nəticələrinə əsaslanır. Missiyanın 13 ekspertdən ibarət əsas qrupu İrəvanda Yanes Lenarçiçin rəhbərliyi altında fəaliyyət göstərəcək. Yeri gəlmişkən, qeyd edək ki, sloveniyalı Y.Lenarçiç Qərbdə kifayət qədər tanınmış siyasətçidir. O, 2008-2014-cü illərdə ATƏT/DTİHB-in direktoru olub. 2019-cu il dekabrın 1-dən isə Ursula fon der Lyayenin komissiyasında Humanitar yardım və böhranların idarə edilməsi üzrə Avropa komissarıdır.

Mayın 1-dən etibarən Ermənistana 30 uzunmüddətli müşahidəçi göndəriləcək. DTİHB, həmçinin seçkilərdən bir neçə gün əvvəl Ermənistana 250 qısamüddətli müşahidəçinin göndərilməsini təmin edəcək. Ekspertlərin və uzunmüddətli müşahidəçilərin əsas qrupuna ATƏT-in 28 üzv dövlətinin nümayəndələri daxildir. "Bu müşahidə missiyası seçki prosesinin bütün mərhələlərini ATƏT-in öhdəlikləri və demokratik seçkilərə dair digər beynəlxalq öhdəliklər və standartlar prizmasından qiymətləndirəcək. Biz təkcə seçkiləri deyil, həm də onların keçiriləcəyi mühiti müşahidə edəcəyik", – deyə Lenarçiç bildirib.

Seçki günü ATƏT Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının və Avropa Parlamentinin nümayəndə heyətləri DTİHB missiyasına qoşulacaqlar. Seçkilərdən təxminən iki həftə əvvəl DTİHB müşahidə missiyasının fəaliyyəti barədə ictimaiyyəti və KİV-i məlumatlandırmaq üçün aralıq hesabat yayımlayacaq. Seçkilərin sabahı günü missiyanın ilkin qənaəti və işinin nəticəsi birgə mətbuat konfransında təqdim olunacaq. Prosesin təkmilləşdirilməsi üçün hərtərəfli qiymətləndirməni və tövsiyələri özündə əks etdirəcək yekun hesabat seçkilərdən bir neçə ay sonra dərc olunacaq.

*

Bu arada amerikalı bəzi senatorların "Meta" və "Alphabet" şirkətlərini Ermənistanın Rusiya müdaxiləsinə qarşı mübarizəsinə kömək etməyə çağırdıqları məlum olub. Senatorlar Cin Şahen və Tom Tillis adları çəkilən şirkətlərə məktub göndərərək, onları "2026-cı ilin iyun ayında Ermənistanda keçiriləcək parlament seçkilərindən əvvəl Rusiya dezinformasiyasının yayılmasının qarşısını almaq üçün kifayət qədər resurs ayırmağa" çağırıblar. Məktubda deyilir: "Müstəqil ekspertlər hesab edirlər ki, Rusiya Ermənistandakı demokratik prosesin nəticəsinə təsir göstərmək üçün "Meta" platformaları vasitəsilə də daxil olmaqla, Moldova strategiyasından istifadə edir. Biz "Meta" və "Alphabet" şirkətlərinin diqqətini Rusiya Federasiyasının demokratik ölkələrdə seçkilərə müdaxilə etməyə növbəti cəhdinə yönəldirik – bu dəfə 2026-cı ilin iyununda Ermənistanda keçiriləcək parlament seçkiləri ərəfəsində. Bu seçkilər Ermənistanın gələcəyinin müəyyənləşməsi baxımından həlledici əhəmiyyət daşıyır, çünki onlar, çox güman ki, regional sülh təşəbbüslərinin və nəqliyyat infrastrukturunun inkişafı layihələrinin, o cümlədən sülh danışıqlarının əsas komponenti olan Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu layihəsinin nəticəsini müəyyən edəcək. Heç bir xarici qüvvənin Ermənistanın suveren qərarlarının nəticəsinə təsir etməsinə icazə verilməməlidir".



Senatorlar qeyd ediblər ki, xarici qüvvənin öz iradəsini erməni xalqına qəbul etdirmək cəhdlərinə göz yummaq olmaz: "Əgər bu cəhdlər ABŞ yurisdiksiyasına daxil olan platformalardan istifadə etməklə həyata keçirilirsə, belə halların qarşısının alınmasına görə məsuliyyətimiz daha da artır. Biz "Meta" şirkətini Ermənistanda azad və ədalətli seçkilərin təmin olunmasına kömək etməyə, "Alphabet" şirkətini isə seçkilər ərəfəsində Rusiya dezinformasiyasına qarşı mübarizə aparmaq üçün kifayət qədər resurs ayırmağa çağırırıq".

Qeyd edək ki, "Meta" şirkətinin məhsullarına proqram təminatı, "Facebook Messenger", "Facebook", "Instagram", "WhatsApp" daxildir. "Alphabet" şirkəti isə "Google Inc" və onun törəmə şirkətlərini, eləcə də bir neçə startapı idarə edən holdinq şirkətidir. Hər iki şirkətin baş ofisi ABŞ-ın Kaliforniya ştatında yerləşir. Bu baxımdan ATƏT-in Ermənistana seçki müşahidə missiyası göndərməsi barədə məlumat, eləcə də ABŞ senatorlarının ünvanladığı müraciətlər eyni siyasi və informasiya mühitinin iki fərqli, lakin bir-biri ilə bağlı təzahürü kimi görünür. Hər iki hadisənin mərkəzində Ermənistanda seçkilər dayanır və bu seçkilərin təkcə daxili siyasi proses deyil, həm də regional və qlobal güclərin maraqlarının toqquşduğu bir məkan olduğu açıq şəkildə hiss olunur.

**Politoloq Ramiyə Məmmədova XQ-yə açıqlamasında bildirdi ki,** burada bir neçə fərqli məntiq paralel işləyir və bəzən bir-birini neytrallaşdırır. Onun sözlərinə görə, əgər ATƏT-in müşahidə missiyası göndərməsi beynəlxalq təşkilatların Ermənistandakı seçki prosesinə institusional yanaşmasını göstərsə, ABŞ senatorlarının müraciəti daha çox informasiya təhlükəsizliyi və rəqəmsal platformalar üzərindən potensial xarici təsir məsələsinə fokuslanır: "Burada əsas narahatlıq Rusiya dezinformasiyasının yayılması və bunun seçki nəticələrinə təsir ehtimalıdır. Senatorların yanaşması göstərir ki, müasir seçkilərdə informasiya məkanı ən az hüquqi çərçivə qədər vacib sahəyə çevrilib. Bu iki prosesin bir-biri ilə əlaqəsi onların eyni seçki dövrünü əhatə etməsi və demokratik legitimliyin qorunmasına yönəlməsi ilə izah olunur. ATƏT missiyası seçkiləri yerində müşahidə edib ümumi vəziyyəti qiymətləndirirsə, ABŞ senatorlarının təşəbbüsü isə rəqəmsal informasiya mühitinə və xarici təsirlərin texnologiya platformaları vasitəsilə məhdudlaşdırılmasına diqqət yetirir. Yəni biri seçkilərə birbaşa nəzarət və müşahidə ilə, digəri isə informasiya məkanının qorunması ilə bağlıdır".



Ekspert onu da bildirdi ki, Ermənistan kontekstində daha bir vacib nüans seçki institutlarına inamın həssaslığıdır. Əgər ictimai etimad aşağıdırsa, hətta kiçik informasiya səs-küyü belə siyasi nəticə kimi qavranılır. Bu halda hibrid təhdidlər xarici aktorların gücündən çox, daxili siyasi qütbləşmənin güzgüsünə çevrilir: "Buna görə də problem təkcə "müdaxilənin qarşısını almaq" deyil. Eyni zamanda, cəmiyyətin informasiya qarışıqlığını özü süzgəcdən keçirmə qabiliyyətidir. Bu baxımdan seçkilər texniki proses olmaqdan çıxır və informasiya davranışının testinə çevrilir".

***Səxavət HƏMİD***
***XQ***

# Rusiyaya dəstək verənlər ciddi cəzalandırılır

## *Moskva isə Brüsselin sərt sanksiya qərarı qarşısında qalıb*

**Dünən Avropa İttifaqı (Aİ) Rusiya Federasiyasına qarşı sayca 20-ci sanksiyalar paketini təsdiqlədi. Bu qərar Qərb blokunun geosiyasi müdafiə strategiyasının əsas tərkib hissəsi sayılır. Şərqi Avropada davam edən hərbi əməliyyatların və qlobal güc mərkəzləri arasındakı siyasi qütbləşmənin fonunda qəbul edilən məhdudiyyətlər Moskvanın beynəlxalq logistik resurslara çıxışını bağlamaq məqsədi daşıyır. Hazırkı vəziyyətdə qitə dövlətləri, o cümlədən NATO üzvləri və Şimali Atlantika alyansına daxil olmayan ölkələrlə Rusiya arasındakı münasibətlərin gərginlik səviyyəsi artıq pik həddə çatıb.**




Rəsmi Moskva tərəfindən idarə edilən və bütün qitə üçün bilavasitə təhdid yaradan əməliyyatlara qarşı Aİ üzvü olan ölkələr artıq qəti addımlara əl atmağa məcbur olublar. Xüsusilə son illər intensivləşən hibrid hücumlar, proksi qüvvələrin vasitəsilə həyata keçirilən təxribatlar, eləcə də dövlət infrastrukturlarını hədəf alan irimiqyaslı kiberhücumlar kollektiv Qərbin səbr kasasını daşıran amillərə çevrilib. Avropa paytaxtlarında formalaşan vahid siyasi rəy ondan ibarətdir ki, yalnız aqressiv və ardıcıl sanksiya mexanizmləri vasitəsilə Kremlin destruktiv fəaliyyət rıçaqlarını zərərsizləşdirmək mümkündür.

20-ci sanksiyalar paketini hərtərəfli araşdıranda aydın olur ki, hədəf seçilmiş sahələr təsadüfi deyil və sırf strateji iflic vəziyyəti yaratmağa hesablanıb. Yeni məhdudiyyətlər əsasən enerji, kompüter texnologiyaları və maliyyə sektorlarını, habelə vacib istehlak sahələrini əhatə edir. Siyahıda göstərilən sahələrə ətraflı şəkildə toxunmağa lüzum görmürük, çünki konkret istiqamətlər dövlətin dayaqlarını formalaşdıran əsas resurslar rolunu oynayır. Enerji resurslarının ixracı sayəsində əldə edilən milyardlarla dollarlıq gəlir bilavasitə hərbi maşının maliyyələşdirilməsinə yönəldildiyindən, Aİ məhz neft-qaz infrastrukturunu əsas zərbə obyekti kimi müəyyənləşdirib. Paralel olaraq kompüter texnologiyaları və kibertəhlükəsizlik sahələrinə tətbiq edilən qadağalar Rusiyanın rəqəmsal inkişaf tempini yavaşlatmaq, müasir informasiya müharibəsindəki imkanlarını sıfıra endirmək və hərbi-sənaye kompleksinin intellektual bazasını məhv etmək niyyəti daşıyır. Maliyyə sektorunun tam təcridi isə ölkənin qlobal bazarlarla istənilən əlaqəsini kəsərək, daxili iqtisadi stabilliyi siyasi böhrana çevirmək ehtimalını artırır.

Qlobal dəniz hegemonluğu və logistik nəzarət uğrunda gedən geosiyasi mübarizə 20-ci paketin mərkəzi xətlərindən sayılır. Moskva üçün strateji əhəmiyyət daşıyan Murmansk və Tuapse limanları ilə əməliyyatların tamamilə qadağan edilməsi, sadəcə, ticarət əlaqələrinin kəsilməsi mənasına gəlmir. Şimal Buzlu okeanında və Qara dəniz hövzəsində yerləşən bu dəniz limanları Rusiya hərbi dəniz donanmasının logistik təminatında həlledici düyünlərdir. Eyni zamanda, İndoneziya ərazisindəki Karimun limanının neft terminalına oxşar qadağanın tətbiqi Aİ-nin sanksiya siyasətini qlobal cənub istiqamətində genişləndirmək niyyətini sübuta yetirir. Tətbiq edilən qadağaların ən kəskin hissələrindən digəri Qərb analitikləri tərəfindən "kölgə donanması" adlandırılan gəmi qruplaşmalarına qarşı yönəlib. Qeyri-qanuni yollarla enerji daşıyıcılarını beynəlxalq sulara çıxarmağa çalışan 46 gəminin limanlara girişinə və xidmətlərdən istifadəsinə qəti qadağa qoyulur. Beləliklə, beynəlxalq təcrid siyahısına salınmış dəniz vasitələrinin ümumi sayı 632-yə çatdırılır. Rəqəmlərin nəhəngliyi rəsmi Moskvanın sanksiyalardan yayınmaq məqsədilə qurduğu qeyri-formal iqtisadi şəbəkənin həcmini nümayiş etdirir.

*

Yeni sanksiya paketi maliyyə məhdudiyyətlərini daha da sərtləşdirir və 20 Rusiya bankının beynəlxalq əməliyyatlara çıxışını bloklayır. Məqsəd Rusiyanın maliyyə sistemini zəiflətmək və hərbi xərclərin maliyyələşməsini çətinləşdirməkdir. Eyni zamanda, sanksiyalar yalnız Rusiya ilə məhdudlaşmır. Qırğızıstan, Laos və Azərbaycanda fəaliyyət göstərən 4 xarici bank da Rusiyaya yardım etdiyi üçün qadağalara məruz qalıb. Bu, Qərbin sanksiyalardan yayınma kanallarını bağlamağa yönəlmiş addımı kimi qiymətləndirilir. Ümumilikdə, mesaj ondan ibarətdir ki, Rusiyaya dolayı dəstək verən maliyyə strukturları qlobal sistemdən kənarlaşdırılır və üçüncü ölkələr isə bu prosesdə daha ciddi nəzarət altına alınır.

Eskalasiyanın qidalandırıcı mənbəyi sayılan hərbi-sənaye kompleksinə qarşı atılan addımlar 20-ci paketin əsas sütununu təşkil edir. Ümumilikdə, 58 silah istehsalçısı, logistik təminatçı və əlaqəli struktur qara siyahıya salınıb ki, bu da dronlar və yüksək texnologiyalı hərbi sistemlərin istehsal zəncirini zəiflətməyə yönəlib. Bundan başqa, sanksiyalardan yayınmanın qarşısını almaq üçün xüsusilə Qırğızıstana qarşı sərt tədbirləri tətbiq edilib, o cümlədən yüksək texnologiyalı avadanlıqların ixracı məhdudlaşdırılıb. Eyni zamanda, Rusiya ilə əlaqəli və ya ikili təyinatlı malların daşınmasında iştirak edən 60-a yaxın əlavə struktur da siyahıya daxil edilib. Eləcə də Çin, BƏƏ və Mərkəzi Asiyanın bəzi ölkələrindəki 16 quruma məhdudiyyət qoyulub.

Tətbiq edilən 20-ci paketin struktur memarlığı beynəlxalq münasibətlər sistemində yeni doktrinanın formalaşdığını xəbər verir. Keçmiş illərin məhdud və sadəcə, xəbərdarlıq xarakteri daşıyan qərarlarından fərqli olaraq, hazırkı mexanizmlər tamamilə düşməni məhv etmək strategiyasına əsaslanır. Qitənin siyasi institutları mövcud reallığı dərk edərək, vəziyyətin qeyri-müəyyən müddətə qədər gərgin qalacağını və hərbi eskalasiya risklərinin artacağını qabaqcadan hesablayıblar. Qəbul edilən məhdudiyyətlər yalnız Rusiya iqtisadiyyatını daxildən sarsıtmaqla yekunlaşmır. Əsas məqsəd Kreml rəhbərliyinin qlobal iddialarını zərərsizləşdirmək və avtoritar rejimlərin beynəlxalq hüquq normalarına meydan oxumasının qarşısını almaqdır.

Kollektiv Qərb mərkəzləri və müttəfiq qüvvələr tərəfindən həyata keçirilən təcrid siyasəti qlobal nizamı yenidən quran çoxölçülü və monumental arxitekturadır. Sadalanan bütün sanksiya mexanizmləri, xüsusən kölgə gəmi şəbəkələrinin məhvi, limanların qapadılması, qabaqcıl hərbi-sənaye subyektlərinin sıradan çıxarılması və üçüncü dövlətlərdəki kommersiya əlaqələrinin dondurulması mütləq şəkildə qarşıya qoyulan yekun hədəflərə çatacaq. Avropa paytaxtlarından verilən siyasi qərarların mətni onu təsdiqləyir ki, bəşəriyyətin gələcək nizamı yalnız qanunun aliliyinə və dövlətlərin ərazi bütövlüyünə hörmət üzərində qurulacaq. Sanksiya paketlərinin tətbiqi uzun illər boyu dünyanı təhdid edən hərbi ekspansiya ideologiyalarını darmadağın edəcək. Hər həftə yoxlanılan satış sənədləri, gəmiçilik reyestrləri, ehtiyat hissələrinin ixrac bəyannamələri əslində nəhəng siyasi detektiv işinin tərkib hissəsidir. Tətbiq edilən kompleks məhdudiyyətlər silsiləsi yeni minilliyin iqtisadi və hüquqi müharibə standartlarını müəyyən edir. Belə görünür ki, köhnə status-kvoya qayıdış ehtimalı tamamilə aradan qaldırılıb və yeni dünyanın quruculuğu yalnız sanksiyaların diktə etdiyi dəyərlər çərçivəsində mümkün olacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Cənubi Qafqazda sülh prosesi Ankara ilə İrəvanı da yaxınlaşdırır

## *Barışın əsaslılıq xətti və Alen Simonyanın düşünmədiyi məqamlar*

**Son aylar Ermənistan rəsmilərinin Azərbaycanla bağlı fikirlərində pozitiv ab-hava hökm sürməkdədir. Əlbəttə, bu, sevindiricidir və belə bəyanatların hər iki ölkənin cəmiyyətlərinə adekvat təsiri var.**

Bəli, Ermənistan rəsmilərinin regionda sülh xüsusunda səsləndirdikləri bəyanatlar nikbinlik üçün əsas verir. Məsələn, baş nazir Nikol Paşinyan bu günlərdə erməni cəmiyyətini hələ çox kövrək olan barış mühitini qorumağa səsləyib. Bu çağırış sırf qarşıdan gələn parlament seçkilərinə hesablansa da, Nikolun söylədiklərində səmimiyyət çaları diqqət çəkməkdədir. Bütün bunlar öz yerində.

Azərbaycan–Ermənistan sülh gündəminin irəlilədiyi bir vaxtda Türkiyə–Ermənistan münasibətlərinin normallaşması məsələsi də gündəmə gəlməkdədir. Belə təəssürat yaranır ki, rəsmi İrəvan bu iki məsələni bir-birindən ayrı tutan spekulyasiyalarından əl çəkib. Ümumən, vəziyyət bildirdiyimiz kimidir. Amma... Ermənistan Parlamentinin sədri Alen Simonyan da barəsində söz açdığımız pozitivlik əhvali-ruhiyyəsinin aktiv daşıyıcısıdır. Məsələn, o, bu yaxınlarda Azərbaycan və Ermənistan xalqlarının dostluğundan söz açaraq gündəmə gəlmişdi. “Əmma” Simonyanın Türkiyədəki erməni nəşrlərinə müsahibəsidir. Daha doğrusu, müsahibədə dilə gətirdiyi fikirlərdir. A.Simonyan deyib ki, Ermənistan–Türkiyə münasibətlərinin normallaşma prosesi Azərbaycan tərəfindən süni şəkildə ləngidilir və Azərbaycanın siyasi lobbiləri Ankaraya birbaşa təzyiq göstərirlər.



Bəribaşdan A.Simonyanın diqqətə çatdırdığımız fikrinin kökündən yanlışlığını vurğulayaq. Təkcə o yox, ümumən, erməni siyasi industriyasının nümayəndələri nəzərə almalıdırlar ki, Bakı-Ankara münasibətləri ölkələrarası əlaqələr kontekstindən xeyli yüksəkdə dayanır, əlahəzrət tarixin sınaqlarından çıxmış dostluğa və qardaşlığa söykənir. Yəni birincinin ikinciyə, yaxud ikincinin birinciyə nəyisə bildirməsinə ehtiyac yoxdur, ola bilməz. İkincisi, A.Simonyan və Türkiyə-Ermənistan normallaşması baxımından Azərbaycan amilini qabardanlar yaxın keçmişi yada salmalıdırlar. Söhbət konkret olaraq 1993-cü ildən gedir. O ildən ki, Türkiyə Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanla quru sərhədini bağlamışdı. Həmin vaxt Bakı Ankaraya hansısa təzyiq etmişdi? Xeyr. Heç nəzəri baxımdan da belə bir durum mümkün deyildi. Deməli, ortada Türkiyə dövlətinin prinsipial yanaşması var. O yanaşma ki, fundamentaldır, özündə bir sıra vacib seqmentləri birləşdirir.

Məsələn, Antalya Diplomatik Forumunda çıxış edən Türkiyənin xarici işlər naziri Hakan Fidan Zəngəzur dəhlizinin ölkəsi üçün önəmini vurğuladı. Yaxşı olar ki, Simonyan məhz bu məqama diqqət yetirsin. Çünki indiki durumda Türkiyə-Ermənistan sərhədi heç də beş-altı ac erməninin gedib Türkiyədə pul qazanması üçün açılmır. Eyni zamanda, Türkiyənin böyük ölçüdə erməni əriyinə və konyakına ehtiyacı yoxdur. Ankara regiona bütöv orqanizm kimi yanaşır. Bu orqanizmin bütün orqanları funksionallıq qazanmalıdır. Yəni Ermənistan, necə deyərlər, əlini daşın altına qoymalı, iradə göstərməli və regional düzənə töhfə verməyi bacarmalıdır. Bunun üçün isə ölkənin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi şərtdir.

Bəli, Ermənistan rəsmiləri, bütövlükdə, ölkənin ictimai rəyinin təmsilçiləri düşünməlidirlər ki, Ankara-İrəvan normallaşması, o cümlədən, bu normallaşmanın mühüm tərkib hissəsi sayılan quru sərhədlərinin açılması Azərbaycan–Ermənistan sülhü kimi mühüm prosesin tam reallaşmasının nəticəsi qismində meydana çıxmalıdır. Hazırda Azərbaycan–Ermənistan quru sərhədində tam funksionallıq yoxdursa, rəsmi İrəvanın təmsilçiləri Türkiyə-Ermənistan sərhədinin işlək hala düşməsindən söz aça bilməzlər. Burada Bakının hansısa təzyiq göstərməsinə ehtiyac yoxdur.

Məlum olduğu kimi, 44 günlük müharibədən ötən müddətdə Paşinyan administrasiyasının təmsilçiləri Azərbaycanın Türkiyəyə təzyiqi tezisini sırf Qərbin diqqətini çəkmək üçün qabardıblar. Belə düşünüblər ki, Aİ ölkələri Türkiyəni Ermənistanla sərhədləri açmağa məcbur edəcək. Lakin istəklərinə çata bilməyiblər. Simonyan bunu bilmir? Yoxsa o, müsahibə verdiyi erməni nəşrlərinin Türkiyənin rəsmi siyasətinə təsir göstərmək gücünün olduğunu düşünəcək qədər sadəlövhdür? Digər tərəfdən, A.Simonyan “Bakı İrəvanla birbaşa sülh danışıqları aparır, eyni zamanda, erməni–türk dialoquna mane olur. Ankara, faktiki olaraq, Azərbaycan təsirinin girovuna çevrilib” kimi qıcıq doğuran fikir bildirməli deyil. Əgər o, “Ermənistan təcrid vəziyyətində qalmamalıdır və regional problemlərlə bağlı bütün qonşularla birbaşa dialoqa hazırdır” deyirsə, ölkəsinin nə üçün təcrid olunduğunun fərqinə varmalıdır.

Necə deyərlər, özü yıxılan ağlamaz. Ermənistan uzun müddət işğalçılıq siyasəti aparıb. Ölkənin təcridi məhz buna görədir, başqa səbəb yoxdur. Ermənistan və erməni cəmiyyəti qonşularının nəzərlərində, bir növ, bəraət almalıdırlar. Bunu necə etməlidirlər, məsələyə qayıdacağıq. Hələlik isə Simonyanın digər fikirlərinə nəzər salaq. O, Türkiyənin ilkin şərtlərinin, guya, daim dəyişdiyini bildirib. Dəyişən heç nə yoxdur. Yuxarıda qeyd etdik ki, Ankara Bakı–İrəvan münasibətlərinin fundamentallıq kazusunu rəhbər tutur. Fundamentallıq isə dəfələrlə vurğulanıb. H.Fidanın Zəngəzur dəhlizinin ölkəsi üçün önəmindən söz açması ilk dəfə deyil. O, həmişə oxşar məntiqi qabardıb. Digər tərəfdən, H.Fidan regionda sülh üçün Ermənistan konstitusiyasında dəyişikliyin vacibliyinə dair yanaşmanı da dilə gətirib. Nə Simonyan, nə də hay hakim komandasının digər üzvü deyə bilməz ki, bu tələbin Ankara üçün strateji anlamı yoxdur. Axı Ermənistanın Azərbaycanla yanaşı, Türkiyəyə qarşı da ərazi iddiası var. Hətta Gürcüstana qarşı da...

Sözümüz ondadır ki, nəinki Ermənistan dövləti, bütövlükdə hay cəmiyyəti ərazi iddiasına “yox” deməyi bacarmalı, mövqeyini son dərəcə yüksək səslə bəyan etməlidir. Bunun yolu isə referendum və yeni konstitusiyanın qəbuludur ki, Ermənistanda mövcud istiqamətdə intensiv iş aparıldığı və hazırlanmış əsas qanunun mətninin parlament seçkilərindən sonra açıqlanacağı vurğulanır. Görəsən, Simonyan bütün bunları bilə-bilə, əsl mahiyyəti anlaya-anlaya nə üçün yersiz ifadələr işlədir?

Sonda onu da deyək ki, A.Simonyanın ona sual verən jurnalistlərə, xüsusən də Türkiyədəki erməni media təmsilçilərinə nələrdənsə danışması reallığını anlayırıq. Amma indiki məqamda spiker son dərəcə korrekt olmalıdır. Korrektlik, ilk növbədə, onun özünə və təmsil etdiyi komandaya lazımdır. Axı Ermənistanda iqtidara müxalif qüvvələr anti-Azərbaycan və anti-Türkiyə mövqeyinə köklənibləр. Bu qüvvələr hələ də Bakını və Ankaranı düşmən qiyafəsində görürlər. Paşinyan və tərəfdarları isə bildirir ki, belə yanaşma sahibləri hakimiyyətə yiyələnsələr, yeni müharibə qaçılmazdır. O müharibə ki, onun erməni xalqına böyük məşəqqət yaşadacağı, erməni dövlətçiliyinin aqibətini böyük sual altına alacağı birmənalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Ermənistanda qondarma “erməni soyqırımı”nın 111-ci ildönümü qeyd edildi. Daha doğrusu, ölkənin şovinist və revanşist dairələri, o cümlədən bütün hayların katolikosu II Qaregin uydurma tarixə söykənib sərsəmlədi. Əlbəttə, təfərrüatlara varmaq niyyətindən uzağıq. Ancaq Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatı istisnadır. O bəyanat ki, özündə 3 yalanı birləşdirir. Hərçənd, sənədin müsbət yükü var və bu barədə sonda söz açacağıq.**

# Rəsmi İrəvanın “soyqırımı” bəyanatındakı 3 yalan

## *Ermənistan XİN-in açıqladığı müsbət məqam nədir?*



Birinci yalan. Ermənistan XİN 1915-ci ildə Osmanlı imperiyasında yaşananları “soyqırımı” adlandırır. İlk yalan budur. O zaman nə üçün ölkənin baş naziri Nikol Paşinyan bir müddət əvvəlki açıqlamasında “soyqırımı” məsələsinin keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin xalqları bir-birinə vurmaq üçün ortaya atdığı oyun mahiyyətini qabartmışdı? Axı Nikol haqlı idi. Çünki ötən əsrin 50-ci illərində Türkiyə NATO-ya qoşulmuş və Sovet İttifaqının təbliğatı alyans üzvü olan ölkəni həm də soyqırımı törədən məmləkət statusunda göstərməyə hesablanmışdı. Yeri gəlmişkən, rus imperializminin körüklədiyi soyqırımı cəfəngiyyatı 1988-ci ildən sonra baş qaldırmış “Qarabağ hərəkatı” üçün də hərəkətverici amilə çevrilmiş, nəticə etibarilə ermənilərlə azərbaycanlılar arasında düşmənçilik toxumu səpilmişdi. Yəni rəsmi İrəvan keçmişi kənara qoymaq istəyirsə, bunu nəzərə almalıdır. Rəsmi İrəvan, eyni zamanda, nəzərə almalıdır ki, qondarma “soyqırımı” məsələsinin hansısa formada qaldırılması, istər-istəməz, hazırda ölkənin can atdığı Türkiyə-Ermənistan normallaşması baxımından inamsızlıq və etimadsızlıq mühiti formalaşdırır. Axı Qərbdəki bəzi dairələrin zaman-zaman bu cəfəngiyyatdan Ankaranı hədəfə almaq üçün yararlandıqları məlumdur.

Digər tərəfdən, baş nazir Paşinyanın “erməni soyqırımı” ilə bağlı həqiqətlərin araşdırılmasına eyham vuran fikirləri var. Həqiqət isə tarixi faktlardadır. Vaxtilə Türkiyə dövləti Ermənistanla birgə komisiyya yaratmaq və məsələni araşdırmaq təklifini irəli sürmüşdü. Nə ozamankı erməni iqtidarı, nə də dünyadakı “erməni sevdalıları” təklifi müsbət qiymətləndirmədilər. Görəsən niyə? Halbuki gerçəyi bilmək şərtdir. Gerçək isə budur: Birinci Dünya müharibəsindı iştirak edən Osmanlı daxildə erməni xayinliyi ilə üzləşmişdi və bu məqamı hazırda bir sıra hay siyasətçiləri, ekspert və jurnalistləri dilə gətirirlər. Ermənilər məhz köçürülmələr nəticəsində həyatlarını itirmişdilər. Amma bu baxımdan istifadə edilən 1,5 milyon rəqəmi uydurmadır. Ermənistan XİN-in bəyanatında yer almış və kimlərinsə sırf erməni olduqları üçün qətlə yetirilmələrinə, yaxud digər xoşagəlməz rəftara məruz qalmalarına dair məqamlar da həqiqətin təhrifindən başqa bir şey deyil. Çünki ortaya elementar sual çıxır: Nəyə görə çoxsaylı millətlərin və xalqların yaşadıqları Osmanlı imperiyasında məhz ermənilər ayrı-seçkiliyə məruz qalmışdılar? Səbəbi göstərdik.

*(ardı 9-cu səhifədə)*

# Saflıq sindromu və ya Ter-Petrosyan üçün nekroloq

## *“Keçmişi siyasi həyatdan qovmağ”ın Ermənistana ibrət yükü*

**Bəribaşdan deyək ki, Ermənistanın baş naziri Nikol Paşinyanın ölkənin birinci prezidenti Levon Ter-Petrosyan haqqında dilə gətirdiyi fikirlərdə atmaca payı var. Çünki 1945-ci ildə Suriyada doğulmuş, sonra ailəsi sabiq SSRİ-də məskunlaşmış, 1988-ci ildə “Qarabağ komitəsi” kimi qondarma quruma rəhbərlik etmiş Ter-Petrosyan terrorçu “Daşnaksütyun” partiyasının üzvü olmayıb. Hətta birinci prezidentin zamanında bu partiyanın Ermənistandakı fəaliyyətinə rəsmən qadağa qoyulub.**



O qadağa ki, 1998-ci ildə, daha doğrusu, Ter-Petrosyanın dövlət başçısı postundan uzaqlaşmasından sonra aradan qalxdı. Elə isə Paşinyan nə demək istəyib? Əslində, baş nazir suala cavabını açıqlamasının sonunda verib. O deyib ki, qarşıdan gələn parlament seçkiləri “keçmişləri siyasi həyatdan qovmaq” üçün müstəsna imkandır. Keçmişlərin sırasında isə hazırda Erməni Milli Konqresinin sədri olan L.Ter-Petrosyan da var. O Ter-Petrosyan ki, son zamanlar Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinlə tez-tez görüşmüş və belə təəssürat yaranmışdı ki, Levon Moskvanın müəyyənləşdirdiyi xəttin təmsilçisi, parlament seçkilərində baş nazirliyə namizədidir. Amma...

“Əmması” budur ki, Ermənistanda hazırda cərəyan edən proseslər fonunda L.Ter-Petrosyan heç də ciddi fiqur deyil. Görünür, o, Kopırkinin timsalında Rusiyanın müəyyənləşdirdiyi kursa uyğun gəlməyib. Hər halda, belə ehtimal yürütmək mümkündür. Həm bu fikrimizi möhkəmləndirmək, həm də ümumi mənzərəni aydınlaşdırmaq üçün çox da uzaq olmayan keçmişə qayıdaq. Məsələ ondadır ki, qondarma “Qarabağ hərəkatı”nın Ermənistanın siyasi səhnəsinə çıxardığı L.Ter-Petrosyanın prezidentliyi müddətində, yəni 1991-1998-ci illərdə “Daşnaksütyun” Partiyası ölkədə güclü siyasi və ideoloji təşkilat qiyafəsində idi. Yəqin Levonun 1994-cü ildə onun fəaliyyətini qadağan etməsinin səbəbi məhz bu olmuşdu. Şübhəsiz, başqa mətləblər də vurğulanmalıdır.

Əlqərəz, L.Ter-Petrosyan Qarabağ məsələsinin avantüra mahiyyəti daşıdığını hamıdan tez anladı. Buna görə kompromisə açıq xətt yürütdü, müharibənin yalnız müəyyən dividendi ilə kifayətlənmək kursu götürdü. Daşnaklar isə əksinə, sərt və maksimalist davrandılar. Levon, eyni zamanda, daşnaklardan fərqli olaraq, beynəlxalq inteqrasiya yolu tutdu, milli-ideoloji və diaspor yönümlü fazadan çəkinməyi doğru saydı. Hətta Azərbaycanın sayəsində Ermənistanın təcrid duruma düşəcəyini və yekunda Qarabağ avantürasının ölkəyə ancaq zərər gətirəcəyini duydu. Uzun sözün qısası, N.Paşinyanın diqqətə çatdırdığımız iddiası daha çox siyasi ritorika kimi qiymətləndirilməlidir. Onun dediklərinin faktlarla təsdiqlənmiş bioqrafik və ya institusional əlaqəsi yoxdur və şübhəsiz, Nikol özü də durumun fərqindədir. O zaman ortaya sual çıxır: Baş nazir nəyə görə L.Ter-Petrosyanı “Daşnaktsütyun” Partiyasının saf nümayəndəsi adlandırıb?

Nikolun sualı cavablandırdığını deyə bilərik. Baş nazir, faktiki olaraq, Levonun daşnaklar üçün alətə çevrilməsinə eyham vurur. Görəsən, o dövrün Ermənistanında alət olmayan var idi? Hər halda, üzdəki siyasilərin sırasında rasional düşüncə sahibinə rast gəlinmir. Axı hamı avantüraya qapılmışdı. Heç kəs nəyisə sorğulamırdı. L.Ter-Petrosyanın Qarabağ məsələsinin cəfəng mahiyyətini ən tez anlayanlardan olmasının və haqqında bəhs etdiyimiz kompromisə hazırlığının isə səbəbi var. O, ulu öndər Heydər Əliyevin beynəlxalq miqyasdakı mahir və cəsarətli diplomatik gedişləri sayəsində çarəsiz duruma düşmüş, qəflət yuxusundan ayılmışdı. Ancaq Levon hay toplumuna həqiqətləri çılpaqlığı ilə deyə bilmədi. Axı xəstə cəmiyyət Qarabağ qalibiyyətinin eyforiyasını yaşayırdı. Bəli, belə bir durumda gerçəklər şok effekti yaradardı. Ter-Petrosyan məhz buna görə reallığı aramla səsləndirdi. Məsələn, o, 1996-cı ildəki çıxışlarının birində Azərbaycan və Türkiyə ilə dil tapmadan Ermənistanın müstəqil dövlət kimi inkişafının olmadığını bildirdi, lakin ümumən xalqı inandırmağı bacarmadı, məsuliyyətdən yayındı, əlini daşın altına qoymadı və asan yola üstünlük verdi. Söhbət Levonun prezident postundan istefasından gedir.

L.Ter-Petrosyanın istefasının digər səbəbi də var - qorxu. O, əsl dövlətçilik istəklərinin xaricdən, konkret olaraq, Rusiyadan buxovlandığını gördü. Gördü ki, ölkənin siyasi müstəqilliyi, obrazlı desək, Qarabağ daşının ağırlığı altında can çəkir. Nəzərə alaq ki, L.Ter-Petrosyandan sonra Ermənistanda bu məqamı dərk edən və güzəştə hazır olan başqaları da meydana çıxdı. Məsələn, ölkə parlamentinin sədri Karen Dəmirçyan və baş nazir Vazgen Sarkisyan. Onların hər ikisi 1999-cu il oktyabrın 27-də Erməni Milli Assambleyasında baş vermiş güllə-boranda həyatlarını itirdilər. Çox güman, L.Ter-Petrosyan axına qarşı üzüb direniş göstərsəydi, eyni aqibətlə üzləşəcəkdi. Deməli, qorxmasına əsas var idi.

L.Ter-Petrosyandan sonra hakimiyyətə Qarabağ cəlladı Robert Koçaryan gəldi və Ermənistan böyük anlamda Rusiyanın tam boyunduruğuna keçdi. Ölkə, həmçinin, xaricdəki erməni lobbi və diaspor təşkilatlarının himayəsindən asılı duruma düşdü. Yəni hər şey həm də daşnakların istədiyi kimi oldu. Durum uzun sürdü və onun sonda nə ilə nəticələndiyini hamı gördü...

Paşinyan hakimiyyətə gəldikdən sonra hazırda tarixin arxivinə atılmış Qarabağ münaqişəsi ilə bağlı danışıqları pozdu. Çünki prosesin fayda verməyəcəyini duydu. O, həmin vaxta qədərki manipulyativ xətdən uzaqlaşaraq, birbaşa mətləbə keçdi və “Qarabağ Ermənistandır, nöqtə” bəyanatını səsləndirdi. O bəyanat ki, ölkəni müharibəyə və rüsvayçı məğlubiyyətə sürüklədi. Gözləntilər özünü doğrultmadı və doğrulda bilməzdi.

Onu da bildirək ki, N.Paşinyan Ter-Petrosyanın Erməni Milli Konqresinin qarşıdakı seçkilərdə ümumiyyətlə heç bir şansının olmadığını deyib. Özü də son dərəcə əmin şəkildə. Yəni Levon saf davranıb daşnakların Qarabağ avantürasına getməklə, bugünkü Ermənistan reallığındakı siyasi mübarizə şansını tamamilə itirib. Yəqin buna görə səfir Kopırkinin Ter-Petrosyanla danışıqları fayda verməyib. Çünki ikincidə istifadə üçün yararlı faza qalmayıb.

Sonda Paşinyanın Ter-Petrosyanla bağlı fikirlərindəki dramatizm yükündən söz açaq. Nikol öz müəllimi olmuş Levona ona görə “saf” deyə bilər ki, ikinci daşnakların oyununa uyduğu üçün reallığı gec dərk etdi. Bu, peşəkar siyasətçi üçün facia mahiyyəti daşıyan durumdur. Təsəvvür edin, bir ideologiyaya inanıb onu özünə həyat amalı seçirsən, sonra inandıqlarının cəfəng mahiyyəti, əslində, kiminsə diktəsi olduğu üzə çıxır. Ortada faciədən də betər, əsl fəlakət var və bu fəlakət təkcə Ter-Petrosyanın yox, ümumən, müstəqillik dövrü Ermənistanının siyasi və ictimai industriyasının miskin və rəzil yaşantısıdır.

İki yüz ildə bir dəfə əlinə dövlət yaratmaq şansı düşsün, saf davranıb imkanı əldən burax. Görünür, bu səbəbdəndir ki, hazırda N.Paşinyan və komandası tarixi şansı əldən verməməyin təbliğatını aparır. Yəni avantüradan uzaq durub sülhə gəlməyin, qonşularla normal münasibətlər qurmağın təbliğatını. Yuxarıda qeyd etdik ki, Ter-Petrosyan bu məqamı yalnız ötəri, cəmi bir çıxışında dilə gətirmişdi.

Ermənistanın birinci prezidentinin daha bir səhvi var. O, hamıdan tez dərk etdiyi reallıq barədə illərlə susdu, həqiqətləri etiraf etmək üçün özündə cəsarət tapmadı. Görünür, saflıq ona ağır gəlib. Paşinyan isə səhvi bağışlamır və atmacalı şəkildə, hətta ironik tərzdə üzə vurur. Axı siyasətin sərt oyun qaydaları var. Bu qaydalar çərçivəsində davranıb “keçmişləri siyasi həyatdan qovmaq” isə Ermənistan üçün həyati əhəmiyyət daşıyır. Çünki növbəti saflıq ölkəni yox edə bilər.

***Ə.RÜSTƏM***
***XQ***

# Gürcüstan səfiri ölkəsinə dönür



**Aprelin 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdəki fəaliyyət müddətinin bitməsi ilə əlaqədar Gürcüstanın fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, Baş nazir iki ölkə arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə səfirə təşəkkür edib, gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsi təqdir edilib, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

***XQ***

# Kəlbəcərdə vətəndaş qəbulu



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aprelin 24-də Kəlbəcər şəhərində yerləşən Dost Mərkəzində Kəlbəcər rayonunun sakinləri ilə görüşüb.**

Nazirlikdən bildirilib ki, vətəndaşlarla görüş zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşların müraciətlərində göstərilən problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

Qeyd edək ki, görüş mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda aprel ayı üzrə vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

***XQ***

# Azərbaycan diplomatiyası sülh, qlobal təhlükəsizlik və rifah məramına sadiqdir



**Aprelin 24-ü Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Günü kimi qeyd olunur. Azərbaycan çoxtərəfli diplomatiya və əməkdaşlığın ən böyük dəstəkçilərindən biri olaraq, Qlobal Cənubun fəal üzvü qismində bu istiqamətdə töhfələr verməyə hər zaman sadiqdir.**

Bu sözlər Azərbaycan Xarici İşlər Nazirliyinin Sülh naminə Beynəlxalq Çoxtərəflilik və Diplomatiya Günü ilə bağlı bəyanatında əksini tapıb.

Bəyanatda, həmçinin bildirilib: "Son illərdə ölkəmizin çoxtərəfli diplomatiya və əməkdaşlıq müstəvisində əldə etdiyi çoxsaylı nailiyyətlər sırasında Qoşulmama Hərəkatı (NAM), Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Quruculuğu Tədbirləri üzrə Müşavirə (CICA), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC) kimi mühüm təsisatlara uğurlu sədrlikləri qeyd edilə bilər.

2026-cı il ərzində ölkəmizin Ümumdünya Şəhərsalma Forumu (WUF13), İslam İnkişaf Bankının illik toplantıları, Dünya Ətraf Mühit Günü (WED26), CICA dövlət və hökumət başçılarının Zirvə Görüşü kimi beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi bir daha çoxtərəfli diplomatiya və əməkdaşlığa verilən önəmə və beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi Azərbaycanın artan nüfuzuna dəlalət edir.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi və ev sahibliyi çoxtərəfli diplomatiya tarixinə ən uğurlu tədbirlərdən biri kimi həkk olunub. Azərbaycan COP29-da əldə edilmiş tarixi əhəmiyyətli razılaşmaların icrası və irəlilədilməsi, eləcə də xarici siyasətimizdə aktiv sahələrdən birinə çevrilən dayanıqlı inkişaf və iqlim diplomatiyasına töhfələrini davam etdirməkdədir. 2026-cı ildə ölkəmizin ilk dəfə Regional İqlim Həftəsinə ev sahibliyi etməsi nəzərdə tutulur.

Eyni zamanda, Bakı şəhərinin çoxtərəfli diplomatiya, dialoq və əməkdaşlıq üçün önəmli mərkəz qismində əhəmiyyəti artmaqdadır. Yalnız son bir neçə il ərzində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahı və İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi kimi strukturların Bakıda yerləşməsi haqqında qərarlar verilib. Buna əlavə olaraq, cari ilin aprelində İstanbulda keçirilmiş konfrans zamanı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin mənzil-qərargahının da Bakıda təsis edilməsinə dair tarixi qərar qəbul edilib.

Azərbaycan, həmçinin beynəlxalq təşkilatlarda ədalətli coğrafi təmsilçiliyin tərəfdarıdır. Bu istiqamətdə prinsipial mövqe sərgiləməklə yanaşı, Azərbaycan və vətəndaşlarının beynəlxalq təşkilatların seçkili orqanlarında təmsilçiliyinə xüsusi önəm verilir. Yalnız 2025-ci ildə 14 mühüm beynəlxalq qurumlara namizədliyimiz üzrə uğurlu nəticə təmin edilib.

Azərbaycan çoxtərəfli diplomatiya və formatlarda aktiv iştirakı ilə həm beynəlxalq, həm də regional müstəvidə sülh, təhlükəsizlik və rifaha töhfə verməyə bundan sonra da davam edəcək".

***XQ***

# Hikmət Hacıyev çinli nazirlə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Çinin Kiberfəza İdarəsinin naziri Çjuan Junvenlə ikitərəfli əməkdaşlığı müzakirə edib.**

Bu barədə H.Hacıyev özünün "X" hesabında məlumat paylaşıb: "Azərbaycan və Çin arasındakı hərtərəfli strateji tərəfdaşlıq əsasında Çinin Kiberfəza İdarəsinin naziri cənab Çjuan Junvenlə ölkələrimiz arasında rəqəmsal inkişaf, sosial media və dezinformasiya və dipfeyklərlə mübarizə sahəsində ikitərəfli əməkdaşlığı müzakirə etdik".

***XQ***

# Kürdə suyun artması nəzarətdə saxlanılır

**Məlum olduğu kimi, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə dövlət başçısının 2020-ci il 15 aprel tarixli sərəncamı ilə aidiyyəti dövlət qurumlarından ibarət Komissiya yaradılıb.**

Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın fəaliyyəti çərçivəsində ölkə üzrə əsas su anbarlarının iş rejimlərinə ciddi nəzarət olunmaqla, su ehtiyatlarından içməli su təchizatı, suvarma, energetika və digər məqsədlər baxımından planlı, koordinasiyalı və optimal istifadə istiqamətində mütəmadi zəruri tədbirlər həyata keçirilir.

Bu baxımdan, əsas diqqət göstərilən istiqamətləri Kür çayı üzərində yerləşən kaskad tipli Şəmkir-Yenikənd-Mingəçevir-Varvara su anbarları, Araz çayı üzərində yerləşən kaskad tipli Araz-Xudafərin-Qız Qalası su anbarları və əsasən Samur çayından qidalanan kaskad tipli Taxtakörpü-Ceyranbatan su anbarları sistemləri təşkil edir.

Nazirlər Kabinetindən bildirilib ki, aprelin 23-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyanın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın 67-ci iclası keçirilib və iclasda gündəlikdə olan digər məsələlərlə yanaşı, gursululuq dövrünə uyğun olaraq ölkənin əsas su anbarlarının iş rejimlərinin tənzimlənməsi barədə ətraflı müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin proqnoz məlumatlarına əsasən, cari ilin gursululuq dövründə su ehtiyatlarının ötən illərlə müqayisədə daha çox olacağı gözlənilir.

Son vaxtlar Kür çayı üzrə su ehtiyatlarının artması ilə bağlı bildiririk ki, illər üzrə çoxsulu və azsulu fazalar, habelə gursulu dövrlər (aprel, may və iyun ayları) nəzərə alınmaqla çoxillik tənzimləmə prinsipi çərçivəsində Kür çayı üzərində yerləşən su anbarları sistemi Komissiya tərəfindən nəzarətdə saxlanılmaqla operativ qaydada və optimal səviyyədə tənzimlənir.

İclasda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən son günlər ərzində intensiv yağıntılar nəticəsində Kür çayı və onun qolları olan Türyançay, Göyçay, Girdimançay, Qarqarçay və digər çaylarda sululuğun artması, çayətrafı rayonlardakı mövcud vəziyyət, fəsadlara qarşı görülən qabaqlayıcı tədbirlər barədə geniş məlumat verilib.

Hazırda müşahidə olunan su səviyyəsi artımının hidrometeoroloji şəraitlə bağlı olduğu, lokal xarakter daşıdığı və bəzi ərazilərdə mühafizə bəndlərinə təzyiqin artması ilə müşayiət olunduğu bildirilib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rayonlarda yerləşən yerli istismar idarələrinin digər aidiyyəti qurumlarla birlikdə gücləndirilmiş iş rejimində işlədiyi, vəziyyətin ciddi nəzarətdə saxlanıldığı, izafi su həcmlərinin maneəsiz və təhlükəsiz şəkildə Xəzər dənizinə ötürülməsi üçün müvafiq tədbirlər görüldüyü qeyd edilib.

Sonda Baş nazirin müavini, Komissiyanın sədri Şahin Mustafayev su ehtiyatlarından səmərəli istifadə, gursululuq dövründə su və su təsərrüfatı obyektlərində təhlükəsiz su axınının təmin olunması və ölkə üzrə əsas su anbarlarının iş rejimlərinə ciddi riayət olunması ilə bağlı aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verib.

***XQ***

# 397 məcburi köçkün də doğma Ağdamına qovuşdu



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış gündən-günə daha geniş vüsət alır. Həyata keçirilən irimiqyaslı layihələr nəticəsində keçmiş məcburi köçkünlər qürur içində şəhər və kəndlərinə qayıdırlar.**

Aprelin 24-də Ağdam şəhərində növbəti köç sevinci yaşanıb. Bu mərhələdə sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış daha 397 ağdamlının doğma yurd həsrətinə son qoyulub, 110 ailə yenidən qurulan Ağdama dönüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

**Keçmiş məcburi köçkün, 66 yaşlı Xaliq Əzizkərimov sevincini "Xalq qəzeti" ilə bölüşərək bildirdi ki, illərlə bu xoşbəxt günün xəyalı ilə təsəlli tapıblar:**

– Ağdamdan ayrı düşəndə 33 yaşım vardı. Sevincimi, hisslərimi sözlə ifadə edə bilmirəm. Övladlarımla, nəvələrimlə ata yurduma – Ağdama qayıtmışam. Xoşbəxtəm ki, bu günləri görmək mənə qismət oldu. Allah şəhidlərimizə rəhmət eləsin, Ali Baş Komandanımızı, xalqımızı, ordumuzu qorusun! Yaşadığımız bu anlar üçün Vətənimizin azadlığı naminə əməyi olan hər bir kəsə borcluyuq!

**Zəminə Kazımova qeyri-adi hisslər keçirdiyini dedi:**



– Bu gündən etibarən doğma Ağdamımızda, yeni evimizdə yaşayacağıq. Var olsun, dövlətimiz, rahat mənzillə təmin olunmuşuq, bizim üçün hər cür şərait yaradılıb. Ən əsası isə odur ki, daha məcburi köçkün deyilik, övladlarımız azad torpağımızda böyüyəcəklər. Allah bu günləri bizə yaşadan möhtərəm Prezidentimizi qorusun! Çox xoşbəxtik!



Qeyd edək ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində bundan cəmi 4 gün əvvəl, aprelin 21-də də Ağdam şəhərinə daha bir köç baş tutub, 332 nəfərdən ibarət 92 ailə məcburi köçkünlüklə əbədi olaraq vidalaşıb. Köç prosesi mərhələli şəkildə davam etdirilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# MEDİA-nın rəsmi mənbələrə istinad etmək çağırışı

**APA İnformasiya Agentliyi tərəfindən Azərbaycan Respublikası Baş Prokurorluğunun Gəncə Şəhər İcra Hakimiyyətində araşdırma aparması ilə bağlı yayılan məlumat rəsmi mənbələr tərəfindən təsdiqlənməmiş və yanlış məlumatlara əsaslanmışdır.**

Bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin qeyd olunub: "Dövlət orqanlarının nüfuzuna xələl gətirilməsi ilə nəticələnən qanunvericiliklə qadağan olunmuş bu kimi məlumatların mediada yayılmasını yolverilməz hesab edirik.

Bəyan edirik ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.11-1-ci maddəsinə əsasən saxta məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməlidir.

Media subyektlərini və sosial şəbəkə istifadəçilərini məlumatları yayarkən məsuliyyətli olmağa və rəsmi mənbələrə istinad etməyə çağırırıq".

***XQ***

# Siyasət və süni intellekt

## III MƏQALƏ

### Nüvə silahı

Bir çox mənalarda atom silahının yaradılmasına təkan verən elmi kəşflər bəşəriyyətin siyasi, iqtisadi, informasiya, geosiyasi, mədəni, təhlükəsizlik və sosial-psixoloji həyatını dəyişdi. Atom silahının texniki olaraq yaradılması isə qarşıya praktiki təhlükəsi çox ciddi olan bir sıra problemlər çıxardı.

Faktiki olaraq, dünyanın siyasət, dövlət idarəetməsi, elm, sosial, hərbi sferalarda aparıcı yer tutan şəxsiyyətləri onların həlli istiqamətində böyük zəhmətə qatıldılar. Fəaliyyət sahələri fərqli olsa da, onların hər birini birləşdirən bir suala cavab axtarışı vardı: "dünyanı yox olmaq, ümumiyyətlə, bəşəriyyətin məhv olmaq təhlükəsindən necə xilas edək?"



Çünki dünya qarşısında məsələ iki reallığın qarşılıqlı münasibətləri kontekstində kəskinliklə qoyulmuşdu; 1) fiziklər atom silahının tətbiqi sayəsində insan sivilizasiyasının yox ola bilməsi riskini bəyan etmişdilər; 2) elə dairələr vardı ki, geosiyasi məqsədlərə çatmaq üçün nüvə silahının tətbiqini istisna etmirdilər.

Obrazlı desək, dünya XX əsrin ortalarından "nüvə silahını dünya siyasətinin hansı hissəsində yerləşdirək" kimi fundamental suala cavab axtarışına xüsusi diqqət ayırmağa başladı. Bu, faktiki olaraq, dünya siyasi liderləri və strateqləri qarşısına çıxmış dilemma idi. Onun həlli istiqamətində ideya irəli sürməkdə Henri Kissincerin dünya səviyyəsində diqqətə alınan öz mövqeyi vardı.

### Məhdud nüvə müharibəsi

Henri Kissincer hesab edirdi ki, nüvə silahının istifadəsi dünyanın bu sferada ən güclü dövlətlərdən heç birinin tam qələbəsinə təminat verməyəcək və real olaraq dünya məhvolma riski ilə üz-üzə qalacaq. Sonralar sovet alimi N.Moiseyevin riyazi modellər əsasında dünyanın "nüvə qışı"-na məruz qala biləcəyi haqqında tədqiqatı H.Kissincerin nəzəri-geosiyasi proqnozunu elmi olaraq tam təsdiqlədi. Məlum oldu ki, ən güclü dövlətin qalib gəlməsinin tam gücü hərbi silah tətbiqini aşmalı olan digər faktorlarla bağlıdır. H.Kissincerin də ABŞ üçün qələbə strategiyasının mərkəzində bu tezis dayanır. Onun daxil etdiyi "məhdudlaşmış nüvə müharibəsi" strategiyası ona əsaslanır. Onun qısa izahını verək.

H.Kissincer 1957-ci ildə "Nüvə silahı və xarici siyasət" əsərində yazırdı ki, "məhdud nüvə müharibəsi özlüyündə uğura təminat vermir". Lakin həmin müharibə növündə ABŞ-ın "sosial, texniki və psixoloji üstünlüyü ən yaxşı təzahür edə bilər". Deməli, H.Kissincer üçün məhdudlaşmış nüvə müharibəsində qarşı tərəfi tam məhv etmək deyil, Amerikanın sosial, texniki və psixoloji üstünlüyünü təmin etmək başlıca məqsəd kimi müəyyən edilmişdir.

Aydın olur ki, məhdudlaşmış nüvə müharibəsi növü hər şeyi məhv etmək strategiyasına deyil, lokal hərbi əməliyyatlardan və diplomatiyadan qüvvələr balansına nail olmaq üçün istifadə strategiyasına əsaslanır.

### Yeni qüvvələr balansı axtarışı

Burada çox mühüm bir məqam mövcuddur. H.Kissincerin yanaşmasında balans yaratmaq son məqsəd kimi çıxış edir. Bu isə o deməkdir ki, məhdudlaşmış nüvə müharibəsi pozulacaq balansı yeni miqyas və məzmunda bərpa etməyi ciddi nəzərdə tutur. Yəni məqsəd, ümumiyyətlə, balansı məhv etməkdən ibarət deyildir – onun əvəzində elə yeni balans yaratmaqdır ki, ABŞ-ın üstünlüyünü təmin etsin. O isə asan məsələ deyil, çünki çoxlu sayda "yumşaq faktor"un nəzərə alınmasını və onlardan sistem halında optimal səmərəli istifadəni mütləq surətdə aktuallaşdırır. Buradan potensial olaraq iki qənaət əldə edə bilərik.

Birincisi, ümumi geosiyasi-nəzəri səviyyədə bu, faktiki olaraq, bütövlükdə müharibə təsəvvürünü dəyişmək, ona tamamilə fərqli məzmun və məqsəd vermək idi. O cümlədən yeni faktorların kompleksindən istifadə məsələsini real surətdə gündəmə gətirmək demək idi.

İkincisi, elə təsir mexanizmləri yaradılmalı idi ki, özlüyündə mürəkkəb və riskli olan məhdud nüvə müharibəsində "yumşaq funksiya" sayəsində balanslaşmanı barışın təməlinə yerləşdirməyə təminat versin.

### İnformasiya-kommunikasiya texnologiyalarının diktəsi

Beləliklə, H.Kissincerin yanaşması avtomatik olaraq yeni informasiya-kommunikasiya texnologiyalarından müharibədə maksimum istifadə məsələsini gündəmə gətirməli idi. Bu prosesə keçən əsrin ortalarından başlayaraq Qərbdə yeni informasiya-kommunikasiya texnologiyalarının, süni intellektin müxtəlif növlərinin, güclü kompüter proqramlarının yaradılması konkret məzmun verdi. Mütəxəssislər həmin kontekstdə britaniyalı mühəndis D.Dammerin inteqrəolunmuş çiplərini (İC, 1952-1959-cu illər), Uilyam Şoklinin tranzistorlarını (XX əsrin 50-ci illərinin sonu), Robert Noysun özünün yaratdığı "Fairchild Semiconductors" firmasında 3 illik gərgin fəaliyyət sayəsində yeni çiplər yaratmasını (XX əsrin 50-ci illərinin sonu 60-cı illərin əvvəlləri) xüsusi qeyd edirlər.

Bütün bu kimi faktları birləşdirərək "rəqəmsal mədəniyyət" anlayışının müəllifi Çarli Gir yazırdı: "XX əsrin 60-70-ci illərində postindustrial informasiya cəmiyyəti layihəsinin həyata keçməsi üçün texnoloji alətlər yaradıldı. Əvvəlcə, demək olar ki, eyni zamanda mini-kompüterlər meydana gəldi, sonra isə personal kompüterlər yaradıldı. Sonuncu, başqa hadisələrlə yanaşı... kompüter texnologiyaları paradiqmalarının meydana gəlməsinə təkan verdi". Yəni informasiya faktorunun Qərb cəmiyyətlərində dominantlığı fraqmentar və sırf texnoloji məsələ deyil – o, bütövlükdə cəmiyyətin yeni sosial-mədəni və iqtisadi-informasiya növünün formalaşmasına birbaşa bağlıdır.

### Köklü bağlılıq

Yuxarıda vurğulanan məqamlar müharibələrin yeni növlərinin meydana gəlməsinin anatomiyasını dərk etmək baxımından olduqca əhəmiyyətlidir. Çünki müasir dövrün sürətli yeniləşmələri fonunda "müharibə və sülh" kontekstində onlar vacib rol oynaya bilərlər. Ayrıca, hazırkı mərhələdə müharibənin məqsədlərinin dəqiq müəyyən edilməsi çox əhəmiyyətlidir. Burada kimin qalib gələcəyini proqnozlaşdırmaqdan çox, ümumiyyətlə, müharibələrin olmamasına necə nail olmağın fəlsəfi, geosiyasi və siyasi kriteriyalarını aydınlaşdırmaq aktualdır. Bu baxımdan H.Kissincerin "məhdud nüvə müharibəsi" açar prinsip rolunu oynayır. Çünki bu yanaşmanın fonunda, ümumiyyətlə, nüvə silahlarından istifadənin yolverilməzliyi ön plana çıxır.

Digər tərəfdən, aydın olur ki, XX əsrin ikinci yarısından başlayaraq siyasətlə yeni texnologiyaların arasındakı əlaqələr fundamental xarakter daşıyır. Yeni texnologiyaların müharibələrdə tətbiqi hər şeydən öncə konkret dövlətin siyasi kursunun (daxili+xarici) məqsədlərindən birbaşa asılıdır. Qısa bir nəzəri müqayisə fikrimizi aydınlaşdırır.

Müasir geosiyasi və siyasi təlimlərdə dövlət identikliyi (yəni dövlətin siyasi və geosiyasi kimliyi) çox aktual məsələ sayılır. Onu Qərb nəzəri təlimlərində təsnifləşdirəndə dövlətin xarici siyasətinin mahiyyətini əsas götürürlər. Məsələn, əgər dövlət xarici siyasətini başqalarını təsir altına almaq məqsədi ilə formalaşdırırsa, onun identikliyinə "eqoist identiklik" deyirlər. Belə dövlətlər aqressiv və başqalarına hərbi təcavüzə meyilli olur. Süni intellekt də daxil olmaqla yeni texnologiyaların tətbiqi bu məqsədə xidmət edir. Deməli, siyasi strategiya texnologiyaların tətbiqi strategiyasını müəyyən edir.

Yuxarıda vurğuladığımız nəzəri məsələlər əslində "hibrid müharibə" anlayışına keçid üçün baza hazırlamaq məqsədi daşıyır. Əsas məqsəd isə hibrid müharibə növünün təməldən siyasətlə sıx bağlı olduğunu ifadə etməkdən ibarətdir. Yəni çağdaş mərhələdə kimsə "hibrid təhdid" və "hibrid müharibə" ifadəsini işlədirsə, bunun arxasında mütləq surətdə hansısa geosiyasi və siyasi məqsəd dayanır.

Konseptual yanaşma baxımından da maraqlı bir strateji keçidin mövcudluğunu görürük.

### Nüvə silahından konvensionallığa

Henri Kissincerin müharibə strategiyasında iki məqam sintez halındadır: hədəf ölkənin hərbi zərbə ilə tam məhv edilməməsi və yeni qüvvələr balansının yaradılması. Bu iki aspektin sintezində qarşı tərəf elə zəifləməlidir ki, nə tarixin səhnəsindən tam silinsin, nə də güclü surətdə balans boşluğu yaransın. Bunun üçün hədəf ölkəyə itirəcəklərinin indi itirdiklərindən daha faciəvi olacağı fikrini qəbul etdirmək lazım gəlir. Ancaq burada, taktiki də olsa, nüvə silahından istifadə xeyli risklər meydana gətirir və itkilərin daha geniş geosiyasi məkanda meydana gəlməsi üçün əlavə şərait yaradır. Çünki özlüyündə nüvə silahı kütləvi məhv etmək imkanına malikdir və onun hansı gücdə tətbiq olunması məsələsi öncədən aydın deyildir. H.Kissincerin müharibə növünün zəif cəhəti bununla bağlıdır.

Digər tərəfdən, yeni texnologiyalar və süni intellekt növləri inkişaf etdikcə aydın olurdu ki, "yumşaq təsir" daha "sivil" təsiri bağışlayır. Son nəticə hərbi güc tətbiqi variantı ilə eyni ola bilər: hədəf ölkə öz funksionallığını və müstəqilliyini daxili strukturu pozulanda itirə bilər və ya kənardan tam asılı hala gələr. Bu zaman zahirən həm ölkə saxlanır (klassik hərbi anlamda məhv edilmir), həm də o, az miqyasda xarabaya çevrilir. Xarabanı yenidən qurmaq üçün qalib ölkənin iradəsi və seçimi əsas götürülür.

Nümunə kimi, deyə bilərik ki, II Dünya müharibəsində SSRİ, Avropanın bir sıra ölkələri əsl xarabaya çevrilmişdilər və onların dirçəlməsi xeyli uzun sürən, böyük xərc tələb edən, başlıca olaraq isə dövlətin müstəqilliyini saxlaması ilə nəticələnən çətin proses oldu. Almaniya müstəqil oldu və gücləndi, SSRİ isə dünyanın iki fövqəlgücündən biri oldu. Bu, müəyyən dairələri, təbii ki, qane etmirdi və onlar hətta qalibin belə postmüharibə mərhələsində özlərindən asılı olmasında maraqlı idilər. Bunun üçün isə güclü siyasi kurs, uyğun hərbi doktrina və prinsipcə yeni müharibə növü tapmaq lazım idi.

Qərb bu məntiqlə faktiki olaraq, indi "hibrid" adlandırılan yeni müharibə növünün astanasına gəlib çıxmışdı. "Hibrid müharibə"nin mahiyyəti adından bəllidir. "Hibrid" latıncadan tərcümədə "qarışıq" anlamını verir. Bu anlayışdan biologiyadan tutmuş avtomobillərə və digər texniki vasitələrə qədər müxtəlif sferalarda istifadə edirlər. Texnikada hibrid iki müxtəlif texnologiyanın bir-biri ilə uzlaşdırılmasını ifadə edir. Bütün tətbiq istiqamətlərində isə hibrid fərqli keyfiyyətlərin, mexanizmlərin, funksionallığın sinkretik birliyini əks etdirir. Deməli, hibridləşmə ona daxil olan hər bir komponentin daha yüksək və səmərəli nəticələr almaq üçün lazımi səviyyədə istifadə imkanlarını özündə ehtiva edir.

Doğrudur, bütövlükdə "hibrid müharibə"ni müxtəlif cür izah edirlər. Hətta onun qədimdən mövcud olduğunu yazırlar. Ümumi səviyyədə bu, belə ola bilər. Lakin çağdaş dövr üçün hibrid müharibə müasir texnologiyaların və süni intellektin geniş istifadə edildiyi, həm də konvensional (adi) silahlardan istifadə ilə həyata keçirilən sinkretik (qarışıq) müharibə növüdür. Bu anlamda o, məqsəd baxımından bir tərəfdən H.Kissincerin "məhdud müharibə" doktrinasının davamıdır, digər tərəfdən isə sırf müasir dövrə aiddir.

Burada başlıca məqam hibrid müharibəsində nüvə silahından adi silahlara keçiddən ibarətdir. Bununla total dağıdıcılığı lokal dağıdıcılıq əvəz edir. Lakin nəticə eynidir: qarşı tərəfi qalibə sərf edən kompromisə vadar etmək. Bu, təntənəli müqavilə ilə də sonuclana bilər, lakin əsas odur ki, qalib daha çox qazansın! Eyni zamanda, süni intellektdən, ən yeni informasiya-kommunikasiya texnologiyalarından, kiber vasitələrindən geniş və prinsipial istifadə mühüm şərtdir.

Bütün bunlara rəğmən, XXI əsrin təcrübəsi göstərir ki, hibrid müharibə də son növ deyil. Çağdaş dövr birbaşa dövlətin siyasi kursunun mahiyyəti ilə bağlı olan fərqli müharibə növlərini yaratmaqdadır. Maraqlı tərəfi odur ki, müasir müharibə növləri siyasətdən daha çox asılı hala gəməkdədir. Bunun da başlıca səbəbi süni intellektdən, ən yeni informasiya texnologiyalarından, kibervasitələrdən daha geniş və dərin istifadə ilə əlaqəlidir.

Burada yeni paradoks meydana gəlir: müəyyən dairələr insan zəkasının ən humanist töhfələrini, yaradıcılığa, birləşməyə, daha yüksək rifaha malik cəmiyyət qurmağa deyil, bütün dünya üçün həssas olan dağıdıcılığa istiqamətləndirirlər! Bu zaman yeni və çox hiyləgər "sivil üsullar"-dan (yəni klassik hərbi anlamda məhv etməyən) istifadə edirlər! Ancaq həmin "sivil üsullar"ın dağıdıcılıq potensialı klassik və qeyri-klassik müharibə növlərini qat-qat üstələyə bilər.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***



# Berlinin yeni hərbi doktrinası

## *"Avropa qarşısında məsuliyyət" və Bundesverin təhlükəsizlik addımı*

**İkinci Dünya müharibəsindən sonra Avropada təhlükəsizlik sistemi əsasən iki sütun – kollektiv müdafiə və tarazlaşdırılmış güc bölgüsü üzərində qurulmuşdu. Modeldə Almaniya iqtisadi güc mərkəzi kimi yüksəlsə də, hərbi ambisiyalarını uzun illər məhdud çərçivədə saxlayırdı. Lakin son illər geosiyasi təlatümlər, Rusiya–Qərb qarşıdurmasının dərinləşməsi, Ukrayna müharibəsi, NATO-nun şərq cinahında artan gərginlik və Avropanın strateji muxtariyyət axtarışları Berlinin təhlükəsizlik doktrinasını kökündən dəyişdi.**

Bu günlərdə Almaniya Müdafiə Nazirliyi "Avropa qarşısında məsuliyyət" adlı sənəd qəbul edib. Sənədə görə, Bundesverin 2039-cu ilədək Avropanın ən güclü ordusuna çevrilməsi nəzərdə tutulub. Maraqlıdır ki, təşəbbüs Rusiya təhlükəsinə cavab kimi təqdim olunur. Elə bu günlərdə Almaniyanın Müdafiə Nazirliyi hərbi strategiya sənədinin bir hissəsini açıqlayıb. Sənəddə Rusiya bütün ölkə üçün hərtərəfli və genişmiqyaslı hərbi-strateji təhdid kimi qiymətləndirilib. Bildirilib ki, Rusiya artıq Almaniya və digər müttəfiqlərə qarşı hibrid əməliyyatlar həyata keçirir. Nazirlik hesab edir ki, Rusiya dövlətin bütün imkanlarını səfərbər edir və uzaqmənzilli zərbə potensialı vasitəsilə Avropanı bütün istiqamətlərdən təhdid edir: "Rusiya Qərbi düşmən qüvvə kimi görür, Avropa ölkələrinin NATO-ya qoşulmasını isə özünə qarşı mühasirə siyasəti hesab edir. Moskvanın son məqsədi Avropanın təhlükəsizlik nizamını yenidən formalaşdırmaqdır. Strategiyanın əsas diqqəti hələlik Rusiyaya qarşı cavab tədbirlərinə yönələcək. Çünki Rusiya Almaniya, Avropa və transatlantik təhlükəsizlik üçün ən ciddi təhdiddir".

Nazirliyin rəsmi açıqlamasından o da bəlli olur ki, Almaniya məhz Rusiya səbəbindən hərbi imkanlarını gücləndirmək istiqamətində səyləri sürətləndirir. Plan ümumilikdə 460 min hərbçi — 260 min aktiv xidmətçi və 200 min ehtiyat qüvvədən ibarət ordu yaratmağı, eyni zamanda, uzaqmənzilli yüksək dəqiqlikli zərbə imkanları formalaşdırmağı nəzərdə tutur.

Yeri gəlmişkən, hadisə 1955-ci ildə Bundesverin yaradılmasından bəri Almaniyanın təhlükəsizlik mühitinin qiymətləndirilməsi və fövqəladə hallarda qoşun yerləşdirilməsi planlarını əhatə edən hərbi strategiya hazırladığı ilk haldır. Almaniya, həmçinin Ukraynadan sonra Rusiyanın təxminən 2029-cu ildə NATO üzvü olan ölkələrdən birinə müdaxilə edə biləcəyini də nəzərdən keçirir. Bu çərçivədə ötən il ölkə müdafiə büdcəsinin idarə olunmasında çevikliyi artırmaq üçün Əsas Qanuna (Konstitusiyaya) dəyişiklik edib. Eyni zamanda, şəxsi heyət çatışmazlığı və ya milli böhran halında parlament səsverməsi ilə məcburi hərbi xidmətin bərpasına imkan verən qanuna da yenidən baxılıb.

Məsələyə Rusiyanın yanaşması maraqlıdır. Rəsmi Moskva Almaniyanın hərbi potensialını gücləndirmək istəyini ciddi qəbul edir. Bu barədə Rusiyanın xarici işlər nazirinin müavini Dmitri Lyubinski "İzvestiya"-ya müsahibəsində bildirib. Onun sözlərinə görə, Almaniyanın ən yaxın qonşularının hamısı Berlinin hərbi planlarına birmənalı yanaşmır. D.Lyubinskinin sözlərinə görə, Almaniyanın hərbiləşmə planları, xüsusilə də ordunun sayını artırmaq niyyəti "Avropada liderlik funksiyalarına iddia" kimi qiymətləndirilə bilər. Bəli, Berlinin bu xətti Avropada müxtəlif reaksiyalar doğurur. Bəziləri Almaniyanın hərbi güclənməsini NATO-nun Avropa dayağının möhkəmlənməsi kimi təqdim edir. Tarix amili və regional rəqabət isə bəzi paytaxtlarda prosesə ehtiyatla yanaşmaya səbəb olur. Çünki Almaniyanın güclənməsi Avropada liderlik balansına birbaşa təsir edir. Ən açıq narahatlıq Fransa istiqamətində hiss olunur. Paris uzun illər özünü Avropanın əsas hərbi gücü və strateji düşüncə mərkəzi hesab edib. Nüvə potensialı, ekspedisiya imkanları və müdafiə sənayesinin müstəqil bazası Fransaya bu statusu verib. Almaniyanın "ən güclü Avropa ordusu" iddiası hazırda bu statusa meydan oxuma kimi görünə bilər. Fransanın nüvə çəkindirmə imkanları fonunda Almaniyanın bu sahədə imkanlarının olmaması bəzilərinə Berlinin ambisiyalarını məhdudlaşdıran amil kimi görünür. Paraleldə Almaniyanın Fransanın nüvə potensialının modernləşdirilməsinə maliyyə dəstəyi müqabilində təhlükəsizlik təminatı almaq ssenarisi Avropada yeni kollektiv çəkindirmə modelini müzakirəyə çıxarıb.

Polşa məsələyə daha həssas yanaşır. Almaniyanın hərbi yüksəlişi Polşada potensial güc konsentrasiyası kimi izlənilir. Reparasiya mövzusunun zaman-zaman yenidən gündəmə gətirilməsi göstərir ki, siyasi etimad tam formalaşmayıb. Varşava üçün problem bu gücün gələcəkdə hansı siyasi məqsədlərlə istifadə oluna biləcəyi ilə bağlı qeyri-müəyyənlikdir.

Yunanıstanın narahatlığına gəldikdə, Afina Almaniyanın güclənməsinin Türkiyəyə təsirindən ehtiyat edir. Alman texnologiyalarının və müdafiə komponentlərinin Ankaraya ötürülməsi Egey regionunda qüvvələr balansına təsir göstərə bilər. Bu səbəbdən Almaniyanın silahlanması dolayı təhlükəsizlik riskləri prizmasından qiymətləndirilir.

Prosesdə daha az müzakirə olunan, amma mühüm məsələ iqtisadiyyatın hərbiləşməsidir. Berlinin hərbi sifarişlər vasitəsilə sənayeni stimullaşdırmaq cəhdi, əslində, silahlanma hesabına iqtisadi canlanma modelinə yaxınlaşır. Müdafiə xərcləri iqtisadi tənəzzül riskləri fonunda daxili bazara impuls aləti kimi təqdim olunur. Lakin modelin davamlılığı sual altındadır. Çünki hərbi istehsal uzunmüddətli büdcə öhdəlikləri yaradır və struktur islahatları əvəz etmir.

Sonda ABŞ faktorunu da nəzərdən qaçırmaq olmaz. Vaşinqton uzun illər Avropanı daha çox müdafiə xərci çəkməyə çağırırdı. Bu mənada Almaniyanın silahlanması transatlantik gözləntilərlə uzlaşır. Lakin Avropa həddən artıq strateji cəhətdən müstəqilləşərsə, gələcəkdə ABŞ ilə maraq fərqləri dərinləşə bilər. Paradoksal vəziyyət Avropanın özünü gücləndirməsinin, eyni zamanda, yeni geosiyasi suallar yaratdığını göstərir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

ABŞ artıq öz təhlükəsizlik yükünün bir hissəsini azaltmaq niyyətindədir və hesab edir ki, bu yükü Avropa ölkələri öz üzərinə götürməlidir. Onların demoqrafik resursları buna imkan verir, eyni zamanda, iqtisadiyyatları və maliyyə imkanları daha güclü müdafiə sistemi qurmaq üçün kifayət qədər potensiala malikdir.

Əvvəllər Almaniya Avropa İttifaqının əsas iqtisadi güc mərkəzi kimi çıxış edirdisə, hərbi və diplomatik üstünlük daha çox Fransanın payına düşürdü. Lakin indi vəziyyət dəyişir. Fransa Avropanın yeni təhlükəsizlik strategiyasına cavab vermək üçün məhdud iqtisadi imkanlara malikdir, Almaniya isə bu yükü daşımaq iqtidarında, hətta məcburiyyətindədir. Xatırlatmaq lazımdır ki, təxminən 30 il əvvəl, Varşava Paktı dövründə Avropada ümumilikdə 300 minlik ordu mövcud idi. İndi isə bu rəqəm kəskin şəkildə azalıb. Məsələn, Qərbi Almaniyanın ordusu bir vaxtlar 500 min nəfərdən çox idi, bu gün isə birləşmiş Almaniyanın ordusu 200 mini belə keçmir. Belə bir şəraitdə və ABŞ-ın Avropadan tədricən uzaqlaşması fonunda, qitənin təhlükəsizliyini mövcud güc strukturu ilə təmin etmək çətin görünür. Xüsusilə də Rusiya tərəfindən regionda hərbi müdaxilə risklərinin artdığı bir vaxtda bu boşluq daha aydın hiss olunur. Bu səbəbdən Almaniyanın hərbi sənayesini yenidən əvvəlki səviyyəyə, hətta daha yüksək mərhələyə çatdıracağı ehtimalı güclənir.

Tarixi kontekstdə iki dünya müharibəsi ilə bağlı yaddaşlar nəzərə alınsa da, Almaniya artıq öz iqtisadi gücünə və demoqrafik potensialına uyğun şəkildə hərbi güc sahibi olmağa doğru irəliləyir. Bu, kimlər üçün məmnunluq, kimlər üçün narahatlıq doğursa da, reallıq getdikcə bu istiqamətdə formalaşır. Hətta Almaniyanın raket və digər yüksək texnologiyalı silah sistemlərinə yönəlməsi də istisna edilmir. Onun sənaye və texnoloji potensialı nəzərə alındıqda, bu cür sistemlərin istehsalı uzunmüddətli perspektivdə mümkün görünür. Çünki Almaniya bu gün artıq Avropa İttifaqında texnoloji baxımdan ən öndəgedən dövlətlərdən biri hesab olunur.

*25 Aprel Sahibkarlar Günüdür*

# Azərbaycan dövləti özəl sahənin inkişafını davamlı himayə edir

**2002-ci il aprelin 25-də ümummilli lider Heydər Əliyev yerli sahibkarlarla, həmin ilin may ayında isə xarici iş adamları ilə görüşlər keçirib. Prezident İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, 25 aprel ölkədə Sahibkarlar Günü kimi qeyd olunur. Bu günün təsis edilməsi ölkənin sosial-iqtisadi inkişafına, məşğulluğun artırılmasına və biznes subyektlərinin fəaliyyətinin genişlənməsinə müsbət təsir göstərir. Eyni zamanda, Sahibkarlar Günü qeyri-neft sektorunun inkişafına verilən önəmin bariz nümunəsidir.**

Son illərdə Azərbaycanda biznes və investisiya mühiti ardıcıl olaraq yaxşılaşdırılıb, hüquqi baza təkmilləşdirilib, dövlət–sahibkar münasibətləri yeni mərhələyə yüksəlib. Aparılan islahatlar nəticəsində son 20 ildə ölkə iqtisadiyyatı təxminən 4 dəfə artıb, yoxsulluq və işsizlik səviyyəsi isə 5 faizə qədər enib. Qeyd etmək lazımdır ki, hər bir biznes fəaliyyətinin formalaşmasında bir sıra faktor həlledici rol oynayır.

Nəzərə alsaq ki, Azərbaycan coğrafi baxımdan strateji və unikal bir məkanda yerləşir. Ölkənin açıq dənizə birbaşa çıxışı olmasa da, Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına ciddi təkan verib. Hazırda ölkə ərazisində Şərq–Qərb və əks istiqamətdə, eləcə də Şimal–Cənub marşrutları üzrə beynəlxalq nəqliyyat dəhlizləri tam şəkildə fəaliyyət göstərir.

Sahibkarlığın inkişafına mühüm təkan verən başqa bir amil də ölkədə sənaye zonalarının yaradılmasıdır. Belə ərazilər müasir iqtisadiyyatın struktur dayaqlarından biri olaraq sahibkarlığın inkişafında vacib rol oynayır. Xüsusilə sənayeləşmə siyasətini prioritet seçən ölkələrdə bu zonalar investisiya cəlbi, istehsalın genişləndirilməsi və yeni biznes subyektlərinin formalaşması baxımından effektiv hesab olunur.

İlk növbədə, sənaye zonaları sahibkarlar üçün əlverişli biznes mühiti yaradır. Vergi və gömrük güzəştləri, hazır infrastruktur, logistika imkanları və inzibati prosedurların sadələşdirilməsi yeni təşəbbüslərin reallaşdırılmasını sürətləndirir. Bu isə xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin bazara daxil olmasını asanlaşdırır və onların rəqabət qabiliyyətini artırır.

Yerli sahibkarlara ixrac imkanlarının genişləndirilməsi istiqamətində də ciddi dəstək göstərilir. Bu məqsədlə xarici ölkələrdə Azərbaycan Ticarət evləri yaradılıb və onlar "Made in Azerbaijan" brendinin təşviqi üçün mühüm platforma rolunu oynayır. Ticarət evləri yerli məhsulların xarici bazarlara çıxışını asanlaşdırır, satışın təşkilinə və yeni tərəfdaşlıqların qurulmasına dəstək verir, eyni zamanda, bazar araşdırmaları apararaq sahibkarlara məlumat təqdim edir. Bundan əlavə, sərgi və təqdimatların təşkili, distribütor şəbəkələrinin qurulması və ixrac prosesində yaranan məsələlərin həlli də bu mərkəzlərin fəaliyyət istiqamətlərinə daxildir. Hazırda Belarus, Çin, Ukrayna, Latviya, Polşa və Birləşmiş Ərəb Əmirlikləri (Dubay) daxil olmaqla bir sıra ölkələrdə Azərbaycan Ticarət evləri fəaliyyət göstərir və bu şəbəkə genişlənməkdə davam edir.



İşğaldan azad olunmuş ərazilərdə – Qarabağ və Şərqi Zəngəzurda biznesin inkişafı üçün dövlət geniş güzəşt və dəstək mexanizmləri tətbiq edir. Bu addımlar investisiya axınını sürətləndirmək, biznes mühitini canlandırmaq və məşğulluğu artırmaq məqsədi daşıyır. Rezidentlər 1 yanvar 2033-cü ilədək mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddır. Eyni zamanda, avadanlıq və xammal idxalına görə ƏDV və gömrük rüsumları, eləcə də dividend vergisi sıfır dərəcə ilə tətbiq olunur.

Turizm sahəsində isə hotellərdə gecələmə xidmətlərinə görə ödənilən ƏDV-nin 30 faizi nağdsız, 5 faizi nağd ödənişlərdə geri qaytarılır. Sahibkarların maliyyə resurslarına çıxışı da asanlaşdırılıb: kreditlərin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir, 10 faizi isə 36 ayadək subsidiyalaşdırılır. Sosial sığorta haqları mərhələli şəkildə dövlət tərəfindən qarşılanır, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların kommunal xərclərinin 20 faizi isə 2033-cü ilədək ödənilir.

Bununla yanaşı, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında rezidentlər 10 il müddətinə əsas vergilərdən azaddır və hazır infrastrukturla təmin olunur. Bu güzəştlər Qarabağ və Şərqi Zəngəzurun qısa müddətdə mühüm iqtisadi mərkəzə çevrilməsini hədəfləyir.

***Musa BAĞIRLI***
***XQ***

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Bu gün Azərbaycanda ümumi daxili məhsulun formalaşmasında və əlavə dəyərin yaradılmasında sahibkarların rolu mühüm yer tutur. Xüsusilə qeyri-neft sektorunun inkişafında və dövlət büdcəsinin gəlirlərinin təmin olunmasında, o cümlədən vergi ödənişlərində onların payı əhəmiyyətlidir. Müstəqillik dövründə sahibkarlıq sürətli inkişaf yolu keçərək güclü iqtisadi subyektlərə çevrilib, iri vergi ödəyiciləri və böyük işəgötürənlər formalaşıb. Bu gün özəl sektor yüz minlərlə insanın məşğulluğunu təmin edir və əmək bazarının dinamikliyini artırır.

Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda yaradılmış əlverişli biznes mühiti, güzəştlər və xüsusi iqtisadi zonalar sahibkarlıq fəaliyyətini stimullaşdırır. Bu ərazilərdə reallaşdırılan layihələr yeni iş yerlərinin açılmasına, istehsal və ixrac imkanlarının genişlənməsinə təkan verir. Azərbaycan sahibkarları hazırda iqtisadiyyatın müxtəlif sahələrində fəal iştirak edir, qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verirlər. Onların təşəbbüskarlığı və innovativ yanaşmaları iqtisadi artımı sürətləndirir və xarici iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradır.

Dövlət tərəfindən tətbiq olunan güzəştli kreditlər, vergi imtiyazları və institusional dəstək mexanizmləri sahibkarlığın inkişafını dəstəkləyir. Mövcud problemlər isə dövlət–özəl sektor əməkdaşlığı çərçivəsində müzakirə olunur, qanunvericilik və vergi inzibatçılığı istiqamətində davamlı təkmilləşdirmələr həyata keçirilir.

*Ekspert rəyi*



**Eyyub ABBASOV,**
**"Progress Garden"in təsisçisi və direktoru**

Şirkətimiz 1994-cü ildən fəaliyyətə başlamışdır. Biz əsasən bağçılıq texnikası, landşaft həlləri və peşəkar suvarma sistemləri sahəsində həm fərdi müştərilərə, həm də iri layihələrə xidmət göstəririk.

"Progress Garden" şirkətinin missiyası bazara yeni yanaşmalar gətirmək və insanlara uzunmüddətli fayda verməkdir. Bu yolda əlbəttə ki, çətinliklər az olmayıb. Sınaqlar bizi daim inkişaf etməyə, daha çevik və innovativ olmağa məcbur edib. Xüsusilə son illərdə texnologiyaların sürətli inkişafı kimi faktorlar biznes yanaşmamızı yenidən formalaşdırmağa səbəb olub. Amma biz bu çətinlikləri risk kimi yox, fürsət kimi görürük.

Bu istiqamətdə dünyanın aparıcı istehsalçıları ilə qurduğumuz tərəfdaşlıq əlaqələri işimizin keyfiyyətini daha da yüksəldir. Almaniyanın bağçılıq, meşəçilik və kənd təsərrüfatı texnikası sahəsində tanınmış markaları olan "Stihl", "Viking", "Gardena", "AL-KO", İsveçrənin "Felco", ABŞ-ın "Rain Bird", "DeWalt", "Briggs & Stratton və Oregon", eləcə də Koreyanın "Hyundai Power Tools" markalarının Azərbaycanda rəsmi distributeri olaraq, orijinal və yüksək keyfiyyətli məhsulları ölkəmizə gətiririk. Bu, bizim üçün müştərilərimizə dünya standartlarını təqdim etmək məsuliyyətidir.

Gələcəyə baxışımız isə daha genişdir. Məqsədimiz "Progress Garden" brendini regionda tanınan və etibar edilən bir ekosistem oyunçusu olaraq saxlamaq, innovativ suvarma və landşaft həllərini daha geniş miqyasda tətbiq edərək, paytaxt Bakımızın və eyni zamanda, bölgələrimizin abadlaşdırılmasında fəal iştirakımızı davam etdirməkdir. Eyni zamanda, yerli bazarın inkişafına töhfə vermək, müasir texnologiyaları ölkəmizə gətirmək, yeni iş yerləri yaradaraq dövlətimizin iqtisadi yükünü azaltmaq və bu sahədə peşəkar kadrların formalaşmasına dəstək olmaq bizim üçün xüsusilə önəmlidir.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncam da, bu sahənin prioritet olduğunun əyani sübutudur və bu bizi ciddi motivasiya edir.

25 aprel – Sahibkarlar Günü münasibətilə bütün sahibkarları təbrik edirəm. İnanıram ki, dövlətimizin dəstəyi, davamlı inkişaf, düzgün qərarlar və cəsarətli addımlar sayəsində iqtisadiyyatın bel sütunu sayılan sahibkarlıq ölkəmizdə daha da güclənəcək və yeni uğur hekayələri yaranacaq.

# "Çovdar" mədənində bərpa işləri



**"AzerGold" QSC yerli və beynəlxalq qanunvericiliyə, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq Daşkəsən rayonunun Çovdar kəndinin yaxınlığında yerləşən emal kompleksində rekultivasiya işlərinə başlanılıb.**

Qurumdan verilən məlumata əsasən, "Çovdar" inteqrəolunmuş regional emal sahəsində yerləşən, hazırda istismara yararsız 88 hektarı əhatə edən boş süxur anbarının 15 hektarlıq hissəsində artıq münbit torpaq qatı bərpa edilib, yamacbərkitmə işləri həyata keçirilib. Növbəti mərhələdə bioloji rekultivasiya tədbirləri çərçivəsində əraziyə 300 kiloqram yonca toxumu səpilib. Görülən işlər torpaq strukturunun yaxşılaşdırılmasına və ekosistemin mərhələli şəkildə bərpasına xidmət edir.

Rekultivasiya tədbirləri üzrə layihə planının növbəti mərhələləri çərçivəsində mədənin digər sahələrində hasilat nəticəsində münbitlik xüsusiyyətləri dəyişmiş torpaqların bərpası işlərinin davam etdirilməsi nəzərdə tutulur. Bu mərhələdə rekultivasiya tədbirləri mədən şirkətlərinin ekoloji məsuliyyətinin ayrılmaz hissəsi olmaqla qanunvericilik və beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilir.

Yeri gəlmişkən, "AzerGold" QSC ölkədə rekultivasiya işlərini həyata keçirən ilk dağ-mədən şirkətidir. Artıq şirkət istismarı başa çatmış "Ağyoxuş-1" qızıl mədənində rekultivasiya işlərini başa çatdırıb.

Qeyd edək ki, rekultivasiya faydalı qazıntıların çıxarılması, tikinti və ya çirklənmə nəticəsində pozulmuş torpaqların məhsuldarlığını bərpa etmək, ətraf mühiti yaxşılaşdırmaq üçün həyata keçirilən kompleks tədbirlər sistemidir. Bu proses pozulmuş relyefi düzəldir və torpağı yenidən kənd təsərrüfatı, meşəsalma və ya rekreasiya məqsədləri üçün yararlı hala gətirir.

***XQ***

**Dünən Bakıda keçirilən ikinci Xəzər və Mərkəzi Asiya neft ticarəti və logistikası forumu öz işini davam etdirib. Dəyişən qlobal mühit şəraitində nəqliyyat və infrastruktur, maliyyə aspektləri və sövdələşmələr, eləcə də ticarət strategiyaları kimi əsas istiqamətləri əhatə edən toplantının ikinci günü də müzakirə olunan məsələlər baxımından yaddaqalan olub.**

Forum iştirakçıları əsas boru kəmərlərinin–CPC, BTC, Bakı-Supsa və digərlərinin mövcud gücləri və faktiki ötürmə həcmlərinin icmalı, Orta Dəhliz–Zəngəzur dəhlizinin mümkün açılmasından sonra gözlənilən logistika dəyişiklikləri, tranzit müddətinin azaldılması tədbirləri, Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsinin statusu; liman gücləri və inkişafı – Ələt və Dübəndi (Azərbaycan), Aktau və Kurık (Qazaxıstan), Poti, Batumi və Kulevi (Gürcüstan); yük axınlarının artımına hazırlıq; (BTC) boru kəməri vasitəsilə dünya bazarlarına çıxış imkanlarının genişləndirilməsidir. Bu marşrut, xüsusilə Bosfor boğazı kimi sıx və strateji keçidlərdən asılılığın azaldılması baxımından mühüm əhəmiyyət daşıyır, – deyə o əlavə edib.

SOCAR-ın Gürcüstanda, Qara dənizin sahilində yerləşən terminalının baş direktoru İsmayıl Kərimov bildirib ki, optimal iş rejiminə keçid Kulevi neft terminalının ötürmə gücünü iki dəfə artırmağa imkan yaradıb. Baş direktor rəhbərlik etdiyi şirkətin bu sahədə gördüyü işlərlə bağlı gələcək planlarından da ətraflı bəhs edib. Qeyd olunub ki, gələcəkdə hər birinin tutumu 20 min kubmetr olan 4 yeni yeni çənin tikintisi nəzərdə tutulur ki, buna da, təxminən, 25 milyon ABŞ dolları investisiya qoyuluşu tələb olunur. İşlərin isə 14 ay ərzində tamamlanması gözlənilir.

# Neft ticarəti və logistikası forumu başa çatdı




Özbəkistanın logistika habı kimi rolu – Çin və Cənubi Asiya ilə ticarətdə formalaşan mövqeyi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıb, təklif və mülahizələrini bölüşüblər.

"Central Asia Marketing" şirkətinin sahibi və təsisçisi Kolin Nesbet Qazaxıstandan neft məhsullarının sabit tədarükünü təmin etmək üçün Xəzər dənizinin hər iki tərəfində dəmir yolu və liman infrastrukturuna investisiyaların tələb olunduğunu vurğulayıb. Şirkət rəhbərinin sözlərinə görə, bu proses dövlət orqanları ilə koordinasiya edilməlidir. Qeyd olunub ki, büdcə məhdudluğunun yaratdığı problem səbəbindən bu sahədə təşəbbüs iri istehsalçıların özlərindən gəlməlidir. Onun sözlərinə görə, digər həll yolu Bakı və Kurık yaxınlığında dənizdə yerləşən müvəqqəti üzən terminallardır.

"Mərkəzi Asiya Marketinqi" şirkətinin təsisçisi və icraçı direktoru Kolin Nesbet isə çıxışında diqqəti Xəzər regionu ilə Cənubi Asiya arasında enerji əməkdaşlığının genişləndirilməsi çərçivəsində dəniz əsaslı neft daşımalarının alternativ modeli – təknöqtəli bağlama sistemi və tanker daşımaları konsepsiyasına yönəldib. Hazırda bu məsələnin ekspertlər tərəfindən müzakirə olunduğunu bildirən icraçı direktor deyib ki, sözügedən model Qazaxıstan və Azərbaycan sahillərində yerləşdiriləcək tək nöqtəli bağlama qurğuları vasitəsilə neftin birbaşa dəniz üzərindən daşınmasını nəzərdə tutur.

Kolin Nesbet logistika infrastrukturu məsələlərinə də toxunaraq qeyd edib ki, Xəzər–Mərkəzi Asiya dəhlizində mövcud tutum imkanları, bəzi hallarda həddindən artıq yüklənmə və marşrutların dəyişdirilməsi zərurəti yeni alternativ həllərin aktuallığını artırır. "Modelin əsas üstünlüklərindən biri də neftin Bakı–Tbilisi–Ceyhan

"Orbis Risk Partners" dənizçilik və logistika sahəsində ixtisaslaşmış beynəlxalq risk idarəetmə və sığorta brokeri şirkətinin direktoru Mayk Şou qeyd edib ki, Qırmızı dəniz və Hörmüz boğazı kimi strateji əhəmiyyətli marşrutlarda hərbi risk sığortası bazarı son dövrlərdə daha dinamik xarakter alıb və artıq ümumi sığorta yanaşması üçün keçərli deyil. Onun sözlərinə görə, hər bir gəmi üzrə əvvəlcədən razılaşdırma tələb olunur və sığorta qiymətləri gündəlik bazar dəyişikliklərinə həssasdır.

Şirkət direktoru deyib ki, müasir qlobal logistika mühitində risklərin idarə olunması artıq sığorta məhsulunun mövcudluğu ilə deyil, həm də operativ informasiya mübadiləsi və çevik qərarvermə ilə birbaşa bağlıdır.

"Synergy Consulting Inc" şirkətinin ölkə üzrə direktoru Rüfət Qəmbərov isə bildirib ki, 2026-cı ildə təchizat zənciri maliyyəsində süni intellektin tətbiqi real vaxt rejimində maliyyə vəsaitlərinin izlənməsi və idarə olunması baxımından mühüm rol oynayır. Hazırda ixracatçılar likvidliyi artırmaq məqsədilə getdikcə daha çox debitor borclarının maliyyələşdirilməsindən istifadə edirlər ki, bu da dərhal nağd vəsait əldə etməyə imkan yaradır.

Bununla da ikinci Xəzər və Mərkəzi Asiya neft ticarəti və logistikası forumuna yekun vurulub.

***M.YAQUBZADƏ***
***XQ***

# Transxəzər marşrutunun 2026-cı il iş planı




**Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) iştirakçı dövlətləri 2026-cı il üçün ətraflı iş planını təsdiqləyiblər. Razılaşma Astanada keçirilən TBNM Beynəlxalq Assosiasiyası İdarə Heyətinin iclası və Ümumi Yığıncağı çərçivəsində əldə olunub. Bu barədə "Qazaxıstan Dəmir Yolları" məlumat verib.**

İclaslara "Qazaxıstan Dəmir Yolları"-nın rəhbəri Talqat Aldıbergenov sədrlik edib. Tədbirdə TBNM-ə üzv ölkələr – Qazaxıstan, Çin, Azərbaycan, Gürcüstan və Türkiyə, həmçinin Ukrayna, Bolqarıstan və Rumıniya daxil olmaqla bir sıra Avropa dövlətləri, eləcə də Sinqapur daxil olmaqla beynəlxalq tərəfdaşlar iştirak ediblər.

Görüşlər zamanı iştirakçılar rəqəmsal imzalardan istifadə etməklə elektron sənəd dövriyyəsinin tətbiqi, həmçinin gömrük orqanları ilə daşıma prosesinin bütün iştirakçıları arasında birbaşa məlumat mübadiləsinin təşkili barədə razılığa gəliblər. Bu tədbirlər yüklərin daşınma müddətini azaltmağa və bütün marşrut üzrə əməliyyatların şəffaflığını artırmağa imkan verəcək.

İclasların yekununda bir sıra sənədlər imzalanıb. Qəbul edilən qərarlar TBNM-in Asiya ilə Avropa arasında əsas tranzit dəhlizlərdən biri kimi mövqeyinin daha da möhkəmləndirilməsinə yönəlib.

Qeyd edək ki, Orta Dəhliz regionun bir sıra ölkələrindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət marşrutudur. Bu, ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativdir.

***XQ***

**Dövlətin sosial siyasətinin mühüm istiqamətlərindən biri vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Aprelin 21-də ölkə başçısı, Prezident İlham Əliyevin imzaladığı fərmanla İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) vəsaiti hesabına güzəştli ipoteka kreditləri almaq hüququ olan şəxslərin siyahısına, ən azı, 3 il stajı olan məhkəmə hakimlərinin də əlavə edilməsi bu siyasətin davamıdır. Bu addım, şübhəsiz ki, məhkəmə sistemində çalışan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə, onların peşəkar fəaliyyətində müstəqilliyinin dəstəklənməsinə və korrupsiya risklərinin azaldılmasına xidmət edir. Lakin istənilən sosial-iqtisadi qərarın cəmiyyət və bazar üzərində zəncirvari təsirləri olur. Bəs bu qərar və ümumilikdə, güzəştli ipoteka şərtlərinin genişləndirilməsi fonunda hansı müsbət yeniliklər gözlənilir?**

# Hakimlər də güzəştli ipoteka krediti alacaqlar

*Bəs bu qərar mənzil bazarına necə təsir göstərəcək?*



Güzəştli ipoteka hüququ olan şəxslərin kateqoriyasının genişləndirilməsi birmənalı olaraq mənzil bazarında, xüsusilə də aşağı və orta qiymət seqmentinə aid mənzillərə tələbatı artırır. Bu prosesin gözlənilən təsirlərindən biri inflyasiya riskidir. İqtisadiyyatın qızıl qaydasına əsasən, tələb təklifi üstələdikdə qiymətlər qalxır. Bu da bazarda çıxarışlı və texniki standartlara cavab verən məhdud mənzil fondu şəraitində süni və ya təbii bahalaşmaya səbəb ola bilər. Digər tərəfdən, artan tələb tikinti şirkətlərini yeni layihələrə sövq edərək iqtisadi aktivliyi və yeni iş yerlərini stimullaşdırsa da, təklifin formalaşması müəyyən vaxt tələb edir. Nəticədə, təklifin tələbə adekvat cavab verə bilməməsi ipoteka təsdiqi alan şəxslərin büdcələrinə uyğun mənzil tapmaqda çətinlik çəkməsi ilə nəticələnən mənzil çatışmazlığı riskini yaradır.

**Milli Məclisin deputatı, Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov** məsələ ilə bağlı XQ-yə bildirdi



ki, ölkə başçısının fərmanına əsasən, ipoteka kreditləşməsinin genişlənməsi vətəndaşlarımızın mənzil əldə etmək imkanlarının artmasına təsir edən amillərdən biridir: "Nəzərə alsaq ki, indiyədək İpoteka və Kredit Zəmanət Fondu tərəfindən 3 milyard 630 milyon manatlıq ipoteka kreditləri təqdim olunub və praktiki olaraq, hər il əvvəlki illərlə müqayisədə ipotekaya ayrılan vəsaitin həcminin artdığını müşahidə edirik. Eyni zamanda, 2025-ci ildə, ümumilikdə, 95,16 milyon manatlıq güzəştli ipoteka krediti verilib. Bu, 1156 vətəndaşın güzəştli ipoteka kreditlərindən istifadə etməsi deməkdir. Eyni zamanda, İpoteka Fondu tərəfindən adi ipoteka kreditləri də təqdim olunur. Ötən il fond tərəfindən, o cümlədən güzəştli ipoteka kreditləri daxil olmaqla, təxminən 435 milyon manatlıq ipoteka kreditləri verilib".

Vüqar Bayramov ipoteka almaq hüququ olan şəxslərin siyahısının genişlənməsinin bazarda aktivliyi artıracağını, lakin qiymətlərin formalaşmasında həlledici rol oynamayacağı qənaətindədir. Onun sözlərinə görə, güzəştli ipoteka üzrə maksimal məbləğin 100 min manat olması paytaxtın mərkəzi (birinci və ikinci) zonalarındakı bahalı mənzil bazarına təsirini məhdudlaşdırır: "Digər tərəfdən, daşınmaz əmlak bazarına ipotekadan kənar daha böyük həcmdə vəsait daxil olur ki, bu da bazardakı ümumi tarazlığa ipotekanın təsirini azaldır. Ona görə də son dəyişikliklərdən sonra ipoteka kreditlərinin əmlak bazarına təsirinin əhəmiyyətli dərəcədə artacağını proqnozlaşdırmırıq. Bununla belə, ipoteka kreditləşməsinə çox vəsaitin ayrılması daha çox mənzilə tələbin artması deməkdir. Bu da, təbii olaraq, xüsusilə daşınmaz əmlak bazarında aktivliyin artmasına birbaşa təsir göstərir".

Deputat bu siyahının gələcəkdə daha da genişləndirilə biləcəyini də istisna etmədi: "Güzəştli ipoteka krediti almaq hüququ olan vətəndaşlarımızın siyahısı mütəmadi olaraq genişləndirilir. Yəni bir müddət əvvəl jurnalistlər də həmin siyahıya əlavə olundu. Daha öncə isə pedaqoqlar, yəni orta məktəb müəllimləri bu hüquqdan istifadə etməyə başladılar. Ümumilikdə, güzəştli kateqoriyaların siyahısının genişləndirildiyini müşahidə edirik və təbii ki, növbəti mərhələlərdə də xüsusilə mənzilə ehtiyacı olan və sosial baxımdan həssas qruplara aid vətəndaşların siyahıya daxil ediləcəyi istisna deyil. Ona görə də bu siyahı mütəmadi olaraq nəzərdən keçirilir, genişləndirilir və daha çox vətəndaşın güzəştli ipoteka kreditlərindən istifadə imkanları yaradılır".

İstənilən dövlət proqramında olduğu kimi, burada da bəzi "işbazların" bazardakı aktivlikdən sui-istifadə etməsi ehtimalı narahatlıq doğurur. Mənzil sahiblərinin və ya vasitəçilərin (maklerlərin) alıcının güzəştli ipoteka vəsaiti olduğunu bildikdə qiymətləri süni şəkildə qaldırması ən çox rast gəlinən problemdir. **Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlının** fikrincə, belə



halların qarşısının alınması üçün elektron sistemlərin inteqrasiyası, məlumat bazalarının qarşılıqlı yoxlanılması və müvəkkil bankların məsuliyyətinin artırılması mühüm rol oynayır: "Müraciətlər və seçimlər elektron qaydada həyata keçirilir və müvəkkil bankların iştirakı ilə icra olunur. Bu da insan amilini minimuma endirərək şəffaflığı artıran əsas mexanizmlərdən biridir. Ümumilikdə, mövcud mexanizmlər kifayət qədər şəffafdır. Sadəcə, nəzarət və monitorinq alətləri davamlı olaraq təkmilləşdirilməlidir ki, bu sahədə mümkün sui-istifadə halları minimuma endirilsin".

Ümumilikdə isə, ekspert hesab edir ki, fərmanın mənzil bazarında qiymətlərə və ümumi dinamikaya ciddi təsiri olmayacaq. Onun sözlərinə görə, ipoteka kreditləri, o cümlədən Fond vasitəsilə verilən kreditlər daşınmaz əmlak bazarında həyata keçirilən əməliyyatların nisbətən kiçik hissəsini – təxminən 7-8 faizini təşkil edir və bu tip dəyişikliklər daha çox sosial xarakter daşıyır. Bununla belə, ekspert qeyd etdi ki, hakimlər daha sabit maliyyə imkanlarına malik olduqları üçün onların bazarda iştirakı xüsusilə orta və nisbətən yüksək qiymətli mənzillər kateqoriyasında tələbin qismən artmasına səbəb ola bilər.

Yekunda onu deyə bilərik ki, dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olan güzəştli ipoteka proqramının əhatə dairəsinin genişləndirilməsi vətəndaşların rifahının yüksəldilməsinə, mənzilə əlçatanlığın artmasına və sosial ədalətin təmin olunmasına xidmət edir. Bu istiqamətdə atılan addımlar, xüsusilə də güzəştli kateqoriyaların genişləndirilməsi və maliyyə resurslarının artırılması daha çox ailənin mənzilə sahib olması üçün real imkanlar yaradır. Eyni zamanda, bu proses tikinti sektorunun canlanmasına, iqtisadi aktivliyin artmasına və məşğulluğun genişlənməsinə də müsbət təsir göstərir. Uzunmüddətli perspektivdə isə bu cür sosialyönümlü mexanizmlər həm vətəndaş məmnunluğunun yüksəlməsinə, həm də cəmiyyətdə sosial sabitliyin möhkəmlənməsinə töhfə verir.

***Tacir SADIQOV***
***XQ***

*Araşdırma*

# Qürbətdə cənnət xülyasının gerçəkdə cəhənnəm əzabları

*"Qərbdə rahat həyat" vədi şərqlilərə baha başa gəlir*

**Son illər ölkədə əmək miqrasiyasına maraq sürətlə artır. Xüsusilə Avropa ölkələrində işləmək, yüksək maaş qazanmaq və daha sabit həyat şəraitinə nail olmaq istəyi minlərlə vətəndaşı xaricdə iş axtarmağa vadar edir. Bu, bir tərəfdən iqtisadi səbəblərlə, digər tərəfdən isə qlobal informasiya axını və sosial medianın təsiri ilə getdikcə güclənir. Lakin prosesin sürətlənməsi yeni bir təhlükəni – "qanuni iş" adı altında fəaliyyət göstərən, lakin vətəndaşları aldadaraq maddi ziyana uğradan agentliklərin sayının artmasını da ön plana çıxarır.**

Əmək miqrasiyası bazarında dələduzluq dalğası getdikcə güclənir. Hazırda ölkədə ən çox narazılıq doğuran sahələrdən biri Avropa ölkələrinə işçi göndərmək vədilə fəaliyyət göstərən şirkətlər və vasitəçilərlə bağlıdır. Sosial mediada yayılan reklamlar və elanlarda saatda 10-11 dollar əməkhaqqı, pulsuz yaşayış yeri, qida təminatı, hətta viza, eləcə də leqallaşdırma dəstəyi kimi cəlbedici vədlər yer alır.

Lakin zərərçəkənlərin iddialarına görə, bu vədlərin əksəriyyəti ya ümumiyyətlə yerinə yetirilmir, ya da vətəndaşlara təqdim edilən real şərait reklamda göstəriləndən tamamilə fərqli olur. Məhz bu fakta əsaslanan ekspertlərin rəylərində əmək miqrasiyası bazarının artıq təkcə iqtisadi məsələ deyil, eyni zamanda, ciddi hüquqi və sosial təhlükə yaradan bir istiqamətə çevrildiyi bildirilir.



## "Yüksək maaş" illüziyası necə qurulur?

Əmək miqrasiyası bazarında aldadılma halları zamanı ən diqqətçəkən məqam dələduzluq sxemlərinin klassik üsullarla deyil, müasir rəqəmsal vasitələrlə həyata keçirilməsidir. Sosial şəbəkələrdə, xüsusilə "TikTok", "Facebook" və "Instagram" platformalarında yayılan reklamlar, adətən, Avropada yüksək maaşlı iş görüntüsü yaratmaq, insanların "tez çıxış yolu" axtarışından yararlanmaq, qanunilik illüziyası formalaşdırmaq üçün müqavilə imzalamaq, "az sayda yer qalıb", "təklif məhduddur" kimi psixoloji təzyiq üsullarını diqqətdə saxlamaq və vətəndaşdan ilkin ödəniş tələbini reallaşdırmaq kimi prinsipləri əhatə edir.

Belə reklamların əsas gücü ondadır ki, onlar emosional təsirə hesablanır. İnsanlara "qurtuluş" və "yeni həyat" vədi verilir. Bir çox hallarda vətəndaşlar real araşdırma aparmadan, müqavilənin hüquqi dəyərini yoxlamadan və şirkətin lisenziyasının olub-olmadığını dəqiqləşdirmədən ödəniş etməyə razılaşır. Nəticədə isə əmək bazarında yaranan ümidsizlik və sosial gərginlik dələduzların ən böyük "kapitalına" çevrilir.

Məsələnin ciddiliyini göstərən nümunələrdən biri də Bakıda yerləşən və Avropada, xüsusilə Slovakiya və Almaniyada qanuni iş, viza dəstəyi və leqallaşdırma xidmətləri təklif edən "Davidov Global" agentliyi ilə bağlı iddialardır. Zərərçəkən Təmkin Məmmədovun sözlərinə görə, o, ötən ilin avqust ayında bu agentliyə müraciət edib və 1000 manat ilkin ödəniş həyata keçirib. Müqavilədə onun 3 ay müddətində işlə təmin olunacağı, bunun reallaşmadığı təqdirdə isə vəsaitin 6 ay ərzində geri qaytarılacağı göstərilib.

Lakin Təmkin Məmmədov bildirir ki, artıq həmin vaxtdan 7 ay keçməsinə baxmayaraq, nə işlə təmin olunub, nə də ödəniş geri qaytarılıb. Agentlik tərəfindən isə gecikmə Almaniyanın "qlobal hadisələr səbəbindən miqrant qəbulunun dayandırılması" ilə izah edilib.

Bu arqument bir neçə ciddi sual doğurur. Məsələn, əgər miqrant qəbulu dayandırılıbsa, niyə yeni müştərilərlə müqavilə bağlanılır? Yaxud müqavilədə ödənilən vəsaitin geri qaytarılma müddəti göstərildiyi halda niyə gecikdirilir? Bu suallar, əslində, tək "Davidov Global" şirkətilə bağlı deyil, ümumilikdə, bazarda fəaliyyət göstərən bir çox agentliklərə də aid edilə bilər.

## "Müqavilə" kağız parçasına çevriləndə...

Bir çox vətəndaş belə düşünür ki, müqavilə bağlanıbsa, deməli, qarşıda onu heç bir narahatlıq gözləmir. Halbuki reallıq tam fərqlidir. Azərbaycanda bəzi şirkətlər formal müqavilələr tərtib edərək vətəndaş üçün "hüquqi təminat" görüntüsü yaradır.

Amma həmin müqavilələrdə çox vaxt şirkətin öhdəliyi qeyri-müəyyən ifadələrlə yazılır, işin təmin olunacağına dair konkret hüquqi mexanizm göstərilmir, eyni zamanda, "şərtlər dəyişə bilər", "məsuliyyət daşımırıq" kimi bəndlər əlavə edilir. Beləliklə, müqaviləyə sənəd kimi yanaşılsa da, real nəticəyə heç bir ümid bəslənilmir. Bu isə göstərir ki, problem dələduzluqla bərabər, həm də hüquqi savadsızlıq və təhlükəsiz mexanizmlərin olmamasından irəli gəlir.

Mövzu ilə bağlı **vəkil Mircavid Miriyevin** açıqlamasında məsələnin hüquqi tərəfi daha aydın göstərilir. Onun sözlərinə görə, bu cür hallar çox vaxt mülki mübahisə çərçivəsindən çıxaraq Cinayət Məcəlləsinin müddəalarına uyğun qiymətləndirilir. Belə ki, əgər zərər 500 manat həddini ötərsə, fəaliyyət saxta sənədlər əsasında reallaşarsa, eyni zamanda, bir qrup şəxsin iştirakı ilə həyata keçirildiyi sübuta yetirilərsə, bu zaman artıq sadəcə "pulun geri qaytarılması" məsələsi deyil, cinayət əməli gündəmə gəlir.

Vəkilin vurğuladığı kimi, Cinayət Məcəlləsinin 320-ci maddəsi sənədlərin saxtalaşdırılmasına görə böyük məbləğdə cərimə və ya həbs cəzası nəzərdə tutur. Daha ağır hallarda isə sübut olunmuş dələduzluq cinayətinin nəticəsi kimi cəza 14 il həbsə qədər yüksələ bilər. Bu fakt onu göstərir ki, əmək miqrasiyası adı altında vətəndaşların aldadılması hüquqi baxımdan olduqca təhlükəli və ağır nəticələr doğuran bir sahəyə çevrilib.

Yeri gəlmişkən, bu məqamda, belə bir sual da verilə bilirlər: vətəndaşların bu tələyə düşməsi nə ilə bağlıdır? Sualın cavabı təkcə şirkətlərin fəaliyyətində aldatmağa üstünlük verilməsi ilə əlaqədar deyil. Problemin kökündə sosial-iqtisadi və psixoloji səbəblər də dayanır. Daxili əmək bazarında bir sıra hallarda özünü qabarıq büruzə verən gərginlik bunun əyani təzahürüdür. Belə ki, bir çox insan ölkə daxilində iş tapmaqda çətinlik çəkir, tapdığı işdə isə maaşlar ailəni dolandırmağa yetmir. Bu reallıq "xaricə çıxış" düşüncəsini gücləndirir.

Bu məsələnin dərinləşməsinə Avropanın ideal həyat tərzi ilə bağlı yanlış gözləntilər də öz təsirini göstərir. Çünki sosial şəbəkələrdə Avropada yaşayanların "parlaq həyat" görüntüləri reallığı təhrif edir. İnsanlar düşünürlər ki, bu coğrafiyada hər kəs yüksək maaş alır və rahat, firavan həyat yaşayır. Şübhəsiz ki, bu məsələdə "şans bir də verilməyəcək" düşüncəsi də vətəndaşları riskli addımlar atmağa sövq edir. İnsanlar araşdırma aparmadan müəyyən ödəniş həyata keçirirlər.

Qanuni əmək miqrasiyası mexanizmlərinin kifayət qədər əlçatan olmaması da ciddi narahatlıq yaradır. Belə ki, əgər vətəndaş rəsmi və təhlükəsiz mexanizm tapa bilmirsə, alternativ yollara üz tutur. Dələduzlar isə məhz bu boşluğu doldurur.

## "Miqrant sipəri" zərurəti

**Hüquqşünas Araz Abdullayev** deyir ki, bu sahədə dövlət nəzarətinin gücləndirilməsi ilə problemlərin dərinləşməsinin qarşısını almaq olar. Çünki artıq gəlirli biznesə çevrilən əmək miqrasiyası bazarının genişlənməsi ilə bəzi agentliklərin rəsmi qeydiyyat adı altında vasitəçi şəbəkəsi də güclənir. Ona görə də bu məsələdə bir neçə mühüm istiqamət üzrə sistemli addımlar atılmalı, xaricə işçi göndərən şirkətlərin lisenziyalaşdırılması mexanizmi sərtləşdirilməli, müqavilələrin hüquqi forması standartlaşdırılmalıdır.

Eyni zamanda, reklam və sosial media elanları monitorinq olunmalı, vətəndaşların hüquqi maarifləndirilməsi gücləndirilməli, belə şirkətlərə qarşı şikayət mexanizmləri sadələşdirilməlidir. Əks halda, bu sahə qeyri-rəsmi bazara çevrilərək daha böyük sosial fəsadlar doğura bilər.

Bu prosesin cəmiyyətə təsirindən bəhs edərkən isə, ilk növbədə, deyə bilərik ki, belə dələduzluq halları təkcə ayrı-ayrı şəxslərin pul itirməsi ilə yekunlaşmır. Bu prosesin cəmiyyətə təsiri daha genişdir. Birincisi, vətəndaşın xaricə çıxmaq ümidi sarsılır. İkincisi, o, borca düşür, bəzən kredit götürərək ödəniş edir. Nəhayət, bu cür aldadılma halları insanlarda dövlətə və hüquqi sistemə inamsızlıq yaradır. Ən təhlükəlisi isə odur ki, vətəndaş rəsmi agentliklərdən ümidini üzərək qeyri-qanuni yollarla Avropaya getməyə çalışır. Bu isə artıq insan alveri, qeyri-leqal miqrasiya və beynəlxalq hüquqi problemləri dərinləşdirir.

Ekspertlərin tövsiyələri də göstərir ki, belə hallarda ən vacib məsələ vətəndaşın hüquqi ehtiyatlılığıdır. Belə ki, əmək miqrasiyası ilə bağlı agentliyə müraciət edən şəxs, ilk növbədə, şirkətin hüquqi statusunu yoxlamalı, müqavilənin şərtlərini və hüquqi məsuliyyət hissəsini diqqətlə oxumalı, ödənişi bank vasitəsilə etməli və qəbz saxlamalıdır. Bütün bunlarla yanaşı, sosial mediada yazılan vədlərə deyil, rəsmi sənədə əsaslanmalı, eyni zamanda, ilk şübhəli əlamətdə hüquq-mühafizə orqanlarına müraciət etməlidir.

Ən əsası isə vətəndaş bilməlidir ki, "çox yaxşı təklif" çox vaxt real olmur. Avropada əmək bazarı ciddi tənzimlənir və saatda yüksək maaş, pulsuz ev, yemək kimi şərtlərə çox nadir hallarda rast gəlinir. Azərbaycan vətəndaşlarının xaricdə işləmək istəyi isə təbiidir və qlobal əmək bazarında iştirak etmək müasir dövrün reallığıdır. Lakin bu istəyin əsasında dələduzluq mexanizmlərinin qurulması həm dövlət, həm cəmiyyət, həm də fərdlər üçün təhlükəli nəticələr doğurur.

"Davidov Global" agentliyi ilə bağlı iddialar da göstərir ki, məsələ təkcə bir nəfərin şikayəti ilə bağlı deyil, bu, daha genişmiqyaslı tendensiyanın göstəricisidir. Əgər bu cür halların qarşısı vaxtında alınmasa, yaxın illərdə də əmək miqrasiyası adı altında aldadılanların sayı xeyli artacaq. Bu səbəbdən problem yalnız hüquqi müstəvidə deyil, həm də sosial maarifləndirmə, reklam bazarına nəzarət, agentliklərin sertifikatlaşdırılması və ictimai monitorinq vasitəsilə həll edilməlidir. Çünki vətəndaşın Avropaya "yeni həyat" arzusu, əslində, onun düşüncəsində ən zəif nöqtəyə çevrilirsə, bu, artıq sadəcə fərdi aldanma deyil, eyni zamanda, cəmiyyətin təhlükəsizlik və sosial dayanıqlılıq problemi deməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Azərbaycanda əmək miqrasiyasına böyük maraq bir neçə amillə bağlıdır. Bu, ilk növbədə, Avropada iş saatlarının respublikamızdan daha az olmasından irəli gələn bir məsələdir. Belə bir göstəricinin əsas səbəblərindən biri iqtisadiyyatın sektor strukturu ilə əlaqədardır. Bu məsələni qiymətləndirmək üçün Azərbaycanın məşğulluq strukturuna və Avropa ölkələrinin iqtisadi modelinə diqqət yetirmək kifayətdir. Çünki bəzi sahələr texnoloji, digərləri isə əmək, avadanlıq və material tutumludur. Azərbaycanda məşğulluqda tikinti, kənd təsərrüfatı, pərakəndə satış və xidmət sektoru üstünlük təşkil edir. Bu sahələr əsasən fiziki əmək tələb etdiyindən iş saatları daha uzun olur. Avropada isə texnologiya, maliyyə və peşəkar xidmət sahələri daha geniş yer tutur.

İkinci mühüm amil əmək məhsuldarlığıdır. Belə ki, Avropada texnologiyanın inkişaf səviyyəsi və işçi qüvvəsinin səmərəliliyi eyni istehsal həcminə daha az işçi ilə nail olmağa imkan verir. Azərbaycanda isə eyni nəticə üçün daha çox insan əməyindən istifadə olunur. Məsələn, yanacaqdoldurma məntəqələrinin fəaliyyətinə diqqət yetirək. Avropada bir çox yanacaqdoldurma məntəqələrində özünəxidmət sistemi tətbiq olunur. İnsan əməyi bahalı olduğu üçün əlavə işçi saxlanılmır. Satış həcmi isə Azərbaycandakı səviyyədən geri qalmır.

Bizdə isə, demək olar ki, hər məntəqədə işçi var. İşçi qüvvəsi ucuz olduğuna görə onun yerini texnologiya ilə əvəz etmək stimulu zəifdir. Eyni vəziyyət pərakəndə ticarət sektorunda da müşahidə olunur. Avropada özünəxidmət kassaları geniş yayılıb, Azərbaycanda isə bu təcrübə məhduddur.

Avropada distant və yarımştat iş formaları geniş yayılıb, Azərbaycanda isə belə imkanlar hələlik arzuedilən səviyyədə deyil. Eyni zamanda, əmək bazarı daha çox işçinin xeyrinədir. Respublikamızda isə əksinə, əmək bazarında fərqli durum müşahidə olunur, yəni sahibkar işçini daha uzun müddət işlədə bilir. Buna orta aylıq əməkhaqqının artımı da müəyyən təsir göstərə bilir. Bəzi hallarda sahibkar əlavə işçi götürməkdənsə, işçini yarım və ya bir saat artıq işlədərək maaşını müəyyən qədər artırmağa üstünlük verir.

# Təhcir qərarı və saxta soyqırımı iddiaları

## Erməni millətçiləri 111 ildir ki, öz xalqını və dünyanı aldadırlar

*(əvvəli qəzetin 23 aprel tarixli sayında)*

Osmanlı bir hüquq dövləti idi. Ölkənin zəif düşməsi, müharibənin başını qatması ermənilərə əl-qol açmağa imkan vermişdi. Lakin zaman hər cinayəti öz yerinə qoyacaqdı, ermənilərin düşmənçilik hərəkətlərinə uyğun müəyyən qərarlar və qanunlar çıxarmasını qaçılmaz edəcəkdi. Şərqdə düşmənlə müharibədə keçmiş “sadiq təbəə”nin xəyanəti Osmanlı dövlətini tədbirlər görməyə sövq etməli idi. 1915-ci il 27 may tarixli təhcir qanunu, yəni erməni əhalinin müharibə bölgəsindən köçürülməsi və Osmanlı sərhədləri içərisində daha təhlükəsiz bir yerdə məskunlaşdırılması o dövr üçün ən doğru addım idi. Əslində, ermənilər xəyanət etmişdilər və buna ən yumşaq cavab köçürülmə idi.

Osmanlı dövləti köçürmə qərarı ilə yanaşı, belə bir açıqlama vermişdi: “Ermənilər haqqında hökumət tərəfindən alınan tədbirlər sırf məmləkətin asayiş-inzibatını təmin və mühafaza məcburiyyətinə müstəniddir. Erməni unsuruna qarşı imhakat bir siyasət takib etmədiyi indilik tərəfsiz bir vəziyyətdə qaldıqları görünən katolik və protestantlara toxunmamış olması göstərməkdədir”.

Göründüyü kimi, bütün ermənilər köçürməyə məruz qalmamışlar. Bu ona görə soyqırımı hesab oluna bilməz ki, ermənilər bir yerdən Osmanlı coğrafiyasının digər yerinə köçürülmüşlər. Səbəb isə onların özlərinə yaxşı aydındır. Onlar son onilliklərdə Osmanlı dövlətinə düşmənçilik edənlərə və düşmən olanlara, onunla savaşan ölkələrə yardım etmişdilər. Köçürülməyə məruz qalanlara 15 gün vaxt verilir, onların bütün ehtiyacları dövlət tərəfindən ödənilir. Şəhər və qəsəbələrdə yaşayanlar, xəstələr, yetimlər, katolik və protestant ermənilər köçürülmədilər.

“Təhcir” yəni, “yerdəyişdirmə, köç” adlandırılan qanunun qəbul edilməsinə qədər Osmanlı hökuməti bölgələrdə ciddi araşdırmalar aparmış, erməni katolikosu və millət vəkilləri, erməni millətindən olan dövlət məmurları, erməni cəmiyyətlərinin rəhbərləri ilə məsləhətləşmiş, “ölkənin müdafiəsini təşkil etmək məqsədilə sərt önləmlər almaq zorunda qalacağını” bildirmişdi. “İttihad və Tərəqqi” partiyasının liderləri tədbirsiz və ağılsız adamlar deyildilər. Əgər köçürmə qanununu hazırlamağa göstəriş vermişdilərsə, demək, başqa çıxış yolu olmamışdı. Hələ müharibə başlamamış Anadoludan başlayaraq bütün ölkəni bürüyən üsyanlar tədbirlər görməyi tələb edirdi. Bir alman generalının ifadə etdiyi kimi, “bu bölgədəki müsəlman xalqı silib-süpürməyə başlayan” ermənilərin qarşısını almağın yolları, əlbəttə, fikirləşilməli idi. “İttihad və Tərəqqi” iqtidarda olan siyasi qurum kimi tədbirlər görməyə borclu idi. O, öz öhdəsinə xalqı qorumağı götürmüşdüsə, deməli, bu quldur dəstələrinin qarşısını almalı idi. Baş komandanlıq, hökumət ermənilərin müharibənin taleyinin həllində Osmanlıya vuracaqları gələcək zərbələri göz qabağına gətirərək 2 may 1915-ci ildə daxili işlər naziri Tələt paşaya bir yazı göndərmişdi. Bu yazıda bildirilirdi ki, ermənilər üsyanları və təxribatları davam etdirmək üçün çeşidli bölgələrdə hazırlıq aparırlar. Bu yazıya cavab olaraq Tələt paşa 23 may 1915-ci ildə 4-cü Ordu Komandanlığına bir şifrə göndərərək “Ərzurum, Van və Bitlis vilayətlərindən çıxarılan ermənilərin Mosul vilayətinin cənub hissəsi, Zor sancağı və mərkəzindən başqa Urfa sancağına, Adana, Hələb, Maraşdan çıxarılan ermənilərin isə Suriya vilayətinin Şərq hissəsi ilə Hələb vilayətinin Şərq və Cənub-Şərqinə köçürülüb yerləşdirilmələrini” istəmişdi. Bu işləri görmək üçün Adana, Hələb və Maraş bölgəsinə müfəttişlər göndərilmişdi. Göstərişin erməniləri yox olmaqdan qorumaq məqsədi daşıdığını bir çox tədqiqatçılar, o cümlədən Samuel Uimz söyləmiş və söyləməkdədirlər. Osmanlı dövləti bu tədbiri o dövrün şərtlərinə uyğun olaraq bir qanuna bağlamışdı. “Müharibə işərisində olan dövlət idarəçiliyinə qarşı gələnlər üçün hərbi birliklər tərəfindən alınacaq tədbirlər”lə bağlı bu qanun 26 may 1915-ci ildə Məclisin gündəminə gətirilmiş və Məclis tədbirin keçirilməsini qəbul edən qərar vermişdi. Beləliklə, Məclisdən 27 may 1915-ci ildə keçən “Yerdəyişdirmə Qanunu” mətbuata iyunun 1-də verilmişdi. Qanun Osmanlının rəsmi qəzeti olan “Təkvimi-vəkai”də dərc edilmişdi. 30 may 1915-ci ildə Daxili işlər, Hərbiyə və Maliyyə nazirliklərinə göndərilən təlimatda köçün necə həyata keçiriləcəyi göstərilmişdi. Həmin təlimata görə, “müsəlman, rum, erməni əsilli Osmanlı vətəndaşlarının yerlərindən başqa yerlərə köçürülərək yerləşdirilməsi aydın əks edilmişdi. Bu qanuna görə köçürülənlərin mal və can əmniyyəti təmin olunacaqdı. Yeni evlərinə yerləşənə qədər qidaları xüsusi “köçmən ödənəyindən” veriləcəkdi. Keçmiş durumlarına uyğun olaraq onlara əmlak və ərazi ayrılacaq, ehtiyacı olanlara hökumət ev tikəcək, kənd təsərrüfatı üçün şərait yaradılacaq, gələrkən götürə bilmədikləri daşınan malları özlərinə çatdırılacaq, daşınmaz malları müəyyənləşdirilib qiymətləndirərək onların əvəzi pulla ödənəcəkdi. Onların gəlir gətirən iş yerləri, bağ-bostanı, zeytunluqları satılacaq və ya kirayəyə veriləcəkdi və s. Bütün bu məsələlər yaradılan komissiyalar tərəfindən həyata keçiriləcəkdi. Komissiyalara köçürülənlərin nümayəndələri də daxil ediləcəkdi. Dövlət bunların hamısını yüksək səviyyədə etmişdi.

* * *

Köçkünlərin kimsəsiz uşaqları və yetimlər yetimxanalarda və bəzi varlı insanların ailələrində yerləşdirilmiş, 1919-cu ildə qayıdışa icazə alındıqda onlar yaxın qohumlarına təhvil veriliblər. Yerli xalqın ermənilərə hücumunun qarşısını almaq üçün onların jandarm tərəfindən qorunması təmin edilmişdi. Müsəlmanlığı qəbul etmiş ermənilərə müharibədən sonra çıxarılan bir qanunla keçmiş yerlərinə qayıtmalarına şərait yaradılmışdı. Köçürülənlərə başda ABŞ olmaqla müxtəlif dövlətlərin yardım arzuları anlayışla qarşılanmışdı. Dövlətin müharibədən sonra “geri dönüş qanunu” ilə köçkünlərin öz evlərinə qayıtmaları təmin edilmişdi. O zaman Erməni Katolikosluğu məlumat vermişdi ki, 644 min 900 erməni geri dönüb. Suriyadan keçmiş yerinə dönmək istəməyən 500 min erməninin varlığı barədə də dövrü mətbuatda məlumatlar var. Əgər türklər “soyqırımı” etmişdisə, bu qədər erməniyə həm özü, həm də başqa dövlətlər yardım edərdimi?

“Soyqırımı olub” iddiasında olanların nəzərinə onu da çatdırmaq lazımdır ki, bu dediklərimizin hamısı tarixi sənədlərlə təsbit edilib. 1915-ci ildən etibarən öldürülənlərin sayının 600 mindən 1,5 milyona çatdırılması özü əslində saxtakarlıq nümunəsidir. Osmanlı dövlətində yaşayan ermənilərin sayı o qədər deyildi ki, onun 1,5 milyonu öldürülsün. Türk Tarix Qurumunun keçmiş başqanı, professor Yusuf Halacoğlunun apardığı tədqiqatlar onu ortaya çıxarmışdı ki, ermənilərin sayı ilə iddia olunan rəqəmlər arasında çox böyük uyğunsuzluq var. Erməni Katolikosluğunun məlumatına görə, ölkədə 1 milyon 915 min erməni yaşayır. Əgər onun 1,5 milyonu öldürülübsə, demək ölkədə cəmi-cümlətanı 400 min erməni qalmalı idi. Tarixi mənbələrə görə, 1919-cu ildə (erməni mənbələrində) 644 min 900 nəfər erməni geri dönüb. Suriyada yardım aldıqları barədə sənədlərə imza atanların sayı isə 486 min nəfərdir.

Bizim araşdırmalarımıza görə isə ermənilərin sayı 1914-cü ildə 1 milyondan artıq olmayıb. Müharibə başlananda bir çox erməni ailələri ölkəni tərk etmişdilər. 1919-cu ildə xarici tədqiqatçılar bu rəqəmlərin müəyyən qədər azaldığını göstəriblər. Çünki Osmanlı dövləti bir neçə vilayəti, o cümlədən ermənilərin köçürüldüyü Suriyanı artıq itirmişdi, müharibə nəticəsində ermənilər ölkəni tərk edib ABŞ-a və digər ölkələrə yerləşmiş, həmin ölkələrdə artmışdılar. Ermənilər özləri də etiraf edirlər ki, yeni qurulan Ermənistan Respublikasına 500 min erməni gəlib. Əgər onlar öldürülmüşdüsə, bəs 100 minlərlə erməni artımı necə baş vermişdi? İndi sayları 1 milyona çatan ermənilər ABŞ-da göbələk kimi yerdənmi çıxmışdılar? Cənubi Qafqazda onların sayı birdən-birə 1 milyona necə çatmışdı? Ermənilərə yardım edilməsi üçün İstanbula səfər edən heyət Osmanlı rəhbərliyinə (soyqırımında ittiham etdikləri Tələt paşa, Ənvər paşaya) müraciət edib.

1919-cu ildə Türkiyədə ermənilərin sayı 1,5 milyon olub. Bunu məşhur tədqiqatçı alimlər – doktor Lepsus da, Klair Pris, Aleksander Povell də təsdiq edirlər. Amerika arxiv sənədlərində bu say 1 milyon 200 min göstərilir. Haqlı olaraq Castin Makkarti soruşur: “Əgər bu qədər (yəni 1,5 milyon) erməni öldürülübsə, bəs onların məzarları hanı?”. İndiyəcən bir dənə olsun erməni kütləvi məzarlığı tapılmayıb. Əgər bu qədər erməni öldürülmüş olsaydı, onların 3 mindən artıq toplu qəbiristanlığı olmalı, hərəsində də 500-ə qədər erməni basdırılmalı idi. Belə qəbiristanlıqlar, sadəcə olaraq, yoxdur. Ermənilərin soyqırıma məruz qaldıqları barədə iddiası bir erməni yalanıdır və arxasında məkrli siyasi məqsədlər durur.

Ermənilər saxta “soyqırmı” günü kimi 24 apreli seçmiş və hər il həmin gün hay-küy qoparırlar. Aprelin 24-də nə baş vermişdi? I Dünya müharibəsindən əvvəl Türkiyə sərhədləri içərisində yaşayan ermənilərin üsyan və təxribatlarının ölkənin Diyarbəkir, Trabzon, Sivas, Urfa, Yozqat, İzmit, Adapazarı şəhərlərinə yayılması, paytaxt İstanbulda açıq təhdidlərə keçilməsi hökuməti tədbirlər görməyə sövq edirdi. Hökumət ilk tədbir olaraq 24 aprel 1915-ci ildə erməni komitə mərkəzlərinin bağlanması, erməni təşkilatlarının sənədlərinə əl qoyulması və komitəçilərin həbsi qərarını verdi. İstanbulda 234 komitəçi həbs edildi.

Nə təhcir qanunu, nə də 24 aprel günü dövlət qanunlarına qarşı təxribatçı hərəkətlərə yol verən bir neçə erməninin həbsi “soyqırımı” hesab edilə bilməz. Ermənilər və onların himayədarları bu saxta ideologiyada məğlub duruma düşmüşlər. Iddia etdikləri bütün “faktlar” saxta çıxmışdır.

Osmanlı dövlətinin daxili işlər naziri Tələt paşanın 1915-ci il avqustun 29-da bu işi həyata keçirən vilayətlərin vali və məsul şəxslərinə göndərdiyi teleqramın guya, “erməni soyqırımı”nı həyata keçirmək göstərişi olduğu saxta erməni təbliğatından başqa bir şey deyil. Budur həmin gerçək şifrəli teleqraf: “Ermənilərin bulunduqları yerlərdən çıxarılaraq təyin edilən bölgələrə köçürülməsi hökumət tərəfindən təqib edilən qayə, bu ünsürün hökumət əleyhinə fəaliyyətlərində bulunmalarını və bir Ermənistan hökuməti təşkili haqqındakı milli əməllərini təqib edilməyəcək bir hala gətirilmələrini təmin etməkdir. Köçürülmə zamanı əhalinin əmniyyəti qorunmalı və bütün iaşə ehtiyacları ödənməlidir. Erməni əhaliyə hücum edənlər və ya məmurlar haqqında şiddətli qanuni tədbirlər alınmalı və bu kimi şəxslər dərhal həbs edilərək Divani-hərblərə təslim edilməlidir”.

* * *

1920-ci ildə Londonda Aram Andonyan adlı birisinin “Naim bəyin xatirələri” adlı kitabında Tələt paşa ittiham olunur ki, o erməniləri məhv etmək göstərişi verib. Kitabda göstərilən sənədlərin saxta olduğunu bir çox alimlər sübut ediblər.

A.Andonyanın “xatirələrində” Tələt paşaya aid edilən teleqramların qurama olduqları da sübut olunub. Osmanlı dövləti 1915-ci ildə Andonyan tərəfindən təqdim edilən həmin şifrələrdən istifadə etmir, hələ 1909-cu ildə onlardan vaz keçmişdi. Andonyan və digər erməni saxtakarlar həmin şifrələrlə “Erməniləri həll edin”, yəni “onları məhv edin” anlamına gələn teleqrafı “tarixi sənəd” kimi təqdim edərkən bilməmişdilər ki, Osmanlı artıq neçə illər idi ki, bu şifrələrdən istifadə etmirdi. Osmanlı arxivlərində aparılan araşdırmalarla bir daha sübut olundu ki, Tələt paşanı hədəf almaq üçün ortaya atılan bu şifrə tamamilə saxtadır.

ABŞ səfiri H.Morqentaunun xatirələrinə gəlincə, o, 1913-1916-cı illər arasında cəmi 26 ay İstanbulda çalışıb. Onun xatirələrini qələmə aldığı kitab nəşr olunana qədər bundan mətbuat və rəsmi dairələrin xəbəri olmayıb. Dediklərimiz və digər tarixi sənədlər sübut edir ki, Morqentaunun belə bir kitabı olmayıb. Bu kitabın birdən-birə peyda olması o məqsədi daşıyırdı ki, müharibəyə qarşı olan ABŞ ictimaiyyətinə təsir edilsin, bölgədə maraqlarını təmin etmək siyasəti aparan Amerika belə təbliğat üsullarından istifadə barədə düşünürdü. Kitabda ermənilərin soyqırımına məruz qalması iddiaları həmin məqsədlərdən irəli gələn uydurmalardı. Guya, ABŞ bu bölgədə olmasa qan su yerinə axa bilər. Heç şübhəsiz, o kitabı Morqentau yazmamışdı. Onun tərcüməçisi olan Şmavonyan və katibi Akop Andonyanın onun varlığı barədə, harada yaşaması ilə bağlı heç bir məlumat verilməmişdi. Sonradan hər iki erməninin Avropada olan erməni təşkilatları ilə əlaqələri olduğuna dair Osmanlı arxivlərində sənədlər vardır. Onların həm də ABŞ dövlətinə casusluq etmələri barədə təkzibolunmaz faktlar var. Kitabda, sadəcə olaraq, bunların adından istifadə olunmuşdur.

Digər bir erməni iddiası – Arnold Toynbinin “1915-1916-cı illərdə Osmanlı imperatorluğunda ermənilərə edilmiş hərəkətlər” adlı və 1916-cı ildə təbliğat məqsədilə çap olunan “Mavi kitab”dır. Artıq dünyada hər kəsə – tarixçiyə, araşdırmaçıya, elm adamına və siyasətçiyə bəllidir ki, bu kitab ingilis hökuməti tərəfindən hazırlatdırılıb və müharibə təbliğatı məqsədilə çap edilib. Bu da “erməni soyqırımı” deyilən uydurmanın saxtalığına dair növbəti sübut olmalıdır. Frans Verfelin “Musa dağında 40 gün” adlı kitabı da yazarın təxəyyülündən başqa bir şey deyildir.

Ermənilərin tez-tez dilə gətirdikləri, dünyanın müxtəlif parlamentlərinə təqdim edərək müəyyən dərəcədə istəklərinə çatdıqları digər bir fakt I Dünya müharibəsindən sonra qurulan Divani-Hərb məhkəmələridir. Bu məhkəmələr İstanbulu işğal etmiş və burada ağalıq edən “böyük güclər”in təzyiqi altında keçirildiyindən alınan qərarlar da birtərəfli olub. Bu da məlumdur ki, ingilislərin həbs edib Maltaya sürgünə göndərdikləri “İttihad və Tərəqqi” rəhbərlərinin “erməni soyqırımı” törətməsini sübut edən bircə fakt tapa bilməyiblər. İngilislər belə faktları tapmaq üçün çox ciddi tədqiqatlar aparmışlar. Araşdırmalar zamanı həbs edilənlər barədə heç bir dəlil məhkəməyə təqdim edilməmişdir. Məhkəmənin məhkum edərək edam etdiyi şəxslərin günahsızlığını ingilislərin, fransızların özləri etiraf etməyə məcbur olmuşdular. Edama məhkum edilənlər bəraət almışdılar.

İngilis hökuməti “soyqırımı”na dair fakt tapmaq üçün Böyük Britaniya, ABŞ, Fransa arxivlərinə baş vurmuş, verilən məlumatların heç birində soyqırımı ilə bağlı fakt olmamışdı. Əksinə, bu məlumatların işərisində türklərə qarşı ermənilərin törətdikləri cinayətlər geniş yer alır. Türkiyə Başbakanlıq Dövlət Arxivləri Baş Müdirliyi tərəfindən buraxılmış iki cildlik kitabda erməni komitəçilərin 518 min 105 türkü öldürdükləri tarixi sənədlərlə ortaya qoyulur. Türkiyə dövlət səviyyəsində dəfələrlə bəyan etmişdir ki, arxivləri bütün dünya, o cümlədən erməni tarixçilərinin üzünə açmağa hazırdır və dünya elm adamlarının və elmi mərkəzlərin işini asanlaşdırmaq üçün internetdə ayrıca web səhifələri də açılıb.

Sonralar bir daşnak-terrorist Şərqi Anadoluda baş verən hadisələr barədə gerçəkləri söyləmişdi: “Ərzurumdan 1890-cı ildə başlayan ilk üsyanın ardınca Qumqapıdan davam etdirməyimiz ermənilərin Kayseridə, Yozqatda, Çorumda da ayağa qalxmasına səbəb oldu. Biz istəyirdik ki, hər iki tərəfdən adamlar ölsün. Bu ölümlər iki xalqın bir yerdə yaşamaq istəmədiyi anlamına gələcəkdi. Zeytun və Sasunda buna nail olduq”. Həqiqətən də 1892-1893-cü illərdə adıçəkilən yerlərdə, Merzifonda, 1896-da Van üsyanı və Osmanlı Bankının tutulması, 1903-cü ildə İkinci Sasun üsyanı, 1905-ci ildə Sultan Əbdülhəmidə sui-qəsd, nəhayət, 1909-cu ildə Adana üsyanı ermənilərin xəyanətindən xəbər verirdi.

Daşnaklar XX əsrin sonlarında Qarabağda da ona görə təxribatlar, qətllər törədirdilər ki, ermənilərlə azərbaycanlıların bir yerdə yaşamasının mümkün olmadığı təsəvvürü yaradılsın.

Türkiyə Cümhuriyyəti Başbakanlıq Dövlət Arxivləri İdarəsinin çap etdirdiyi “Arxiv bəlgələrinə görə Qafqazda və Anadoluda erməni məzalimi” kitabında göstərilir ki, Anadolu və Cənubi Qafqazda 1906-1922-ci illər arasında 517 min 955 nəfər türk-müsəlman ermənilər tərəfindən qətlə yetirilib. Bunlar yalnız sənədlərdə təsbit edilənlərdir. Ümumiyyətlə, bu bölgədə ermənilər 2 milyona yaxın türkü vəhşicəsinə öldürmüşlər. Məşhur ermənişünas alim Castin Makkarti uzun illər apardığı tədqiqatları ilə bu nəticəyə gəlib ki, ermənilər özlərinin törətdikləri cinayətləri ört basdır etmək, soyqırımları pərdələmək üçün “erməni soyqırımı” mifini uydurublar.



*Şəkildə: Vanda Osmanlı ordusuna qarşı döyüşmüş 2-ci erməni könüllü batalyonunun rəhbərləri: ön planda Armen Qaro, Drastamat Kanayan və Xaçatur Əmiryan. Mərkəzdə Erməni qriqorian kilsəsinin keşişləri*

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Rəsmi İrəvanın “soyqırımı” bəyanatındakı 3 yalan

*(əvvəli 4-cü səhifədə)*

**İkinci yalan.** Buna ağ yalan demək daha doğrudur. Ermənistan XİN-in bəyanatında vurğulanır ki, guya, erməni xalqına qarşı törədilmiş cinayət 1948-ci ildə BMT-nin “Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Konvensiya”sının qəbuluna əsas yaratmış tarixi nümunələrdən biridir. Məsələ ondadır ki, sözügedən konvensiyaya ehtiyac Holokost və ümumilikdə İkinci Dünya müharibəsi dövründə baş vermiş kütləvi qırğınlar nəticəsində yaranmış, beynəlxalq ictimaiyyət konkret hüquqi mexanizm formalaşdırmaq inadı göstərmişdi. Doğrudur, “soyqırımı” terminini irəli sürən Rafael Lemkin əsərlərində həm nasist cinayətlərini, həm də Osmanlı dövründə ermənilərə qarşı baş vermiş hadisələri nümunə qismində göstərmişdi. Yəni həmin hadisələr Lemkinin subyektiv düşüncəsinə təsir göstərsə də, konvensiyanın rəsmi hüquqi əsasını təşkil etməmişdi. Birincisi, qondarma erməni iddiası “soyqırımı” termininin konvensiya ilə səciyyələndirilmiş müddalarını özündə ehtiva etmir. Çünki ona dair obyektiv elmi araşdırma yoxdur. İkincisi, hələ o vaxt da məlum idi ki, erməni məsələsi sırf siyasi mahiyyət daşıyır. Bu mahiyyət isə təkcə 1915-ci illə bağlı olmayıb. Nəzərə alaq ki, erməni millətçiləri 1907-ci ildə ozamankı ABŞ Prezidenti Teodor Ruzveltə soyqırımla əlaqədar məktub yazmışdılar. Görəsən, o nə məsələ idi? Yaxşı olar ki, Ermənistan XİN bu kimi məqamları da nəzərdən keçirsin. Əlbəttə ki, həqiqət axtarışındadırsa.

**Üçüncü yalan.** Məlumdur ki, BMT “Soyqırımı cinayətinin qurbanlarının anılması və bu cinayətin qarşısının alınması üzrə Beynəlxalq Gün” təsis edib. Ermənistanın xarici siyasət idarəsi bəyanatında vurğulayıb ki, guya, 2015-ci ildə həmin günün ərsəyə gəlməsində ölkənin rolu var. İddia çox gülüncdür. Xüsusi yolverilməzlik isə məsələ barədə məhz qondarma iddianın ildönümü günündə söz açmaqdır. Birincisi, sözügedən günün təsisində dünyanın bir çox ölkələri fəal mövqe bildirmişdilər. Yəni qərar müştərək şəkildə qəbul olunmuşdu. Bu mənada, Ermənistanın əlahiddə fəallıq payı yoxdur, ola da bilməzdi. İkincisi, ozamankı hay iqtidarı “erməni soyqırımı” məsələsini siyasi alver predmetinə çevirənlərdən ibarət idi. Ona görə daha yaxşı olar ki, Paşinyan iqtidarı belələrinin zamanında ortaya atdıqları saxta tezisləri yenidən gündəmə gətiməsinlər. Çünki “sabiqlərin” soyqırımı kartı ilə oynadıqları siyasi oyunbazlığın acısını sadə ermənilər çəkiblər.

Sonda Ermənistan XİN-in qondarma iddianın 111-ci ildönümü ilə bağlı bəyanatdakı müsbət məqama toxunaq. Bəli, hay toplumu yaşananlardan dərs çıxarmalıdır. Yəqin elə buna görə də qurumun yaydığı sənəddə bildirilir: “Ermənistan Respublikası keçmişi xatırlayaraq və erməni soyqırımı qurbanlarının xatirəsinə ehtiram göstərərək, öz suveren gələcəyini sülh gündəliyi əsasında qurur. Qonşu dövlətlər arasında yaxşı qonşuluq münasibətlərinin və real qarşılıqlı əməkdaşlığın mövcudluğu Cənubi Qafqazda davamlı sülhün qurulması və regionumuzun bütün xalqlarının dinc və yanaşı yaşamasının təmin edilməsi üçün zəruri olan minimum şərtdir”.

Hesab edirik ki, məhz bu fikrə görə Ermənistan XİN bəyanat verməyə də bilərdi. Yəni qurum diqqətə çatdırdığımız mövqeyi ilə, faktiki olaraq, sənəddə əksini tapan digər məqamların mənasızlığını sübuta yetirir. Məsələn, Azərbaycan da gələcəyi regional sülhdə görür. Ancaq ölkəmizin rəhbərliyi və cəmiyyəti bu düşüncədədir ki, Xocalı soyqırımı kimi insanlıq cinayəti, heç bir halda, cəzasız qalmamalıdır. Prinsipial yanaşma budur. Çünki cəzasızlıq mühiti gələcəkdə bəşəri cinayətlər törətmək üçün, bir növ, yaşıl işıq yandırır, risk daşıyır. “Erməni soyqırımı” kimi cəfəngiyyatın yada salınması da bu cür sərsəmliklərlə hansısa siyasi dividend qazanmaq imkanlarını saxladığı, qeyri-səmimi mühit formalaşdırdığı üçün ondan tam və birdəfəlik uzaq durmaq şərtdir. Rəsmi İrəvan təmsilçilərinin bu məqamı da qulaqlarımda sırqa etmələri mütləqdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# AMEA-da rumıniyalı alimlərlə görüş

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Rumıniyanın Yassı şəhərində fəaliyyət göstərən Petre Andrei Universitetinin rektoru, dosent, doktor Sorin Bokançanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.**



Akademik İsa Həbibbəyli Azərbaycan ilə Rumıniya elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edərək, artıq AMEA-nın Rumıniyanın bir universiteti ilə elmi əməkdaşlıq müqaviləsinin mövcud olduğunu diqqətə çatdırıb. AMEA rəhbəri universitetlərlə yanaşı, Rumıniya Elmlər Akademiyasının elmi-tədqiqat institutları ilə də əlaqələrin qurulmasının əhəmiyyətini önə çəkib. Birgə elmi konfransların təşkili, kitabların nəşri, elmi məqalələrin qarşılıqlı mübadiləsi kimi təşəbbüslərin perspektivli istiqamətlər olduğunu bildirib və bu görüşün gələcək əməkdaşlıq üçün stimul yaradacağına əminlik ifadə edib.

Petre Andrei Universitetinin rektoru Sorin Bokança universitetin tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verib. Rektor AMEA və Azərbaycan universitetləri ilə elmi əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduqlarını vurğulayıb.

***Q.YUSİFOĞLU***
***XQ***

*Qərbi Azərbaycana Qayıdış*

# “Ulu yurdlar bizi çağırır”

## *Biləsuvarda Qərbi azərbaycanlılar qayıdışa hazırdırlar*

**Qərbi Azərbaycan İcmasının Biləsuvar Rayon Nümayəndəliyinin rəhbəri Rəfiqə Cəfərovanı hələ 1980-ci illərin ortalarından, jurnalist kimi Biləsuvara (o dövrdə Puşkin rayonu adlanırdı) ezamiyyətə getdiyim vaxtdan tanıyıram. O zaman çox gənc olsa da, rayon partiya komitəsinin ideoloji məsələlər üzrə katibi vəzifəsində çalışırdı.**

Əmək fəaliyyətinə Azərbaycan dili və ədəbiyyatından dərs deyən kənd müəllimi kimi başlayan Rəfiqə xanım ötən illərdə Biləsuvarda müxtəlif vəzifələrlə çalışıb. 1990-cı illərin əvvəllərində Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yaranmasında fəal iştirak edib. Ulu öndər Heydər Əliyevin ideyalarına dərin inam və sədaqət göstərib. Bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin parlaq liderliyilə Azərbaycanımızın əldə etdiyi hərtərəfli uğurlara görə isə dünyalar qədər sevinir.

Rəfiqə Cəfərova hazırda təqaüddə olsa da, rayonun ictimai-siyasi həyatında fəal iştirak edir. Qərbi Azərbaycan İcmasının (QAİ) Biləsuvar təşkilatı yarananda bu icmaya rəhbərlik etmək təcrübəli yerli kadr kimi ona həvalə olunub. Həm rayonda, həm də QAİ-nin mərkəzi aparatında Rəfiqə Cəfərovanın bu mühüm işin də öhdəsindən gəlməsi razılıq doğurur.

Bu günlərdə Rəfiqə Cəfərova ilə telefonla əlaqə saxlayıb rəhbərlik etdiyi nümayəndəlin fəaliyyəti barədə məlumat verməsini xahiş etdik.






Rəfiqə Cəfərovanın nümayəndliyin fəaliyyəti ilə bağlı XQ-yə bildirdi:

– Sizə yaxşı bəllidir ki, erməni millətçiləri son iki əsrdə xalqımıza qarşı bir-birindən ağır soyqırımları törədiblər. Onların əsas niyyəti soydaşlarımızı öz dədə-baba torpaqlarından çıxarmaq, tarixi ərazilərimizə yiyələnmək olubdur. Erməni şovinistləri bu zaman dəhşətli vandalizm aktları törətməkdən belə çəkinməyiblər. Belə ki, azərbaycanlılara məxsus olan məscidləri, qəbiristanlıqları və digər mədəni irsimizi vəhşicəsinə dağıdıblar.

Əlbəttə, bütün əndazələri aşan bu ədalətsiklər uzun müddət davam edə bilməzdi. Bu baxımdan 2022-ci il dekabrın 24-də dövlətimizin başçısının Qərbi Azərbaycan əsilli ziyalıların bir qrupu ilə keçirdiyi görüşdə səslənən fikirlər olduqca böyük tarixi əhəmiyyət kəsb edir. Bu görüşün materialları ilə dərindən tanış olandan sonra şəxsən əxz etdiyimiz əsas qənaət bu oldu ki, Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə öz doğma tarixi torpaqlarına qayıtmaq haqqı var və bu hüququ onların əlindən bundan sonra heç bir qüvvə ala bilməz.

Qərbi Azərbaycan İcmasının məramı, bir qədər əvvəl qeyd etdiyim kimi, xalqımızın taleyi ilə bağlı tarixi həqiqətləri bugünkü və gələcək nəsillərə çatdırmaqdır. Biz bütün dünyaya sübut etməliyik ki, qatı erməni millətçilərinin Qərbi Azərbaycan ərazilərində törətdikləri cinayətlər beynəlxalq hüququn, o cümlədən Cenevrə və UNESCO konvensiyalarının kobud şəkildə pozulması deməkdir. Təəssüf ki, dövlətimizin uğurlarından narahat olan bəzi düşmən qüvvələr bunu gözardı etmək istəyirlər. Amma unudurlar ki, dünyanın bütün qaranlıqları işığı, əsl həqiqəti ört-basdır etmək iqtidarında deyildir.

Bir daha bu fikri vurğulamaq istəyirəm ki, Qərbi Azərbaycan İcmasının yaradılması milli yaddaşın qorunması, tarixi həqiqətlərin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından böyük önəm daşıyır. Unutmaq olmaz ki, Qərbi Azərbaycan məsələsi yalnız keçmişlə bağlı deyil, həm də gələcəyə yönəlmiş taleyüklü bir məsələdir. Bu sahədə cəmiyyətin bütün potensialı səfərbər edilməlidir.

Qərbi Azərbaycan İcmasının və onun yerli qurumlarının qarşısında duran vəzifələr adi məsələlər deyil, bunlar böyük strateji hədəflərdir. Bu yolda hər birimizdən əzm və səbir, səriştə və fədakarlıq, ən başlıcası, hünər və təəssübkeşlik tələb olunur. Azərbaycan vətəndaşları bəşəri dəyər və prinsiplərdən çıxış edərək tarixi ədalətin bərpa olunması naminə əllərindən gələni etməyə hazırdırlar. Bu, ədalətli və şərəfli bir missiyadır!

**– Qərbi Azərbaycan əsilli soydaşlarımız Biləsuvarda nə vaxtdan və hansı şəraitdə məskunlaşıblar?**

– Qərbi Azərbaycan əsilli azərbaycanlıların Biləsuvar rayonunda məskunlaşması əsasən XX əsrin müxtəlif dövrlərində, xüsusilə də kütləvi deportasiya və köçürülmə hadisələri zamanı baş verib. Belə ki, 1918, 1948–1953, 1988–1991-ci illərdə on minlərlə azərbaycanlı indi Ermənistan Respublikası adlandırılan ərazidən Azərbaycanın ayrı-ayrı bölgələrinə, o cümlədən indiki Biləsuvar rayonunun ərazisinə köçürülüb.

Qərbi azərbaycanlılar ən çox rayonun Bağbanlar kəndi ərazisində məskunlaşıblar. O ağır, çox çətin günlərdən düz 78 il keçib. Deportasiyaya məruz qalan soydaşlarımız arasında xoşbəxtlikdən sağ qalanlar, yaşlı, ahıl insanlar da var. Məsələn, Bahar Əhmədova adlı ahıl ağbirçək bir xanımın bu günlərdə 97 yaşı tamam olub. Vedidəki doğma ata ocağından ailəsi ilə birlikdə zorla çıxarılarkən isə Baharın cəmi 9 yaşı olub. Bahar xalanın yaddaşı çox yaxşıdır, o dövrdə ailələrinin başına gətirilən müsibətləri hələ də unutmayıb.

Bahar xala ilə tez-tez görüşürəm. Mən 1984-cü ildə Naxçıvanda ezamiyyətdə olarkən oradan Vediyə getmişdim. Oralar, həqiqətən, olduqca füsunkar, necə deyərlər, cənnət kimi gözəl yerlərdir. Bahar xala Vedidə gördüklərimi ona danışmağı dönə-dönə xahiş edir. Deyir ki, Rəfiqə, qızım, sən xoşbəxt insansan ki, babalarının yurdu Vedini öz gözlərinlə görübsən. Bu sözləri söyləyən zaman Bahar xala adətən çox kövrəlir. Həqiqətən, yurd, torpaq nisgili ağır dərddir.

**– Nümayəndəlik Qərbi Azərbaycanla bağlı həqiqətləri adi, sıravi insanlara, xüsusilə də yetişməkdə olan gənc nəslə çatdırmaq istiqamətində hansı işləri görür?**

– Alim və ziyalılarımız möhtərəm Prezidentimiz İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycanla bağlı fundamental elmi araşdırmalar aparırlar. Bu mövzuya həsr olunan çoxlu dəyərli elmi, publisistik nəşrlər işıq üzü görür. Belə dəyərli nəşrlərdən biri də “Qərbi Azərbaycan İrsi” kitabının I cildidir. Burada müxtəlif ölkələrin arxiv və kitabxanalarından toplanan xəritələr, peyk görüntüləri, deportasiya olunmuş şəxslərin xatirələri və digər mənbələrdən istifadə olunub. Biz nümayəndəlikdə bu dəyərli nəşrin təqdimatını da keçirmişik.

Biz rayonun ayrı-ayrı müəssisələrində təşkil olunan görüşlər zamanı erməni vandalizminin sivil dünya üçün nə qədər təhlükəli olduğunu uşaq, yeniyetmə və gənclərə izah və şərh etməyə çalışırıq. Bu istiqamətdə Biləsuvar Rayon İcra Hakimiyyəti və YAP-ın rayon təşkilatı ilə birgə maraqlı sərgi və müzakirələr təşkil edirik. Bu barədə yerli və respublika mətbuatında xeyli yazılar dərc olunub.

Qərbi Azərbaycan həqiqətlərini geniş ictimaiyyətə çatdırmaq üçün əhali ilə mütəmadi görüşlər son dərəcə vacibdir. Bu günlərdə yolum hələ 2000-ci illərin əvvəllərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Biləsuvar rayonunda Cəbrayıllı məcburi köçkün ailələri üçün inşa edilmiş qaçqın qəsəbələrinə düşmüşdü. Orada köhnə tanışım olan bir xanım mənə dedi ki, Rəfiqə xanım, Cəbrayılın azad olunması xəbərini eşidəndə özümü dünyanın ən xoşbəxt insanı sandım. Tezliklə doğma kəndim Şıxalıağalıya qayıdacağıq. Allah sizə də Vedidəki doğma yurd yerlərinizə qovuşmağı nəsib etsin! Nə gizlədim, bu sözlərdən çox təsirləndim.

Biləsuvardakı həmin qaçqın düşərgələrinə İkinci Qarabağ müharibəsi veteranı olan oğlum Fəridin maşınında getmişdim. Fəridin sinəsini 44 günlük şanlı savaşda göstərdiyi igidliklərə görə 3 medal bəzəyir. Mən bir ana kimi bundan qürur duyuram. Yolu geri qayıdanda Fərid hiss etdi ki, bir az kövrəlmişəm. Başa düşdü ki, yenə Vedinin dağları yadıma düşüb. Dedi ki, ana, darıxma, o yerlərə də əlimiz çatacaq.

Dedim oğlum, yox, biz ora beynəlxalq hüquq çərçivəsində, sülh yolu ilə qayıdacağıq. İlahi ədalət, mütləq qələbə çalacaq!

Söhbətin sonunda qeyri-ixtiyari olaraq dilimdən bu misralar qopdu:

***Vedinin yanı dağlar,***
***Ürəyi, canı dağlar.***
***Burda bir el var idi.***
***Siz deyin, hanı dağlar?!!***

Müsahibim inamla dedi:
– Orada bir el var idi, yenə də olacaq!

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*Dövlət mükafatına təqdim edilib*

**Müasir dövrdə neft sənayesində əsas hədəflərdən biri hasilatın səmərəliliyinin artırılması və mürəkkəb texnoloji proseslərin dəqiq idarə olunmasıdır. Bu istiqamətdə Azərbaycan alimləri – texnika elmləri doktoru, dosent Məhəmməd Camalbəyov və texnika elmləri namizədi, dosent Nazim Vəliyev apardıqları tədqiqatlar diqqətəlayiq elmi və praktiki nəticələrlə seçilir. Onların irəli sürdüyü Diskret-İmitasiya Modelləşdirmə Konsepsiyası beynəlxalq elmi mühitdə tanıdılır və geniş müzakirə olunur.**

# Yeni neft hasilatı konsepsiyası

Təqdim edilən yanaşmanın əsasında mürəkkəb dinamik proseslərin daha səmərəli modelləşdirilməsi ideyası dayanır. Ənənəvi üsullarda bu cür proseslərin diferensial tənliklərlə təsviri çox vaxt çətin, bəzən isə praktiki baxımdan mümkünsüz olur. Yeni konsepsiya isə bu məhdudiyyətləri aradan qaldıraraq sistemlərin daha sadə, lakin daha effektiv üsulla modelləşdirilməsinə imkan verir.

Dinamik sistem əvvəlcə qarşılıqlı əlaqədə olan elementar hissələrə bölünür, daha sonra isə bu hissələrdə baş verən dəyişikliklər zaman baxımından sinxron şəkildə izlənilir. Nəticədə, mürəkkəb riyazi tənliklər sisteminə ehtiyac qalmır, hər bir obyekt özünün sadə riyazi modeli ilə təsvir olunur, hesablama prosesi sürətlənir və modelləşdirmə daha stabil nəticələr verir.



Bu yanaşmanın praktik tətbiqi xüsusilə neft hasilatı sahəsində özünü aydın şəkildə göstərir. Ştanqlı nasoslarla istismar olunan nasos–quyu–lay sistemlərinin vahid dinamik sistem kimi modelləşdirilməsi, bu sistemin bütün komponentləri arasındakı qarşılıqlı təsirləri nəzərə almağa imkan verir. Nəzərə alsaq ki, Azərbaycanda quruda yerləşən quyuların böyük əksəriyyəti məhz bu üsulla istismar olunur, əldə olunan nəticələrin praktik əhəmiyyəti daha da artır.

Tədqiqatın mühüm nailiyyətlərindən biri də bu konsepsiya əsasında yaradılmış “X-Oil Laboratory” simulyatorudur. Bu proqram təminatı lay mayelərinin fiziki xüsusiyyətlərini, quyu quruluşunu və texnoloji parametrləri nəzərə alaraq sistemin davranışını yüksək dəqiqliklə təhlil etməyə imkan verir. Bunun nəticəsində hasilat prosesinin optimallaşdırılması üçün konkret və əsaslandırılmış qərarlar qəbul etmək mümkün olur.

Aparılan tədqiqatlar çərçivəsində ştanqlı nasosların iş rejiminin optimallaşdırılması üçün praktiki meyarlar müəyyən edilmiş, hasilatın səmərəliliyinin qiymətləndirilməsi üçün yeni metodologiya hazırlanmışdır. Bu metodologiya əsasında Bibiheybət yatağında aparılan sınaqlar göstərmişdir ki, düzgün seçilmiş istismar rejimi baxılan quyunun hasilatını 8,55 faiz artırmağa imkan verir. Bu isə həm texniki, həm də iqtisadi baxımdan əhəmiyyətli nəticədir.

Hesablamalar göstərir ki, təqdim olunan texnologiyanın geniş tətbiqi yalnız hasilatın artırılması hesabına illik on milyonlarla ABŞ dolları həcmində əlavə gəlir gətirə bilər. Eyni zamanda, enerji sərfinin azaldılması və ümumi səmərəliliyin yüksəldilməsi də bu yanaşmanın mühüm üstünlüklərindəndir. Hazırda bu texnologiyanın tətbiq imkanlarının genişləndirilməsi istiqamətində müvafiq qurumlar tərəfindən işlər davam etdirilir.

Qeyd etmək lazımdır ki, Diskret-İmitasiya Modelləşdirmə Konsepsiyası yalnız neft sənayesi ilə məhdudlaşmır. Onun tətbiq sahələri digər mühəndis sistemlərini də əhatə edə bilər. Bu isə yanaşmanın universallığını və gələcək perspektivlərini daha da artırır.

Azərbaycan alimlərinin hazırladığı bu konsepsiya və kompüter simulyatoru neft hasilatının optimallaşdırılması sahəsində mühüm yenilik kimi qiymətləndirilə bilər. Elmi yenilik fundamental elmi yanaşma olmaqla yanaşı, tətbiq imkanları ilə də ölkənin enerji sektorunun inkişafına ciddi töhfə verəcək.

***Azər QASIMLI,***
***Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutunun baş elmi işçisi, texnika elmləri doktoru***

*“Şəhərsalma və Memarlıq İli”*

# Cənub bölgəsində yaşıl aksiyalar

### Lənkəran

**“Şəhərsalma və Memarlıq İli” çərçivəsində Lənkəran şəhərinin küçələri, park və xiyabanları əsaslı şəkildə yenilənir, abadlaşdırılır.**



Lənkəran Şəhər İcra Hakimiyyətinin, rayonun idarə və müəssisələrinin, xidmət sahələrinin, “Regional İnkişaf” İctimai Birliyinin, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Lənkəran Regional “ASAN xidmət” mərkəzinin, Lənkəran Gənclər evi Sosial Xidmət Müəssisəsinin nümayəndələrinin iştirakı ilə “Sağlam və dayanıqlı şəhər naminə” növbəti aksiya keçirilib.

Şəhərin Heydər Əliyev prospektində 1 hektar ərazidə 600 həmişəyaşıl Eldar şamı əkilib, ağaclar suvarılıb və dayaqlarla bərkidilib. Aksiya ətraf mühitin qorunması və təbii resursların səmərəli istifadəsinin təşviqi məqsədilə təşkil olunub.

### Masallı

**Masallıda da rayon icra hakimiyyətinin təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində növbəti yaşıl aksiya keçirilib.**

Masallı şəhərinin girişində 350 ədəd zeytun ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Aksiyada Masallı Rayon İcra Hakimiyyəti aparatının kollektivi, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar, gənclər iştirak ediblər. Aksiya yaşıllıq sahələrinin genişləndirilməsinə, ekoloji mühitinin yaxşılaşdırılmasına və şəhərsalma mədəniyyətinin inkişafına xidmət edir.



### Cəlilabad

**“Şəhərsalma və Memarlıq İli” çərçivəsində rayonda silsilə tədbirlər həyata keçirilir. Cəlilabad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Cəlilabad şəhərinin Qurtuluş küçəsində növbəti ağacəkmə aksiyası keçirilib.**



Aksiya zamanı iqlim şəraitinə uyğun müxtəlif növ ağac tingləri əkilib, ağaclara aqrotexniki qulluq göstərilib, ərazidə təmizlik, abadlıq işləri görülüb. Aksiya təbiətə qayğı və ətraf mühitin qorunması istiqamətində aparılan maarifləndirmə işlərinə töhfə verəcək.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür*

# Əqli mülkiyyət və zaman: yeni infrastruktur, innovasiya, yaradıcılıq və süni intellekt

**2000-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) 26 aprel tarixini Beynəlxalq Əqli Mülkiyyət Günü elan etmişdir. Bu münasibətlə hər il müxtəlif formatlı tədbirlər, o cümlədən konfranslar, sərgilər, yaradıcı şəxslərlə görüşlər təşkil olunur.**

**2001-ci ildən başlayaraq ölkəmizdə də hər il 26 Aprel - Beynəlxalq Əqli Mülkiyyət Günü ilə əlaqədar geniş tədbirlər keçirilir. Tədbirlərin məqsədi əqli mülkiyyətin mədəni irsin zənginləşməsində, innovasiya və yaradıcılığın təşviqində, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı rolunu diqqətə çatdırmaq, yaradıcı insanların fəaliyyətini dəstəkləmək və stimullaşdırmaqdır.**

**Məlumat üçün qeyd edək ki, ÜƏMT hər il 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Gününün bir deviz altında keçirilməsini tövsiyə edir. 2026-cı ilin devizi belədir: “Əqli Mülkiyyət və İdman: start, diqqət, innovasiya!”.**

**Mövzunun aktuallığını nəzərə alaraq, ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlər, ixtira və patent fəallığı, habelə əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması, süni intellekt və müəlliflik hüququ ilə bağlı Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanovla müsahibəni təqdim edirik.**



**– Kamran müəllim, icazənizlə söhbətimizə əqli mülkiyyət ofislərinin İKT vəziyyəti, rəqəmsal transformasiya, əqli mülkiyyətin idarə edilməsi, bu sahədə infrastruktur, eləcə də proseslərin avtomatlaşdırılma dərəcəsi, kiberdavamlılıq və rəqəmsal xidmətlərin səviyyəsindən başlayaq. Əqli mülkiyyətin idarəçiliyi sahəsində ölkəmizin təcrübəsi həmişə nümunə kimi göstərilir. Bu barədə nə deyə bilərsiniz?**

– Bəli, əqli mülkiyyətin idarəçiliyi sahəsində ölkəmizin təcrübəsinin nümunə göstərilməsi qürurvericidir. Qeyd etməliyəm ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən irəli gələn vəzifələrin qlobal sosial-iqtisadi sahələrdə uğurla həyata keçirilməsində milli əqli mülkiyyət sisteminin çəkisi əhəmiyyətli dərəcədə artmışdır. “2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası” adlı proqram sənədində də xüsusi olaraq vurğulanır ki, yeni sosial-iqtisadi inkişaf modelinin əsasını yaradıcı sahibkar, səmərəli investisiyalar, həmçinin innovasiyaları və rəqabətli bazarları dəstəkləyən əqli mülkiyyətin inkişafı təşkil edir. Əqli mülkiyyət ofislərinin rəqəmsal yetkinlik səviyyəsi isə onların səmərəliliyinin, dayanıqlılığının və müasir çağırışlara cavab vermək qabiliyyətinin mühüm göstəricisidir. Buna görə də öncə əqli mülkiyyət ofisləri tərəfindən keyfiyyətli rəqəmsal xidmətlərin göstərilməsinin təmin edilməsində institusional islahatların əhəmiyyətinə toxunmaq istərdim. 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə həyata keçirilmiş institusional islahatlar çərçivəsində əqli mülkiyyətin daim yenilənən mahiyyətinə və onun yeni formada dərk edilməsinə uyğun olaraq unikal idarəetmə qurumu – Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. Agentlik əqli mülkiyyətin bütün sahələrinin daha çevik, kompakt və məqsədyönlü şəkildə idarə olunması, habelə şəffaflığın, səmərəliliyin və hesabatlılığın təmin edilməsi məqsədilə təsis edilmişdir.

İslahatlar nəticəsində əqli mülkiyyətin müxtəlif istiqamətlərinin vahid “çətir” altında birləşdirilməsi onların bir-birinə qarşılıqlı müsbət təsir göstərməsinə şərait yaratmışdır. Bu yanaşmanın əqli mülkiyyət qurumunun rəqəmsal xidmətlər göstərməsi sahəsində potensialının inkişafında da rolu böyükdür.

Ölkəmizdə əqli mülkiyyət yalnız hüquqlar məcmusu deyil, ilk növbədə, müvafiq hüquqlarla təmin edilmiş əqli mülkiyyət obyektləri kimi nəzərdən keçirilir. Buna görə də müasir əqli mülkiyyət ofisi həm də əqli mülkiyyət obyektlərinin iqtisadi təsirini, onların sosial-mədəni nəticələrini müəyyənləşdirən institut kimi formalaşmalıdır. Müvafiq olaraq, tətbiq edilən informasiya-kommunikasiya texnologiyaları modelləri və strukturu da bu yanaşma nəzərə alınmaqla qurulmalıdır və biz bu istiqamətdə çalışırıq.

2014-cü ildə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiya təsdiq edilmişdir. Dövlət başçısının 2025-ci ildə imzaladığı digər fərmanlar ilə Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası və “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” qəbul olunmuşdur. Bu sənədlərdə inkişafın əsas elementi kimi əqli mülkiyyət prioritet istiqamət olaraq müəyyən edilir.

Xüsusi vurğulamalıyam ki, əqli mülkiyyət siyasəti formalaşdırılarkən əsas istiqamətləndirici meyarlardan biri kimi transaksion xərclər nəzərə alınır. Onların minimuma endirilməsi isə həm İT infrastrukturuna operativ nəzarət etməyə, həm də maliyyə resurslarını səmərəli şəkildə yeni rəqəmsal həllərin hazırlanmasına yönəltməyə imkan verir.

Əqli Mülkiyyət Agentliyinin strukturu və fəaliyyəti dünyanın 204 əqli mülkiyyət idarəsi arasından seçilmiş 15 nümunəvi qurum sırasına daxil edilmişdir. ÜƏMT-nin “Vizioner - gələcəyə baxan innovativ liderlərin Hesabatı”nda əqli mülkiyyət və informasiya texnologiyaları məsələləri ilə bağlı Azərbaycan Əqli Mülkiyyət Agentliyinin mövqeyi dərc edilib. Hesabatda Cənubi Qafqaz və MDB regionlarından yalnız Azərbaycan təmsil olunmuşdur.

**– Bəs, konkret olaraq, İT infrastrukturunun təkmilləşdirilməsi, eləcə də əqli mülkiyyət ekosisteminin iştirakçıları üçün rahatlığın və əlçatanlığın təmin olunması məqsədilə hansı işlər görülür?**

– Söhbətimizə başlayanda qeyd etdim ki, Azərbaycanın milli əqli mülkiyyət sistemi artıq beynəlxalq arenada özünə layiqli yer tutub. Əqli Mülkiyyət Agentliyi ilbəil müasirləşir və peşəkar qurum olaraq əqli mülkiyyət ofisləri arasında böyük nüfuz qazanmışdır. Bir neçə ildir ki, həm sənaye mülkiyyəti obyektlərinin (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) patentləşdirilməsi və qeydiyyatı ilə bağlı iddia sənədlərinin, həm də Əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya Şurasına müraciətlərin qəbulu 24/7 rejimində fəaliyyət göstərən və Elektron Hökumət İnformasiya sisteminə inteqrasiya olunmuş “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirilir. Açıqlıq, operativlik və şəffaflıq təmin olunmuş, PƏNAH sistemi vasitəsilə uğurla tətbiq edilən “vahid pəncərə” və “istənilən yerdən xidmətə əlçatanlıq” prinsipi əqli mülkiyyət sahəsində göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini əhəmiyyətli dərəcədə artırmışdır. İddiaçılara daha rahat, əlçatan və operativ formada müraciət etmək imkanı yaradılıb. Elektron Hökumət Portalı və dövlət ödənişləri sisteminə tam inteqrasiya olunmuş PƏNAH ixtiralardan və əmtəə nişanlarından tutmuş coğrafi göstəricilərə qədər bütün əsas istiqamətləri əhatə edir. Müasir dövr üçün xüsusilə vacib məqam sistemin mobil platformalarda da əlçatanlığı, həmçinin iddia sənədlərinin 3D formatda təqdim olunması kimi innovativ funksiyanı dəstəkləməsidir.

Həyata keçirilən rəqəmsallaşma yalnız sənaye obyektləri ilə məhdudlaşmır, bu proses həm də müəllif hüquqlarının qorunmasını əhatə edir.

Agentlikdə qeydiyyata alınmış 6494 müəllifə məxsus 17 335 əsər (2800-dən çox əsər elektron qaydada qeydiyyatdan keçirilib) barədə məlumatların verilməsini təmin edən, Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunmuş elektron xidmət fəaliyyət göstərir. İstənilən şəxs bu xidmətdən istifadə etməklə Agentlikdə qeydiyyata alınmış əsərlər barədə məlumatları real vaxt rejimində elektron qaydada əldə edə bilər.

52300-dən çox patentləşdirilmiş və qeydiyyata alınmış sənaye mülkiyyəti obyektləri haqqında məlumatlara çıxışı təmin edən “Sənaye mülkiyyəti obyektlərinin reyestri” (“Açıq reyestrlər”) yaradılıb. Hər kəsin “Açıq reyestrlər”ə maneəsiz və ödəniş etmədən daxil olaraq patentlər və qeydiyyatdan keçirilmiş əmtəə nişanları barədə məlumatlarla tanış olmasına şərait yaradılmışdır. Əqli mülkiyyət məsələləri üzrə müraciətlərə operativ və obyektiv baxılması, cavabların hazırlanması, ərizəçilərin məlumatlandırılması və məsləhət xidmətlərinin göstərilməsi məqsədilə ötən il Agentliyin rəsmi internet resurslarında müraciətlərin onlayn qəbulunu həyata keçirməyə imkan verən elektron xidmət istifadəyə verilmişdir. İndiyə qədər bu xidmət vasitəsilə ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və müəlliflik hüquqları ilə bağlı təxminən 1000-dən çox müraciət daxil olmuşdur. Hər bir müraciət Agentliyin mütəxəssisləri tərəfindən operativ şəkildə araşdırılır və cavablandırılır.

Agentlik Avrasiya Patent Təşkilatı (APT) ilə birlikdə PƏNAH rəqəmsal informasiya sisteminin ÜƏMT-nin IPAS sistemi ilə inteqrasiyasına dair xüsusi layihə həyata keçirmişdir. APT ilə əməkdaşlıq çərçivəsində reallaşdırılan digər layihə isə Avrasiya patentlərinin alınması üçün iddia sənədlərinin təqdim edilməsinin avtomatlaşdırılması ilə bağlıdır.

**– Cənab Sədr, bu islahatların real nəticələri nədən ibarətdir?**

– Statistik rəqəmlərlə oxucalarınızı yormaq istəməzdim, lakin bir neçə mühüm nəticəni qeyd etmək yerinə düşər: ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəriciyə dair iddia sənədlərinin ekspertizasının müddəti orta hesabla 30-50 faiz azaldılıb.

Beynəlxalq reytinqlərdə əqli mülkiyyət sahəsində ölkəmiz üzrə göstəricilər ilbəil yaxşılaşır. 139 ölkənin iqtisadiyyatını əhatə edən və innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərinə dair təxminən 80 indikator-göstərici əsasında tərtib olunmuş “Qlobal İnnovasiya İndeksi - 2025”də “mənşəyinə görə patent müraciətləri” indikator-göstəricisi üzrə Azərbaycan 57-ci yeri tutaraq Moldovanı (64-cü yer), Tacikistanı (77-ci yer) və Ermənistanı (79-cu yer) qabaqlamışdır. “Mənşəyinə görə faydalı modellər” və ya “kiçik patentlər” indikator-göstəricisi üzrə isə 38-ci pillədəyik.

Sənaye mülkiyyəti sahəsində göstərilən dövlət xidmətlərinin keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Patentlərin alınması ilə bağlı iddia sənədlərinin sayı da ilbəil artır. 2025-ci ildə ixtira, faydalı model və sənaye nümunəsinin patentləşdirilməsinə dair Agentliyə 481 iddia sənədi, o cümlədən ixtiraya aid 282, faydalı modelə aid 77, sənaye nümunəsinə aid 65 və Avrasiya patentinin alınması üçün 57 iddia sənədi daxil olmuşdur. 2025-ci ildə 214 patent verilib. Beləliklə, 2025-ci ildə ixtira fəallığı 2024-cü illə müqayisədə 37,8 faiz, patent fəallığı isə 15,7 faiz artmışdır.

İxtira fəallığı 2026-cı ilin birinci rübündə də yüksək olmuşdur: rüb ərzində yalnız ixtiralara dair Agentliyə 109 iddia sənədi daxil olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə çoxdur. Ümumilikdə isə ixtira, faydalı model və sənaye nümunəsinə dair iddia sənədlərinin sayı 149-dur (PCT və Avrasiya patentlərinin alınması ilə bağlı iddia sənədləri daxil olmaqla).

2026-cı ilin birinci rübündə patent fəallığı isə daha yüksək olmuşdur: 53 patent verilib (2025-ci ilin müvafiq dövründə verilən patentlərin sayı 38-dir).

Əqli Mülkiyyət Agentliyinin təklifləri əsasında “Patent haqqında” Azərbaycan Respublikasının Qanununa bir sıra fundamental dəyişiklik edilmişdir. Bu il martın 31-dən qüvvəyə minmiş dəyişikliklərin tətbiqi nəticəsində ixtira və patent fəallığının daha da artacağı proqnozlaşdırılır. Patent alınması ilə bağlı iddia sənədlərinin ekspertiza müddəti də əhəmiyyətli dərəcədə azalacaq.

Keçən il Əmtəə nişanlarının Dövlət reyestrində 3100 nişan qeydiyyata alınmışdır ki, bu da 2024-cü illə müqayisədə 256 ədəd çoxdur. Bu ilin birinci rübündə isə 539 əmtəə nişanı qeydiyyata alınıb (2025-ci ilin müvafiq dövründə 464 nişan qeydiyyatdan keçirilib). Əmtəə nişanlarının qeydiyyatına dair cari ilin birinci rübündə PƏNAH elektron sistemi vasitəsilə Agentliyə 1012 iddia sənədi (2025-ci ilin müvafiq dövründə 894 iddia sənədi) daxil olub.

Ötən il 512 müəllif-hüquq sahibinə məxsus 900 əsər və əlaqəli hüquqların obyekti olan ifa qeydiyyatdan keçirilib. 2026-cı ilin birincü rübündə isə 115 müəllifə (hüquq sahibinə) məxsus 210 əsər (2025-ci ilin müvafiq dövründə 167 əsər) qeydiyyata alınıb. Bir sözlə, aparılmış institusional dəyişikliklər və İKT tətbiqi nəticəsində ixtira, patent və müəllif fəallığı artmışdır.

**– Yeri gəlmişkən, ölkəmizin əqli mülkiyyət sahəsində beynəlxalq təşkilatlarda mövqeyi necədir?**

– Ölkəmizin əqli mülkiyyət sahəsində də beynəlxalq nüfuzu həmişə güclü olub. ÜƏMT üzv dövlətlərinin assambleyalarının 66-cı iclasında Bern İttifaqı İcraiyyə Komitəsinin daimi üzvü seçilmiş 40 ölkə sırasında yer almışdır. Azərbaycan, həmçinin 2027-ci ildə keçiriləcək Baş Assambleyanın növbəti sessiyasının bağlanışınadək olan dövr üçün ÜƏMT-nin ən vacib rəhbər orqanlarından olan Koordinasiya Komitəsinə 194 ölkə arasından daimi üzv seçilmiş 83 dövlətdən biridir. Həmin dövrədək Azərbaycan Proqram və Büdcə Komitəsində təmsil olunacaq 53 dövlət sırasında da yer almışdır. ÜƏMT-nin assambleyalarının vəzifəli şəxslərinin seçkilərində isə Azərbaycanın Əqli Mülkiyyət Agentliyinin başçısı 118 üzv dövlətin təmsil olunduğu ÜƏMT-nin Müəllif hüquqları Müqaviləsi Assambleyasının sədri seçilib, bundan öncə isə Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern İttifaqı Assambleyasının sədri olmuşdur.

Beləliklə, Azərbaycan hazırda BMT-nin ən böyük qurumlarından biri olan ÜƏMT-nin 3 böyük komitəsində təmsil olunur və onun ən vacib assambleyasından birinə rəhbərlik edir.

**– Mümkünsə, bir məsələyə də münasibət bildirməyinizi xahiş edirəm: ixtira, faydalı model və sənaye nümunələri üzrə iddia sənədlərinin elektron qaydada qəbulu özünü doğruldurmu? Başqa sözlə desək, tətbiq olunan süni intellekt əsaslı həllər və vahid rəqəmsal platforma iş prosesinin səmərəliliyinə və “əqli fəaliyyətin nəticəsi” kimi “qorunan əqli mülkiyyət obyekti” anlayışlarının qarşılıqlı əlaqəsinin daha dərindən anlaşılmasına necə təsir göstərir?**

– Patentlərin alınması və əmtəə nişanlarının qeydiyyatı ilə bağlı müraciətlərin qəbulunun 24/7 rejimində fəaliyyət göstərən PƏNAH rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirildiyi barədə bir az əvvəl danışdım. Əlavə olaraq onu da oxucularınızın diqqətinə çatdırım ki, MDB məkanında ilk dəfə olaraq ixtira, faydalı model və sənaye nümunələri üzrə iddia sənədlərinin 3D formatda qəbulu uğurla davam etdirilir. Həmçinin ölkəmizdə yaşayan və fəaliyyət göstərən bütün ərizəçilərə PƏNAH sistemi vasitəsilə Avrasiya Patent İdarəsinə (APİ) Avrasiya patenti almaq üçün iddia sənədlərini göndərməyə imkan verən funksionallıq istifadəyə verilmişdir. APİ ilə əməkdaşlıq çərçivəsində patentləşdirmənin əsas proseslərinin avtomatlaşdırılması və intellektual dəstək üçün Agentliyin daxili informasiya sistemləri ilə inteqrasiya nəzərə alınmaqla süni intellekt əsaslı həllərin hazırlanmasına başlanılmışdır.

Əqli Mülkiyyət Agentliyinin rəsmi internet saytına inteqrasiya olunmuş xüsusi müyəssərlik (əlçatanlıq) menyusu müxtəlif ehtiyacları olan, əsasən görmə məhdudiyyətli şəxslər və xüsusi tələbatı olan istifadəçilər üçün informasiya resurslarına daha rahat və əlçatan çıxışı təmin edir.

Dövlət xidmətlərinin ərizəçilərə daha rahat və operativ təqdim olunması məqsədilə Agentlik öz kadr potensialı çərçivəsində məsləhət imkanları təqdim edən “süni intellekt əsaslı bot”un yaradılması ilə bağlı layihə işləyib hazırlamışdır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan bot əqli mülkiyyət sahəsində sualları cavablandıran məsləhətçi rolunda çıxış edəcək.

**– Kamran müəllim, bu gün cəmiyyəti, xüsusən yaradıcı şəxsləri narahat edən məsələyə də münasibətinizi bilmək maraqlı olardı: süni intellektin yaratdığı məhsulların müəllifliyi məsələsi dünyada geniş müzakirə olunur. Sİ vasitəsilə hazırlanan kitablar, çəkilən rəsmlər, bəstələnən musiqilərin müəllifi kimdir: proqram istifadəçisi, yoxsa kim? Bu istiqamətdə Azərbaycanın mövqeyi necədir?**

– Süni intellektin əsas üstünlüyü odur ki, onun strukturu və qəbul etdiyi qərarlar insan prinsiplərini təqlid və imitasiya edən modellərə əsaslanır. Başqa sözlə, Sİ-nin dəyəri onun antropoloji səciyyəsində, subyektə məxsus təqribi zəka imkanlarına söykənməsində və düşünmə, müzakirə aparma, problemi həll etmə kimi insanın idrak funksiyalarını imitasiya edə bilməsindədir. Hazırda bu imkanlar zəif olsa da, gələcəkdə artması düşünülür, lakin məhz bu amillər müasir Sİ-nin ən həssas, ən çox müzakirə olunan cəhətləridir və bu səbəbdən ümumibəşəri yanaşmanı antropomərkəzçi mövqedə saxlamağa sövq edir. Bu mövqenin mahiyyəti belə ifadə olunur: yaradan (müəllif və ya ixtiraçı) kimi yalnız insan tanınır.

Qeyd etməliyəm ki, son 30-40 ildə süni intellektin imkanları haqqında ictimai-elmi fikir Sİ sistemlərinin özlərinin inkişafının və təkamülünün ardınca evolyusiya yolunu keçib. Şəxsi təcrübəmə əsaslanaraq demək istəyirəm ki, hələ ötən əsrin 70-ci illərinin sonu – 80-ci illərin əvvəllərində Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi-Tədqiqat Hesablama Mərkəzinin direktoru olduğum dövrdə riyaziyyatçılar üçün qeyri-səlis sistemlər, qeyri-səlis məntiq və neyron şəbəkələri üzrə mühazirələr oxuyurdum.

O vaxt bu sahələrdə hər bir elmi irəliləyiş ruh yüksəkliyi bəxş edirdi, ilham verirdi, fəlsəfi-hüquqi mübahisələr doğururdu. “Sİ və ümumilikdə informasiya texnologiyaları insanı əvəz edəcəkmi?” sualı yalnız fantastika janrına aid edilirdi. Hazırda isə indiki diskurslarda fikrimcə, biri-biri ilə sıx düyünlənmiş iki problem mövcuddur: birincisi – süni intellekt insanın yaratdığına bənzər əqli fəaliyyət nəticələri (ƏFN) yarada bilərmi və yaradıcılıq prosesində insan subyektinin düşüncəsini, təfəkkürünü əvəz edə, hətta onu yaratmış insandan üstün ola bilərmi?

Cavab belədir: “Xeyr”.

Biz hesab edirik ki, Sİ qavrama (o cümlədən emosional qavrama) və şüurla bağlı suallara yaxın gələcəkdə cavab verə bilməyəcək. Çünki məntiqi nəticə çıxarılması qaydaları və onlara uyğun məntiqlər hələlik buna imkan vermir. İkinci problem – generativ Sİ tərəfindən təqdim olunan ərizələrin birbaşa Sİ adından qeydiyyata alınması mümkündürmü?

Prinsipial cəhətdən “bəli” mümkün ola bilər. Amma burada dərhal başqa bir sual yaranır: hüquq sahibi “kim” və ya “nə” olacaq və niyə “elektron şəxslər” “hüquqi şəxslər” analogiyası ilə hüquq sahibi qismində tanınmasın? Hüquqi və fiziki şəxslərin hüquqlarındakı oxşarlıqlara və fərqlərə baxdıqda görürük ki, hüquqi şəxslər müəllif (ixtiraçı) ola bilməz və fiziki şəxslər kimi şəxsi qeyri-əmlak hüquqlarına malik deyil. Fərq yalnız bundadır.

Beləliklə, Sİ hazırda əqli fəaliyyət nəticəsini (ƏFN) tələb olunan səviyyədə təqdim etsə də, bu nəticə yalnız süni intellektin adına bağlanıla bilməz. Səbəbi isə süni intellektin əqli mülkiyyətin subyekti olmamasıdır. Üstəlik, əgər hipotetik olaraq, nə vaxtsa mümkün olsa da, ÜƏMT-nin bütün dövlətlərində yanaşma eyni olmalıdır, çünki ayrıca bir dövlətdə qorunma tətbiq edilirsə, müvafiq çoxtərəfli beynəlxalq müqavilələrə uyğun olaraq digər dövlətlərdə də tətbiq olunmalıdır.

**– Kamran müəllim, fərqi çox gözəl izah etdiniz. Əgər fərq varsa, yəqin ki, oxşarlıq da var. Oxşarlıq nədən ibarətdir?**

– Oxşarlıq ondan ibarətdir ki, hüquqi şəxslər hüquq sahibi ola və müstəsna hüquqları əldə edə bilərlər. Fiziki şəxslər üçün bu hüquqların əsasları kifayət qədərdir – yaratma, miras, müqavilə, hüquqi şəxslərdə isə yalnız xidməti əsərlər, hüquqi varislik və müqavilədir. Açığını deyim ki, bu sahədə ÜƏMT-nin görəcəyi işlər çoxdur, çünki xüsusi hüququn, ilk növbədə, əqli mülkiyyət hüququnun təkmilləşdirilməsi kollektiv çalışma tələb edir. Düşünürəm ki, birinci problemə dair bəzi haqlı arqumentlər süni şəkildə ikinci problemə aid arqumentlərə çevrilir.

Dəfələrlə vurğulamışıq və nəşrlərimizdə qeyd etmişik ki, yeni əqli mülkiyyət obyektlərinin, onların istifadəsinin yeni üsullarının və tətbiq sahələrinin yaranmasının canlı şahidləriyik. Buraya həyat haqqında elmlərdə yüksək texnologiyaların tətbiqi və süni intellekt daxildir. Məsələn, bioloji elmlərdə yaradılan nəhəng həcmli verilənlər (datalar) ənənəvi əqli mülkiyyət obyektləri çərçivəsinə sığmır. Eləcə də süni intellekt tərəfindən insanın iştirakı ilə və ya iştirakı olmadan yaradılan kommersiya məqsədli musiqi və digər əsərlər, yaxud ixtira sahəsində hələ “bəstəkar”, “müəllif”, “ixtiraçı” anlayışlarının necə başa düşüləcəyi bilinmir.

Təsadüfi deyil ki, böyük verilənlərin dataların qorunması üçün getdikcə daha çox kommersiya sirri institutuna müraciət etmək məcburiyyəti yaranır. Bu ziddiyyət beynəlxalq xüsusi hüququn bir çox məsələlərinə toxunur. Data bazalarının (ənənəvi mənada) sahiblik məsələləri və Sİ-ə aid hüquq sahibliyi ilə bağlı suallar yaranır. Biz mütəxəssislərin rəyinə qatılırıq ki, “ənənəvi əqli mülkiyyət hüquqları kateqoriyalarını aşan, klassik əqli mülkiyyət hüquqları siniflərinə sığışmayan obyektlərə münasibətdə mülkiyyət hüquqlarının müəyyən dərəcədə yenidən dərk edilməsi, anlayışı qaçılmaz görünür”.

*(ardı 12-ci səhifədə)*

# “İnnovativ potensial: əqli mülkiyyət+süni intellekt” mövzusunda dəyirmi masa

**Aprelin 24-də Əqli Mülkiyyət Agentliyi tərəfindən “İnnovativ potensial: əqli mülkiyyət+süni intellekt” mövzusunda dəyirmi masa keçirilib. Müzakirə 26 Aprel Əqli Mülkiyyət Günü münasibətilə təşkil edilib.**



Agentliyin İdarə Heyətinin sədri, professor Kamran İmanov seminarda çıxışına Azərbaycan Prezidenti İlham Əliyevin bu fikirlərini sitat gətirməklə başlayıb: “Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir. Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir”. Professor vurğulayıb ki, bu fikirlər sinkretik məna daşıyır, mövcud reallıqları əks etdirir, uzaqgörən kreativlik gücə malik olaraq, bu günümüzlə gələcəyimiz arasındakı körpüdür. Bununla belə, qarşımızda istər əqli mülkiyyət sisteminin, istərsə də elm və təhsilimizin yeni vəzifələrini müəyyən edir.

Kamran İmanov diqqətə çatdırıb ki, innovasiya ekosistemi iqtisadiyyatın innovasiya fəaliyyətini birgə stimullaşdıran, qarşılıqlı əlaqəli institutlar, təşkilatlar və imkanlar şəbəkəsindən ibarət olan sistemdir. Bu kontekstdə innovasiya potensialı dedikdə konkret innovasiya sahələrində rəqabət üstünlüyü yaratmağa imkan verən biliklər, ixtisaslaşmış bacarıqlar və institusional imkanlar nəzərdə tutulur.

“İnnovasiya ekosistemi böyük və mürəkkəb sistem kimi bir sıra amillərin qarşılıqlı təsirindən asılıdır. Bunların ən mühümləri onun elmi, texnoloji, sahibkarlıq və istehsal aspektləridir. Bu dördlük ən vacib amillərdir. Məhz qeyd olunan amillər arasındakı qarşılıqlı əlaqənin dərəcəsi - yəni müxtəlif innovasiya imkanlarının ümumi bilikləri, bacarıqları və ya infrastrukturunu nə qədər paylaşması və birgə istifadə imkanları - ekosistemin bir sahədən digərinə asanlıqla diversifikasiya edə bilməsini müəyyən edir və bununla da mövcud amillərin qarşılıqlı təsirindən yaranan emergentliyi və akkumulyasiya effektini formalaşdırır”, - deyə professor Kamran İmanov bildirib.

Agentliyin rəhbəri qeyd edib ki, dünyada əqli mülkiyyət innovativ inkişafın əsas drayverlərindən biri kimi qəbul olunub. Süni intellektin istifadəsi vasitəsilə gücləndirildiyi halda, əqli mülkiyyət innovasiya potensialına təsir imkanlarını genişləndirmək üçün tamamilə əlverişli olur. Bunun üçün süni intellekt “hazırlanmış” olmalı, əvvəlcədən qeyd olunan amillərin empirik və ekspert təhlilindən irəli gələn mürəkkəb qarşılıqlı təsirinin arzuolunan formasını əks etdirən müəyyən normativ modelə malik olmalıdır.

Professor Kamran İmanov bildirib ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən Harvard Universitetinin “Growth Lab” laboratoriyası ilə birgə hazırlanmış “İnnovasiya Potensialına Baxış (İPB) 2026” adlı tədqiqata əsasən, 193 ölkədə 2,5 milyard məlumat (datalar) vahidi təhlil edilib və 2500-dən çox innovasiya imkanını əhatə edən xəritə yaradılıb.

“Müəyyən olunub ki, hazırda tədqiq edilən ölkələrin yalnız 10 faizi öz texnoloji potensialını tam şəkildə reallaşdırır. Bu da ildə təxminən 339000 texnoloji innovasiyaya bərabərdir.

Başqa sözlə, texnoloji innovasiyalar sahəsində iqtisadiyyatların yalnız 10 faizi öz patent potensialını reallaşdırır. Eyni zamanda, 27 faizi ticarət nişanları üzrə gözlənilən həcmə nail olur, 32 faizi isə elmi nəşrlər potensialını həyata keçirir. Bu isə qlobal innovasiya sistemində kritik dar boğazı təşkil edir və elmi biliklərin və istehsal güclərinin patentləşdiriləbilən innovasiyalara çevrilməsi prosesində mövcud olan sistemli maneələri göstərir”, - deyə professor Kamran İmanov bildirib.

Agentliyin rəhbəri qeyd edib ki, iqtisadiyyatlar innovasiya ekosisteminin müxtəlif mürəkkəblik səviyyələrinə malikdir. Bu isə əsas imkanların mürəkkəblik dərəcəsindən və müxtəlif innovasiya sahələri arasındakı əlaqələrin sıxlığından asılıdır. Elmi imkanlar məhdud mürəkkəbliyə malik iqtisadiyyatlar üçün ən əlçatan hesab olunur (buraya fundamental tədqiqatlar, elmi nəşrlər və araşdırmalar daxildir). Texnoloji imkanlar isə yüksək inkişaf səviyyəsi tələb edir və sürətli iqtisadi artıma malik iqtisadiyyatlara yönəlib. Sahibkarlıq bacarıqları aşağı mürəkkəblikli ekosistemlərlə daha uyğunluq təşkil edir, lakin sürətli inkişafı təmin edir. İstehsal imkanları isə adətən yüksək mürəkkəblik tələb edir və orta səviyyəli artımla xarakterizə olunur. Bu deyilənlər innovasiya potensialının inkişafını planlaşdırmağa imkan verir.

Professor Kamran İmanov deyib ki, ÜƏMT innovasiya ekosistemini innovasiya nəticələrinə təsir edən maraqlı tərəflərin (stakeholderlərin) məcmusu kimi nəzərdən keçirir, “Global Innovation Index” isə onu tək bir göstərici ilə deyil, təxminən, 80 indikatorla, yəni təhsildən və infrastrukturdan tutmuş bilik yaradılması və biznes mühitinə qədər ölçür. Buna görə də dörd amilin hər biri üçün universal və sabit “təsir payı” mövcud deyil: onların töhfəsi ekosistemin inkişaf mərhələsindən və iştirakçılar arasındakı əlaqələrin keyfiyyətindən asılı olaraq dəyişir.

Yeni biliklərin generasiyası mərhələsində ən güclü təsir edən amillər elm və texnologiyalardır. Kommersiyalaşma mərhələsində ən güclü təsir edən amillər sahibkarlıq və texnologiyalardır. İqtisadiyyata miqyaslandırma və geniş təsir mərhələsində isə ən güclü təsir edən amillər istehsal və texnologiyalardır. Beləliklə, elm potensial yaradır, texnologiyalar onu tətbiqi formaya salır, sahibkarlıq onu bazar məhsuluna çevirir, istehsal isə nəticəni miqyaslandırır və möhkəmləndirir.

Əqli Mülkiyyət Agentliyinin rəhbəri vurğulayıb ki, bu günə qədər dünyada süni intellekt tərəfindən yaradılan məhsul tək onun adından qeydə alına bilmir: “Çünki qeydə almaq o deməkdir ki, süni intellekt insan imkanlarına bərabərdir. Amma bu, belə deyil. Qeydə almaq üçün süni intellektlə birgə işləyən şəxs öz adını qeyd etməli, süni intellektin yardımını göstərməlidir, o zaman bu, qəbul olunur. Tutaq ki, hər hansı dövlət süni intellekti müəllif kimi qeydə almaq qərarına gəlib. Lakin bu da mümkün deyil. Çünki dövlətlər əqli mülkiyyət sahəsində çoxtərəfli müqavilələrlə bağlıdır, məsələn, sənaye mülkiyyəti, patentlə bağlı Paris Konvensiyası, müəlliflik hüququ ilə bağlı Bern Konvensiyası mövcuddur. Yəni bir dəyişiklik olarsa, bu, bütün ittifaqlara aid olub yenilənməlidir. Hazırda süni intellektin əqli mülkiyyət subyekti olmaq haqqında danışmaq hələ tezdir. Azı 20-30 il lazımdır ki, bu məsələ öz yerini tapsın.

Dəyirmi masada çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq problemləri komitəsinin sədri, professor Hicran Hüseynova diqqətə çatdırıb ki, süni intellekt bu gün texnologiyanın, müxtəlif sahələrin inkişafında çox mühüm yer tutur. Süni intellektin sürətlə yayılması əqli mülkiyyət sahəsində ciddi hüquqi və konseptual məsələlər doğurur.

“Xüsusilə alqoritmlər tərəfindən yaradılan məhsullarda, yəni bu məhsulun real sahibinin kim olması getdikcə daha aktual mövzuya çevrilir. Biz görürük ki, süni intellekt bir sıra yollarla əqli mülkiyyətlə kəsişir. Son zamanlar dünyada süni intellekt sahəsində ayrıca strategiyalar qəbul olunur və həyata keçirilir”, - deyə Hicran Hüseynova bildirib. O vurğulayıb ki, ötən il Azərbaycan Prezidenti tərəfindən “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” qəbul edilib. Bu il isə “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” təsdiq edilib. Azərbaycanda süni intellektlə bağlı normativ-hüquqi baza formalaşıb.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çıxışında bildirib ki, süni intellektin yaxşı tərəfləri olsa da, formalaşdırdığı pis vərdişlərin qarşısını almaq lazımdır. Bu gün süni intellekt Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, mətbuatına təsir edir. Bəzi hallarda süni intellekt yanlış istiqamətdə istifadə edilir. Bu da müəlliflik hüququna təsir göstərir.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev qeyd edib ki, Azərbaycanda artıq süni intellekt inqilabına bənzər bir proses gedir. Son zamanlar Azərbaycan Prezidenti tərəfindən süni intellektlə bağlı mühüm sənədlər qəbul edilib. Ölkəmizin yeni rəqəmsal arxitekturasının ortaya çıxması, onun möhkəm, dayanıqlı altplatformasının formalaşması, ən başlıcası isə dataların toplanması, ölkənin milli data ekosisteminin yaradılması – bütün bunlar varsa, əlbəttə, o zaman süni intellekt məhsul verəcəkdir. Əqli mülkiyyət hüquqları həmişə aktual olub. Son zamanlar qlobal virtual məkan, rəqəmsal platforma bu aktuallığı daha da artırıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxışında bildirib ki, innovativ potensialın reallaşdırılması, əqli mülkiyyət, süni intellekt sahəsində görülən işlər kifayət qədər önəmlidir.

V.Şıxəliyev qeyd edib ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya çərçivəsində 25 işçi qrupu fəaliyyət göstərir və onların 15-i bilavasitə qlobal innovasiya indeksinin müvafiq altindeksləri ilə bağlı fəaliyyət göstərir. Bu işçi qrupları müvafiq indeksin tələblərini düzgün şəkildə təhlil edərək, öncədən hansı tədbirlərin icra olunmasını bəyan edirlər. Həmin faktor bizə imkan verir ki, bu sahədə maraqlı tərəfləri prosesə cəlb edə bilək, yəni dövlət orqanları təkcə özləri tədbirlər həyata keçirmirlər, həm də akademik müəssisələrə, sahibkarlıq subyektlərinə, qeyri-hökumət təşkilatlarına qərarvermə prosesində maraqlı tərəf kimi iştirak imkanı yaradıla bilər.

“Bugünkü dəyirmi masada çox faydalı müzakirələr aparıldı və aktual fikirlər səsləndi. Biz innovativ fəaliyyətin nəticəyönümlü olmasını istəyiriksə, mütləq qaydada hər bir altindeksin, komponentlərin tələbləri və ölkəmizdə innovasiyaya giriş, innovasiyaya çıxış istiqamətində tarazlığı necə təmin etmək məsələləri üzərində düşünmək lazımdır. İnnovasiyaya giriş üzrə ölkəmizin mövqeyi kifayət qədər irəlidədir, innovasiyaya çıxış, yəni innovativ məhsulların yaradılması üzrə bizim ciddi potensialımız var. Müvafiq əlaqələndirmə vasitəsilə biz bu potensialı iqtisadi dəyərə çevirə bilərik”, - deyə Vüsal Şıxəliyev bildirib.

Digər çıxışlarda və müzakirələrdə Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti yüksək qiymətləndirilib, dəyirmi masanın mövzusunun aktuallığı vurğulanıb, birgə əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb.

***XQ***

# Əqli mülkiyyət və zaman: yeni infrastruktur, innovasiya, yaradıcılıq və süni intellekt

*(əvvəli 11-ci səhifədə)*

Burada bir neçə suala da cavab tapılmalıdır: süni intellektin iştirakı ilə yaranan ƏFN-in hüquqi mühafizəsinin ənənəvi work-for-hire doktrinasına uyğun olaraq, tətbiqi mümkündürmü?

İnsanın iştirakı olmadan yaradılmış obyektlərin hüquqi mühafizəsinə gəldikdə, onların əqli mülkiyyət obyekti kimi tanınması və ən başlıcası, hüquq subyekti kimi qəbul edilməsi (o cümlədən subyektsizliyin mümkünlüyü) barədə kəskin müzakirələr getsə də, gec və ya tez qərar veriləcək. Bütün bunlara baxmayaraq, “Time” jurnalının seçiminə əsasən, dünyanın 100 ən nüfuzlu insanları sırasına daxil edilən Sİ üzrə tanınmış mütəxəssis Dario Amodei (“Machines of Loving Grace” esse) demişkən, artıq 2026-cı ildə süni intellekt bütün əsas sahələrdə Nobel mükafatı laureatlarından “daha ağıllı” olacaq və məlumatları insandan 10-100 dəfə sürətlə emal edəcək. OpenAI rəhbəri Altmanın fikrincə isə, süni intellekt “ağlının yüksəlişi” bir neçə min gün (təxminən 2027-ci il) sonra reallaşacaq, çünki neyron şəbəkələrin gücü eksponent şəkildə artır və AIMultiple-in məlumatına görə, ən böyük əqli mülkiyyət modellərinin hesablama gücü hər 7 ayda ikiqat artır.

Skeptik olmaq istəmirəm, lakin qeyd etməliyəm ki, hazırda ən böyük neyron şəbəkəsində 2 trilyon əlaqə var, insan beynində isə bu 50 dəfə çox – təxminən 100 trilyondur. Bu, o deməkdir ki, Sİ-in “ağlının yüksəlişi” yalnız 2040–2050-ci illərdə mümkün görünür. Beləliklə, süni intellektin sürət və yaddaş tutumu baxımından insanları üstələməyə hələ çox var. Digər tərəfdən baxanda, avtomobil insandan sürətlidir, amma biz avtomobillə yarışmırıq, sadəcə rahat nəqliyyat vasitəsi kimi ondan istifadə edirik.

Bununla belə, yığılıb qalan problemlər mütləq həllini tapmalıdır və biz bu məsələdə ÜƏMT-nin dəstəyinə ümid edirik. Problemlərdən qaçmamalıyıq, çünki Merfi qanununa əsasən, hər bir həll yeni problemlər yaradır.

**– Yeni rəqəmsal modellər barədə nə deyə bilərsiniz?**

– Agentlikdə yeni rəqəmsal modellərin formalaşdırılması ilə əlaqədar deyə bilərəm ki, süni intellekt texnologiyalarına əsaslanan bir sıra xidmətlərdən istifadəyə imkan verən vahid platformaya çıxış təmin edilmişdir. Bu platforma WIPO Translate xidməti və PROMT sistemi vasitəsilə maşın tərcüməsi kimi funksional imkanları birləşdirir.

Platforma dərc məqsədləri üçün üçölçülü rəqəmsal modellərin (3D modellərin) çevrilməsi ilə yanaşı, sənaye nümunələrinin təsvirləri üzrə axtarış aparmaq imkanı da təqdim edir. Eyni zamanda, sistem sənaye mülkiyyəti hüququ obyektlərinin ümumi reyestrinə çıxışı və patent sənədlərinin Beynəlxalq Patent Təsnifatına uyğun şəkildə təsnifləşdirilməsini həyata keçirir. Bununla yanaşı, milli patentlər haqqında məlumatlar Avrasiya əczaçılıq reyestrinə daxil olunur, həmçinin patent sənədlərinin mətninə əsaslanan axtarış funksiyası vasitəsilə istifadəçilər məlumatları daha dəqiq və operativ şəkildə əldə edə bilirlər. Platformadan istifadə səmərəliliyi artırmağa, informasiya emalını sürətləndirməyə və yerinə yetirilən tapşırıqların keyfiyyətini yaxşılaşdırmağa imkan verəcək.

Müasir şəraitdə əqli mülkiyyət innovasiyaların hərəkətverici qüvvəsi olmaqla, süni intellektin imkanları ilə vəhdətdə və eyni zamanda, “biliklərin dövriyyəsi”nin həm xammalı, həm də məhsulu kimi fəlsəfi, hüquqi və iqtisadi yanaşmaların inteqrasiyasını tələb edir. Bu, əqli fəaliyyətin nəticələrinin mahiyyətinin dərk edilməsinə xidmət göstərir.

Əqli fəaliyyətin nəticələrinin həcmi və məzmununun müqayisəli təhlili, “informasiya” və “bilik” kateqoriyaları arasındakı oxşarlıq və fərqlərin, o cümlədən informasiyanın subyektivləşdirilməsi, biliyin obyektivləşdirilməsi, onların qarşılıqlı çevrilə bilməsinin araşdırılması “əqli fəaliyyətin nəticəsi” və “qorunan əqli mülkiyyət obyekti” anlayışlarını daha dərindən əlaqələndirməyə imkan verir. Bu məqsədlə “əqli mülkiyyət obyekti olmaq” və “əqli fəaliyyətin nəticəsi olmaq” müddəaları üçün “Əgər ƏMO-dursa, deməli, ƏFN-dir” implikasiyası formasında həqiqət cədvəlləri klassik məntiq və deduksiya (“modus ponens”), eləcə də təxmini mühakimələr və qeyri-səlis məntiq üçün onların ümumiləşdirilmiş formaları çərçivəsində təqdim edilmişdir. Beləliklə, qeyri-səlis məntiqə əsaslanan nəticələr daha əlverişlidir.

Əqli mülkiyyətin ikili təbiəti, yəni mühafizə məsələləri baxımından maddi obyekt kimi və mühafizənin qeyri-maddi əqli fəaliyyətin nəticələrinə şamil olunması baxımından dualizmi nəzərə alınmaqla, qeyri-səlis məntiq çərçivəsində yanaşma Zadə nəzəriyyəsi əsasında müvafiq həqiqət cədvəlləri vasitəsilə qorunan, qoruna bilən və qorunmayan obyektləri düzgün şəkildə ayırmağa imkan verir. Bu formallaşdırma və həyata keçirilmiş rəqəmsallaşma təhlilə süni intellektin də cəlb olunmasına şərait yaradır.

ÜƏMT və Harvard Universitetinin birgə tədqiqatına əsaslanan innovasiya ekosisteminin innovasiya potensialı modeli elmi, texnoloji, sahibkarlıq və istehsal amillərinin qarşılıqlı təsirini əhatə edir. Bu amillərin qarşılıqlı təsirinin akkumulyasiya effekti modeli qeyri-səlis yönümlü qraf şəklində təqdim edilmişdir. 4 “təpə”li qrafda qarşılıqlı təsirin intensivliyinin şərti şkalasından istifadə olunmuşdur (“0” – təsir yoxdur, “1” – zəif təsir, “2” – orta təsir, “3” – güclü təsir). Bu şkala istiqamətləndirilmiş və “çəkiyə” malik tillər vasitəsilə qeyd olunan amillərin diferensial qarşılıqlı təsirini əks etdirir. Burada “təsir” linqvistik dəyişəni rəqəmlərlə deyil, qeyri-səlis qiymətlərlə ifadə olunur.

Matrisdə hər bir xana sətirdə yerləşən amilin sütunda yerləşən amilə təsir dərəcəsini əks etdirməlidir. Bu zaman təsirin istiqaməti mütləq nəzərə alınmalıdır, çünki amillərin qarşılıqlı təsiri, bir qayda olaraq, ikitərəfli, lakin asimmetrik xarakter daşıyır. Bununla əlaqədar olaraq, ayrı-ayrı təsirlər şərti intensivlik şkalasından istifadə edilməklə qiymətləndirilməlidir.

Müvafiq etalon qarşılıqlı əlaqə matrisi ilə birlikdə ilkin qraf innovasiya potensialından tam istifadənin normativ, “arzuolunan” qrafı kimi təqdim edilir. Bununla yanaşı, qarşılıqlı təsirin real vəziyyətini və real təsir gücünü əks etdirən, müvafiq qarşılıqlı təsir matrisi ilə müşayiət olunan real qeyri-səlis yönümlü qraf da daxil edilmişdir. Həmin qrafların fərqi tam istifadə olunmayan innovasiya potensialını göstərir.

**– Təqdim olunan matris elm, texnologiya, sahibkarlıq və istehsalın qarşılıqlı təsirinin gücünü, istiqamətini əks etdirən innovasiya ekosisteminin etalon, normativ (ideal) modeli kimi nəzərdən keçirilə bilərmi?**

– Bəli, keçirilə bilər. Təqdim olunan matrisdə normativ arzuolunan qraf üçün müvafiq metrikalar da nəzərə alınmışdır. Bu metrikalara lider amili müəyyən etməyə imkan verən təpə dərəcəsinə əsaslanan mərkəzilik, lider amildən digər “təpə”lərə qədər ən qısa yolların matrisi, amillərlə birbaşa və ya vasitəçilərlə fəal qarşılıqlı əlaqədə olan amili müəyyən edən yaxınlıq mərkəziliyi, “təpə”lər arasındakı ən qısa yollarda nə dərəcədə tez-tez yerləşdiyini göstərən vasitəçilik mərkəziliyi, eləcə də sıxlıq, diametr və radius kimi əlavə göstəricilər daxildir.

Metrikaların ümumiləşdirilmiş hesablaması göstərir ki, arzuolunan qrafın yekun normativ modelində mərkəzi mövqeyi “texnologiyalar” “təpə”si tutur və əlaqələrin maksimal gücü, ən yüksək tam mərkəzilik, digər təpələrə minimal orta məsafə və ən yüksək yaxınlıq üzrə mərkəziliklə xarakterizə olunur. Bu, belə nəticəyə gəlməyə əsas verir ki, məhz texnologiyalar innovasiya ekosisteminin sistemformalaşdırıcı və koordinasiyaedici mərkəzi kimi çıxış edir və onun innovasiya potensialının müəyyən edilməsində ən böyük əhəmiyyətə malikdir.

Xüsusilə vurğulamaq istərdim ki, həm diversifikasiya məhdudiyyətlərinin, həm də istifadə olunmamış potensialın sistem xarakteri onu göstərir ki, uğurlu strategiyalar regional inkişaf səviyyəsinə və institusional şərtlərə uyğunlaşdırılmalıdır.

**– Kamran müəllim, maraqlı müsahibəyə görə təşəkkürümüzü bildirir, 26 Aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə Sizi, rəhbərlik etdiyiniz kollektivi, eləcə də müəllifləri, ixtiraçıları, ümumilikdə, yaradıcılığa həvəsi olan və bu işə dəstək verən hər kəsi ürəkdən təbrik edirik.**

– Sağ olun! Sizə də uğurlar arzulayıram.

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

*Şöhrət ünvanlarımız*

# Görkəmli nasir və alim Mir Cəlal həm də mahir publisist olub

**Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, ədəbiyyatşünas, professor, Əməkdar elm xadimi Mir Cəlal Paşayev bədii yaradıcılığı, elmi-pedaqoji fəaliyyəti ilə ölkəmizdə ictimai-siyasi fikrin formalaşmasında və vətənpərvərlik ideyalarının təşəkkülündə böyük rol oynamış ziyalıdır. Ümummilli lider Heydər Əliyev "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar" deyəndə klassik adlandırdığı yazarlar siyahısında Mir Cəlalın da adını çəkirdi. Yaxud elmin və ədəbiyyatın böyük hamisi olan Prezident İlham Əliyev yazıçı Mir Cəlalı "XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi" və "Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamış" sənət adamı kimi dəyərləndirir.**



Görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal 6 roman, 300-ə yaxın hekayə və çoxsaylı elmi əsərlərin müəllifi kimi böyük oxucu kütləsinin qəlbini fəth etmişdir.

Akademik Nərgiz Paşayevanın vurğuladığı kimi, Mir Cəlal Paşayevin həyatı və fəaliyyəti çoxşaxəli yaradıcılıq zəhmətinin parlaq nümunəsidir. O, yarım əsrdən artıq müddətdə həm bədii ədəbiyyatda, həm elmi araşdırmalarda, həm də pedaqoji sahədə ardıcıl və fədakar fəaliyyət göstərmiş, hər 3 istiqamətdə silinməz iz qoymuşdur.

Mir Cəlalın ədəbi irsi o qədər parlaq və təsirli, elmi yaradıcılığı o dərəcədə dəyərli olub ki, sanki, onun publisist yaradıcılığı bu zənginliyin kölgəsində qalıb. Həqiqət isə budur ki, bu istedadlı yazıçı və alim ədəbi mühitə məhz mətbuatdan, coşqun və səmərəli jurnalist fəaliyyətindən gəlib.

Hətta 1957-ci ildə "Azərbaycan gəncləri" qəzetinin 23 yanvar sayında dərc edilən "Onlar "Gənc işçi"nin müxbirləri olmuşlar" adlı məqaləsində, özünün olduqca səmimi etirafında belə bunu görmüşük: "Qəzet bizim yarımsavad, ibtidai yazılarımızı pozub, düzəldib, rəndələyib, ağardıb, abra salıb çap edirdi. Altında imzamız olan yazını ilk dəfə qəzetdə görəndə sevincimizin hüdudu olmamışdır. Biz bu yazıları təkrar-təkrar oxumuş, həm sevinmiş, həm də öyrənmişik. Hər bir savadlı adam yaza bilər. Ancaq mətbuat üçün on minlər, yüz minlərin diqqətinə layiq yazı yazmaq, hər kəsə müyəssər olan asan bir iş deyil". Keçən əsrin 30-cu illərindəki ədəbi mühiti dəyərləndirən akademik Nizami Cəfərov yazır ki, haqqında söhbət gedən mərhələnin dramaturqlarının əksəriyyəti həm də publisist idi: Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Hüseyn Cavid... o cümlədən Mir Cəlal...

Mir Cəlalın publisistik yaradıcılığına diqqət edəndə bu fəaliyyətin 18 yaşında, 1926-cı ildə – hələ Gəncə Darülmüəllimində təhsil aldığı illərdən başlandığını görürük. 1926–1929-cu illərdə "Yeni fikir" və "Maarif yolu" nəşrlərində onun ilk məqalələri çap olunub. Bakıya aspirant kimi təhsil almaq üçün gəlişi isə ona şəhər mühiti ilə yaxından tanış olmaq imkanı qazandırır. Mir Cəlalın o dövrün bir sıra görkəmli şair və yazıçıları ilə, o cümlədən Mehdi Hüseyn, Hüseyn Cavid, Süleyman Sani Axundov kimi mötəbər ziyalılarla tanışlığı bu illərə aiddir. Bu əlaqələrin həm yaranmasında, həm də daha da genişlənməsində onun müxbirlik fəaliyyəti də əvəzsiz rol oynamış və bu fəaliyyətin 2 ili "Komminist" və 4 ili "Gənc işçi" qəzeti ilə bağlı olmuşdur. Mir Cəlal uzun illər sonra "Ulduz" jurnalında dərc olunmuş məqaləsində yazırdı: "Kommunist"də 2, "Gənc işçi"də 4 illik həvəsli işim müasir, canlı, operativ, ayıq mühakimə hazırlamaqda mənə mühüm təsir göstərirdi. Mətbuatın bu gözəl tərbiyə məktəbini mən heç vaxt unutmaram".

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Mir Cəlal" biblioqrafiyasında (2018) da göstərilir ki, 1928-ci ildə yaradıcılığa başlayan Mir Cəlal əvvəlcə şeirlə, tənqidlə məşğul olmuş, sonra "Mirzə Xəyal" adlı komediya da yazmışdır. Amma əslində elə həmin mənbədə də göstərildiyi kimi, Mir Cəlal Paşayev yaradıcılığa jurnalistikadan başlamışdır və bu faktı akademik Nizami Cəfərov da təsdiqləyir: "O, yaradıcılığa publisistika ilə başlamış, xüsusilə 20-ci, 30-cu illərdə "yeni həyat" uğrunda "bütün cəbhə boyu" qızğın ictimai-siyasi mübarizənin gənc intellektuallarından olmuşdur".

Bu fəaliyyətin ilkləri isə 1926-cı ilə aiddir. Həmin il "Yeni fikir" qəzetində dərc edilmiş "Dinsizlər İttifaqı nasıl çalışmalıdır", "Məhərrəmlik mövhumatı kimin əsəridir" məqalələri, 1927-ci ildə "Zəhmət" qəzetində dərc edilmiş "Azərbaycanda İran mühacirləri", "Gəncədə bəhayi fəaliyyəti", "Gəncədə mühacir ipək toxuyanlar", 1931-ci ildə "Kommunist" qəzetində dərc edilmiş "Hücum" jurnalının 1931-ci il 8-ci nömrəsi haqqında tənqid və biblioqrafiya" (Həmid Araslı ilə birgə), "Qələbələrin açarı" və sair məqalələr təsdiqləyir ki, Mir Cəlal müəllimin ilk yaradıcılıq uğurları mətbuatla bağlıdır. Təbii ki, jurnalistikaya daha çox meyil etməsi və onun bu fəaliyyəti yaradıcılığının sonrakı mərhələlərində də mühüm rol oynamışdır. Onun jurnalist peşəsi haqqında söylədiyi dəyərli bir fikri xatırlatmaq vacibdir: "Hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər".

Mir Cəlalı yaradıcılıq fəaliyyəti çox zəngin olan publisist adlandırmaq lazımdır. Mətbuatın cəmiyyətdəki rolunu yüksək dəyərləndirən böyük ədib bildirdi ki, "Qəzet işində gördüyüm yaxşı cəhətlərdən biri də xalq arasında hörmət, nüfuzdur. Bizim xalq elə tərbiyə olunmuşdur ki, mətbuata doğrudan da müqəddəs, həqiqət, ədalət carçısı kimi baxır. Hara gedirsən, kim ilə rastlaşırsan, mətbuat nümayəndəsi olduğunu biləndə xüsusi hörmət görürsən. Adamlar ehtiyac və şikayətlərini birinci növbədə sənə deyirlər".

Onun hələ ədəbiyyata gəlməmişdən öncə, dövri mətbuatda dərc edilən məqalələrinin sayı yüzdən çoxdur. Hətta işıq üzü görən ilk kitabı - "Sağlam yollarda" adlanan oçerklər toplusu da mətbuatda dərc edilmiş yazılardan ibarət olmuşdur. 1930-cu ildə Mehdi Hüseyn "Ədəbiyyat cəbhəsində" qəzetində dərc etdirdiyi "Əskini yıxan, yenini quran şair" adlı məqaləsində Mir Cəlalın ədəbi yaradıcılığından yox, onun "Gənc işçi" qəzetində çap olunan məqalələrindən danışır, bu məqalələrin sənətkarlıq məsələləri ilə yanaşı, həyati məqamlarını vurğulayır. Şübhəsiz ki, Mehdi Hüseyn kimi çox istedadlı və yaradıçılıq məsələsində heç kəsə güzəştə getməyən bir ədibin Mir Cəlalın publisistikasına diqqət etməsi və ona ayrıca məqalə həsr etməsi də bu yazıların kifayət qədər yetkin nümunələr olduğunu təsdiqləyir.

Tərcüməçi Cahanbaxış Cavadzadə Mir Cəlalın "Biz neçə böyüyürük" oçerkinə ayrıca məqalə həsr etmiş və "Komsomol səsi" adlı bu məqalə 11 may 1934-cü ildə "Kommunist" qəzetində dərc olunmuşdur.

Amma qeyd etmək vacibdir ki, Mir Cəlal Paşayevin publisistik fəaliyyəti sovet dövründə də filoloji fikir üçün diqqətdən kənarda qalmamışdır. Hələ 1957-ci ildə Nurəddin Babayev "Azərbaycanda bədii oçerkin inkişafı (1930–1940)" mövzusunda dissertasiyasında ədibin oçerklərini geniş təhlilə cəlb etmiş, onların bədii-publisistik xüsusiyyətlərini və quruculuq ideyalarının ifadəsini elmi şəkildə əsaslandırmışdır. Sonrakı mərhələdə Ceyran Əbdürrəhimova "Azadlığın carçısı" əsərində Mir Cəlalın "Şərq qadını" jurnalındakı fəaliyyətini dəyərləndirmiş, publisistikanın ədəbi-ictimai prosesdə rolunu önə çıxarmışdır.

Eyni zamanda, Abdulla Abbasov və Yusif Yusifov kimi alimlərin araşdırmalarında da yazıçının publisistik irsi elmi dövriyyəyə daxil edilmişdir. Bununla belə, sovet dövründə nəşr olunan bir sıra fundamental mənbələrdə – "Mir Cəlal: biblioqrafiya", Y.İsmayılovun "Mir Cəlalın yaradıcılığı" monoqrafiyası və Azərbaycan Sovet Ensiklopediyasında yer alan məqalədə — ədibin bədii irsi geniş işıqlandırıldığı halda, publisistik fəaliyyəti nisbətən arxa planda təqdim olunmuşdur. Ona görə də deyə bilərik ki, bu nümunələr Mir Cəlalın publisist kimi tanıdılmasında elə də əhəmiyyətli rol oynamamış və sovet dövründə onun elmi və pedaqoji fəaliyyətindən fərqli olaraq publisist fəaliyyəti öyrənilməmiş, jurnalistika sahəsindəki uğurları uzun illər ən az danışılan sahə olmuşdur.

2008-ci ildə nəşr edilən "Mir Cəlal. Biblioqrafiya" da ədibin 1932-ci ildə "Kommunist", "Gənc işçi" qəzetlərində işlədiyi, "Sağlam yollarda" adlı ilk kitabının çapdan çıxdığı bildirilir. Yeri gəlmişkən, qeyd edək ki, Mir Cəlalın "Kommunist" qəzetində işlədiyi dövr 1932-ci il göstərilir. Amma "Kommunist" qəzetinin o illərə aid arxiv araşdırmaları və qəzetdə dərc edilən məqalələrin tarixləri isə təsdiqləyir ki, səhv olaraq göstərilən bu tarix də düzəldilməlidir. Bu barədə böyük ədibin "Kommunist" qəzetində 1931-ci idə dərc edilən yazıları da əyani təsdiqdir.

Ədibin 2013-cü ildə "Seçilmiş əsərləri: hekayələr, oçerklər, şeirlər, tərcümələr, xatirələr: 5 cilddə" təqdim olunur və burada onun mətbuatda dərc edilən yazılarının daha geniş yer alması təqdirəlayiq hadisədir. Akademik Nərgiz Paşayeva "Müasir nəsrimizin hekayə ustadı" adlı təqdimatında Mir Cəlal Paşayevin zəngin yaradıcılıq irsini və publisistik fəaliyyətini yığcam şəkildə səciyyələndirir.

Müstəqillik illərində "Respublika" qəzetinin baş redaktoru olmuş professor Teymur Əhmədov böyük ədibi tərtibçisi olduğu 2 cildlikdə - "Mir Cəlal: Ömrün mənalı anları" albom-kitabında "Azərbaycan xalqının sevimli yazıçısı, görkəmli pedaqoq, ədəbiyyatşünas alim və publisist Mir Cəlal Paşayev" kimi təqdim edir. Eyni zamanda, Mir Cəlal Paşayevin zəngin yaradıcılığını əks etdirən dəyərli bir əsər olaraq onun yazıçılıq, publisistika və ədəbi-nəzəri fəaliyyətlərinin bir-birini necə tamamladığını göstərir. Bu albom-kitab onun təkcə bir yazıçı kimi deyil, həm də tarixə və ədəbiyyata dair obyektiv baxışı olan fikir adamı kimi rolunu xüsusi vurğulayır.

Ən nəhayət, xatırlatdığımız qısa faktlar da təsdiqləyir ki, Azərbaycan nəsrinin görkəmli nümayəndəsi və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin publisistik fəaliyyəti onun çoxşaxəli yaradıcılığının önəmli bir qolu olub. Bu mənada, "Publisistika (1926-1977)" kitabı Mir Cəlalın publisist fəaliyyətinə verilən böyük dəyərin nümunəsidir.

Akademik Nərgiz Paşayevanın da qeyd etdiyi kimi: "Ümumiyyətlə, Mir Cəlalın oçerkləri ölkəmizin ictimai həyatının müxtəlif həlledici mərhələlərindəki əhəmiyyətli, səciyyəvi problemlər və hadisələr barədə, həmçinin zamanın mənəvi-psixoloji xarakteri haqqında bitkin təsəvvür yaradır".

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin publisistik fəaliyyəti çoxşaxəli yaradıcılığının önəmli bir qolu kimi daha dərindən öyrənilməli və təbliğ olunmalıdır. Həm də ona görə ki, böyük ədibin publisistikası rejimə və sovet sisteminə yox, Azərbaycan xalqına və onun milli dəyərlərinə xidmət edib.

***Namiq QƏDİMOĞLU,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***BDU jurnalistika fakültəsinin müəllimi***

# 3 zirvənin fatehi

## *"Həyatda hər kəsin yerini və rolunu tarix müəyyən edir"*

**Tərcümeyi-halı ilə tarix yaradan, Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərən görkəmli ədib, böyük alim, unudulmaz müəllim, xeyirxah insan Mir Cəlal Paşayevin anadan olmasından 118 il ötür.**

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Güney Azərbaycanın Əndəbil vilayətində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığını burada keçirib.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal Paşayev elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkar ruhun qida yerinə, millətin istiqlal manifestinə çevrilən "Bir gəncin manifesti" əsəri ilə tarix yaradıb.

Zamanın güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Yuxusuz gecələrinin, gərgin zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", milli ədəbiyyatın 1905-1917-ci illər dövrünü əhatə edən "Azərbaycanda ədəbi məktəblər", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin sütunlarından birinə çevrilib.

Mir Cəlal Paşayev görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Tərəddüd etmədən deyə bilərik ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi.

1928-ci ildə mətbuatda ilk şeirləri – "Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir" işıq üzü görən, 1930-cu ildən etibarən hekayələr yazan ustad sənətkar o dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" əsərləri ilə oxucuların görüşünə gəlib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları çap olunub. 1935-ci ildə işıq üzü görən "Dirilən adam" romanı ilə Mir Cəlal Paşayev akademik Məmməd Arifin dili ilə desək, realist yazıçı olduğunu göstərib.

Yazıçının qələmindən çıxan 6 roman – "Bir gəncin manifesti", "Dirilən adam", "Yolumuz harayadır", "Açıq kitab", "Yaşıdlarım" və "Yeni şəhər" kitabları tarixlə müasirlik arasında körpüyə çevrilib.

1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alan görkəmli alim, pedaqoq 1978-ci il sentyabrın 28-də dünyaya vida nəğməsi oxusa da, əbədiyyət dastanını qələmlə kəlamın vəhdətində yaradıb.

Yazıçı, müəllim, alim kimi üç zirvənin fatehi sayılan Mir Cəlal kiçik hekayələrin ustadı, ciddi roman və povestlərin müəllifi, ədəbi irsi aforizmlərlə, atalar sözləri ilə zəngin olan fikir və düşüncə sahibi kimi tanınır.

Mir Cəlalın taleyinə təlatümlərlə dolu XX yüzil düşmüşdü. İnqilabları, repressiya və müharibələri əhatə edən bu zaman kəsiyi hər bir ciddi qələm sahibinin imtahanı idi. Ondan üzüağ çıxmaq üçün isə Mir Cəlal təmizliyi və əyilməzliyi gərəkdi. Vaxtın, zamanın fövqünə qalxmaq, onu millətinin nəfinə işlətmək üçün mənindəki mənə tapınmaq, quruluşun, zamanın üstünə yerimək o qədər də asan deyildi. Mühiti, şəxsiyyəti, irsi və varisləri ilə bu gün də nümunəyə çevrilən Mir Cəlal dövrdaşlarından fərqli olaraq, qələmlə kəlamın vəhdətində oxucusuna tarixin ən mühüm suallarını ünvanlayıb.

"Kölgədə bitən ağacın kölgəsi olmaz", "Gərək elə yazasan ki, ya yazdıqlarına, ya da ünvan seçdiklərinə görə xatırlanasan", "ən böyük nailiyyətim ailəm, ən qiymətli əsərim övladlarımdır" kimi kəlamları ilə dəyərlərin əyarına çevrilən Mir Cəlalın milli mənlik, milli kimlik uğrunda mücadilədə mücahid dastanını yazan hər bir vətənpərvər insan üçün örnəyə çevrilən bir kəlamı da var: "İtə ataram, yada satmaram!".

Bir yazıçı kimi Mir Cəlalın təmtəraqlı adı, orden və medalları olmayıb, amma Mir Cəlal adı, imzası özü bir etalon olub. O, doğuluşdan paralanmış, yaralanmış Azərbaycanın haqq səsi olaraq var olmuşdu. Taleyin sərt üzündən özü öz tarixi torpaqları ilə həmsərhəd olan Azərbaycanın iri və paytaxt şəhərləri Təbriz və Bakı onun ömründən keçirdi. "Bir gəncin manifesti"ndə Azərbaycan anasının gələcəyə ünvanlanan sevgi məktubunun Azərbaycan xalısının "Yusif və Züleyxa" dastanını yaradan Mir Cəlal Sonanın dili ilə ingilis zabitinə sərt şillə vurur: "İtə ataram, yada satmaram".

Bu gün Azərbaycan xalısı Mir Cəlalın sevimli nəvəsinin – ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iradəsi ilə dünyanın maddi-mədəni irsi siyahısına yazılıb.

Mir Cəlal bu dünyaya 3 zirvənin fatehi kimi könüllərdə taxt qurmağa gəlmişdi. Ruhunu, duyğusunu, sevgilərini Şeyx Cəmaləddin Əfqani kimi doğmalarının və yetirmələrinin beyinlərinin şırımlarına dən kimi səpmişdi. Həmin müqəddəs dəndən cücərib dirçələn, 44 günlük tarixi savaşdan, Vətən müharibəsindən sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin, qüdrətli Azərbaycan Ordusunun iradəsi ilə Şuşa qalasında, Xudafərin körpüsündə Bayrağa dönən millət "kölgədə bitən ağacın kölgəsi olmaz", Vətən torpağının bir qarışını da yağıya, "yada satmaram!" nidası ilə tarix yaratdı.

Qalın deyil, qalan kitabların müəllifi Mir Cəlal bu dünyaya mənsub olduğu millətin əbədiyyət dastanını yazmağa gələnlərdən idi. Gəldi, sevdi, yazıb-yaratdı, bütövlüyün, birliyin, diriliyin şərbətini mənsub olduğu millətə, məmləkətə içirib getdi. Bu il milli maraqları manifestə çevirən Mir Cəlalın "Bir gəncin manifesti" əsərinin çapdan çıxmasının 85 ili tamam olur.

Biz bir millət, məmləkət olaraq 85 ildir dəyərlər tariximizin incisinə çevrilən bu əsərlə nəfəs alırıq. Bu, Mir Cəlalın ədəbiyyat kəhkəşanında sönməyən ulduz olduğunu sübut edən amillərdən biridir. Şah əsərlər min ildə bir yarandığı kimi, fitri istedad sahibləri, dahilər də min ildə bir doğulur. Bu gün onun ruhunu cisminə geyinib Yer üzünə endiyi gündür. Məqamı uca, məkanı cənnət olsun!

***Şərəf CƏLİLLİ,***
***tədqiqatçı-publisist***

*Yubilyarlarımız*

# İqtisadi nəzəriyyəni zənginləşdirən alim



**Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi və ölkənin iqtisadi qurumları iqtisad elmləri doktoru, professor Rəşad Muradovun 60 illik yubileyini alimin elmi uğurlarına baxış əlaməti və səmərəli elmi-pedaqoji fəaliyyətinə qədirbilənlik duyğuları ilə qeyd edir. Bu günlərdə tanınmış alimə ünvanlanan təbriklərdə onun mənalı ömür yoluna nəzər salınır, milli iqtisad elminə və ölkədə ali iqtisadçı kadrlar hazırlığına verdiyi töhfələr yüksək qiymətləndirilir.**

Rəşad Şahbaz oğlu Muradov 28 aprel 1966-cı ildə Bakı şəhərində anadan olub. Orta məktəb illərində biliklərə dərin marağı, yüksək zəkası ilə seçilən Rəşad iqtisadçı olmaq arzusunu asanlıqla gerçəkləşdirərək 1983-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinə (keçmiş Xalq Təsərrüfat İnstitutu) daxil olub. 1989-cu ildə perspektivli elmi-pedaqoji kadr kimi məzunu olduğu ali məktəbdə saxlanılıb. Elmi fəaliyyətə tələbəlik illərindən maraq göstərən gənc mütəxəssis 1992-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək "siyasi iqtisad" ixtisası üzrə iqtisad elmləri namizədi elmi dərəcəsi alıb.

Gənc alim sonrakı illərdə tədqiqatlarını daha da genişləndirərək 2003-cü ildə "iqtisadi nəzəriyyə" ixtisası üzrə doktorluq dissertasiyasını da müdafiə edərək 37 yaşında iqtisad elmləri doktoru elmi dərəcəsi qazanıb. O, 2007-ci ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin idarəetmənin təşkili kafedrasının professoru elmi adına layiq görülüb. Rəşad Muradovun həmin kafedraya rəhbərliyi dövründə elmi-pedaqoji kollektivin yaradıcı potensialı yüksəlib, bazası güclənib, uğurları çoxalıb. Onun elmi rəhbərliyi ilə 10-dan artıq elmlər namizədi və doktoru hazırlanıb, yeni iqtisadçılar nəslinin yetişməsinə sanballı töhfə verilib.

Rəşad Muradov beynəlxalq akademik mühitdə də fəal iştirak edib, müxtəlif elmi proqramlar çərçivəsində xarici universitetlərdə təhsil və təcrübə keçib. O, 1993–1994-cü illərdə TACİS proqramı çərçivəsində İrlandiya Respublikasının Dublin Universitetində, 1996–1998-ci illərdə isə Niderland Krallığının Amsterdam Universitetində yüksək kurs keçib. Bu təcrübə onun elmi dünyagörüşünün genişlənməsinə, Qərb iqtisadi məktəbləri ilə tanış olmasına və müasir iqtisadi nəzəriyyələrin mənimsənilməsinə önəmli təsir göstərib.

Professor Rəşad Muradov beynəlxalq elmi dairələrdə ardıcıl və məhsuldar iştirakı ilə seçilən alimlərdəndir. O, Türkiyə, Belarus və Rusiya kimi ölkələrdə keçirilən nüfuzlu elmi konfrans və simpoziumlarda müntəzəm olaraq məruzəçi olub, irəli sürdüyü nəzəri yanaşmalar və analitik ümumiləşdirmələri peşəkar elmi ictimaiyyət yüksək qiymətləndirib.

Nəzəriyyəçi alimin çıxışları yalnız elmi nəticələrin təqdimatı ilə məhdudlaşmayıb, eyni zamanda, müasir iqtisadi düşüncənin inkişafına da töhfə verən konseptual müzakirələrin formalaşmasına yönəlib. Bu fəaliyyət alimə beynəlxalq elmi nüfuz gətirib, davamlı akademik əməkdaşlıq platformalarının qurulmasına dəstək qazandırıb.

Gənc yaşlarından ali təhsil sistemində pedaqoji və elmi fəaliyyətlə məşğul olan Rəşad Muradov ömrünün yetkinlik yaşında biznesin idarə edilməsi kafedrasının professoru kimi fəaliyyətini uğurla davam etdirir. Onun elmi maraq dairəsi iqtisadi nəzəriyyənin müasir problemlərinin sistemli təhlilini, milli iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişaf strategiyalarının işlənib hazırlanmasını, bazar iqtisadiyyatına keçid proseslərinin institusional və struktur aspektlərinin araşdırılmasını, idarəetmə və təşkilati strukturların səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsini, eləcə də qloballaşma şəraitində iqtisadi inteqrasiya proseslərinin milli iqtisadiyyatlara təsirinin kompleks şəkildə öyrənilməsini əhatə edir.

90-a yaxın elmi əsərin müəllifi kimi professor Rəşad Muradovun elmi irsinə monoqrafiyalar, dərs vəsaitləri, metodik materiallar və çoxsaylı elmi məqalələr daxildir. Bu əsərlər iqtisadi nəzəriyyənin aktual problemlərinin təhlilinə, Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətlərinə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə həsr olunub. Alimin əsərlərindən elmi mühitlə yanaşı, tədris prosesində də geniş istifadə olunur və gənc tədqiqatçılar üçün faydalı metodoloji baza rolunu oynayır.

Dərin zəka və nüfuz sahibi olan iqtisadçı alimimiz Rəşad Muradovun təhsil və elm sahəsində xidmətləri çalışdığı ali məktəbdə yüksək qiymətləndirilib. Nəzəriyyəçi alimin iqtisad elminə verdiyi töhfələr akademik dairələrdə həmişə təqdir edilib. O, Azərbaycan Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

Ömrünün yeddinci onilliyinə qədəm qoyan Rəşad Muradov Azərbaycan iqtisad elmini inkişaf etdirən, fəaliyyət istiqamətində məktəb formalaşdıran alim kimi tanınır və sevilir. Yubilyar həmkarımızı səmimi təbrik edir, ona ömrünün müdriklik çağında daha böyük uğurlar arzulayırıq.

***Məhəmməd ƏLİYEV,***
***İqtisad Universitetinin professoru,***
***Əməkdar müəllim,***
***Zahid MƏMMƏDOV,***
***iqtisad elmləri doktoru, professor,***
***Əməkdar müəllim***

# Türk dünyasının ali təhsilində ortaqlıq proqramı



**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində Türkiyənin Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin irəli sürdüyü Türk dünyası ali təhsilində ortaqlıq sertifikat proqramı - ORTAK layihəsi ilə bağlı görüş keçirilib.**

Müzakirə zamanı ADPU-nun rektoru, professor Cəfər Cəfərov, Türkiyənin Xaricdəki Türklər və Qohum İcmalar Baş İdarəsinin Mədəni və sosial əlaqələr departamentinin əlaqələndiricisi Sərvət Turan və qurumun mütəxəssisi Fazilə Zeynalzadə türk dünyasının ali məktəblərinin fəaliyyətində ortaq proqramların gerçəkləşdirilməsinin önəmini və bu layihənin zamanın tələbi ilə ərsəyə gəldiyini qeyd ediblər.

Bildirilib ki, ümumi hədəf seçilən ORTAK proqramının məqsədi Türk dünyasının ali təhsil müəssisələri və idarəçiləri arasında qarşılıqlı əlaqə və əməkdaşlığı gücləndirmək, ali təhsilin idarə olunması sahəsində liderlik, bilik, bacarıq və təcrübə potensialının inkişafına töhfə vermək, həmçinin ali təhsilin idarə edilməsi istiqamətində həm tətbiqi, həm də nəzəri tədqiqatları dəstəkləməkdir.

***T.RÜSTƏMLİ***
***XQ***

# "Sumqayıt-Çörək"ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı

**manatla**

| **AKTİVLƏR** | **12 dekabr 2024-cü il** | **12 dekabr 2025-ci il** |
|---|---|---|
| Əsas vəsaitlərin dəyəri | 2278405.7 | 2387361.83 |
| Köhnəlmə | 1313885 | 1350252.14 |
| Qalıq dəyəri | 964520.7 | 1037109.69 |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **964520.7** | **1037109.69** |
| İstehsal ehtiyatları | 157530.47 | 122070.4 |
| Azqiymətli inventarlar | 118289.58 | 75438.12 |
| Köhnəlmə | 60778.16 | 37719.06 |
| Qalıq dəyəri | 57511.42 | 37719.06 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **215041.89** | **159789.46** |
| Yüklənmiş mallar | 208769.99 | 243161.2 |
| Büdcə | 11394 | |
| Verilmiş avanslar | 19080 | 45954.71 |
| Hesablaşma hesabı | 22358.08 | 135479.3 |
| Valyuta hesabı | 20 | 20 |
| **III BÖLMƏ ÜZRƏ CƏMİ** | **261622.07** | **424615.21** |
| Zərərlər – ötən illərdə | 0 | 0 |
| Hesabat ilində | 0 | 0 |
| **Cəmi aktivlərin dəyəri** | **1441184.66** | **1621514.36** |
| **PASSİV** | | |
| Nizamnamə kapitalı | 762583 | 762583 |
| Əlavə kapital | 89618 | 89618 |
| Yığım fondu | 48234.36 | 116509.27 |
| Büdcə | 29758.24 | 83693.17 |
| İstehlak fondu | 31587.82 | 132185.97 |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **961781.42** | **1184589.41** |
| Qısamüddətli bank kreditləri | 175000 | 75000 |
| Əməkhaqqı ödənişləri üzrə | 82881.34 | 93524.02 |
| Sosial sığorta üzrə | 23874.7 | 23843 |
| Sair kreditorlar | 15979.86 | 12546 |
| Təsisçilərlə hesablaşmalar | 181667.34 | 232011.93 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **479403.24** | **436924.95** |
| **Cəmi passivlərin dəyəri** | **1441184.66** | **1621514.36** |

*"Koroğlu" operası – 90*

# İki dühanın sənət zirvəsi

**XX əsr Azərbaycan musiqi mədəniyyətinin formalaşmasında aparıcı rol oynamış iki görkəmli sənətkar – bəstəkar, musiqişünas və pedaqoq Üzeyir Hacıbəyli ilə milli vokal ifaçılığının banilərindən biri Bülbülün sənət tandemi "Koroğlu" operası kimi misilsiz bir əsərdə bütün çalarları ilə üzə çıxdı. 90 il əvvəl yazılmış və 1 il sonra tamaşaya qoyulmuş şahanə əsər bu gün də sənət zirvəsində dayanır.**

Professional musiqimizin banisi Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin elmi əsaslarını formalaşdırmaqla yanaşı, Avropa musiqi ənənələrini yerli melodik strukturlarla sintez edərək milli opera janrının əsasını qoyub. "Leyli və Məcnun" operası ilə bu istiqamətdə ilk addımı atan dahi sənətkar sonralar musiqi folklorunun sistemləşdirilməsi, notlaşdırılması və tədris sisteminə inteqrasiyası sahəsində elmi və praktik fəaliyyətlə məşğul olub.

Bülbül isə klassik Avropa vokal texnikasını, yəni "belcanto" üslubunu Azərbaycan muğamı və xalq musiqisinin intonasiyaları ilə sintez edərək milli vokal məktəbinin əsasını qoyub. Onun vokal sənətindəki fəaliyyətində texniki kamilliklə emosional dərinlik vəhdət təşkil edir.

Şübhəsiz ki, bu iki sənətkarın elmi-praktiki fəaliyyətlərinin kulminasiya nöqtəsi "Koroğlu" operası idi. Bülbülün Koroğlu partiyasını ifa etmə üslubu təkcə səhnə uğuru deyil, həm də milli vokal məktəbinin öyrədilməsi baxımından canlı vəsaitdir. Onun ifasına əsaslanaraq bir sıra pedaqoji prinsiplər formalaşdırmaq mümkündür:

Nəfəs texnikası – geniş frazalarda uzun legatolara imkan verən dərin diafraqmatik nəfəs, qəhrəmanlıq emosiyasını "boğmadan" ötürür. Tələbələrə əvvəlcə mətnsiz vokalizlərlə (a, o, u) uzun frazalar üzərində nəfəsi bölmədən oxuma təlimi tövsiyə olunur. Diksiya və artikulyasiya – Konsonantların aydınlığı qəhrəman obrazının bariton-dramatik rəngini gücləndirir. Bülbül səsləri "çənə sıxmadan" formalaşdırır, "belcanto" plastikasını ləhcə çalarları ilə uzlaşdırır.

Müqayisəli aspektdə isə digər ifaçılar – Niyazi Məmmədov (1940-50-ci illər), Müslüm Maqomayev (1960-cı illər) partiyanı müvafiq olaraq lirik-spint, dramatik-lirik və qəhrəman yanaşmaları ilə səsləndiriblər. Maqomayevin versiyasında "legato" italyan üslubludur. Bu müqayisə göstərir ki, Bülbülün qoyduğu təməl prinsiplər – səsin qəhrəmanlıq parıltısı ilə muğam elastikliyini birləşdirmək – müxtəlif dövrlərdə fərqli formada yenidən şərh olunsa da, mətnin aparıcı estetik ölçüsünü təşkil edir.



Üzeyir Hacıbəyli bu operada muğam (xüsusilə "Segah", "Şur", "Bayatı-Şiraz") və aşıq musiqisi elementlərini simfonik kontekstə daxil edərək, həm musiqi dili, həm də obrazlar sistemində milli kimliyin daşıyıcısı olan sənət nümunəsi yaradıb. Koroğlu obrazı həm saz ifaçısı, həm döyüşçü, həm də xalqın səsi olaraq təqdim edilir. Operanın kulminasiyası sayılan "Ey Vətən" ariyası Bülbülün ifasında milli musiqi tariximizin zirvələrindən biri kimi qəbul olunur. Bu ariyada qəhrəmanın vətən sevgisi deyil, bütövlükdə bir xalqın azadlıq idealları və mənəvi dirənişi əks olunur.

Bülbül bu musiqi parçalarını sadəcə səsləndirməyib, onlara həyat verib. Koroğlunun daxili aləmi ilə sənətkarın mənəvi dünyası birləşərək, estetik bütövlük yaradıb. Bu obrazın Bülbül tərəfindən ifası dövrü mətbuatda da yüksək dəyərləndirilib, "Bülbül Koroğlunu oxumadı – onu yaşadı" kimi təqdim edilib. Bu ifa həm ölkə daxilində, həm də beynəlxalq miqyasda maraqla qarşılanıb.

Qeyd etmək lazımdır ki, "Koroğlu" operası yarandığı dövrdə təkcə musiqi deyil, həm də siyasi və ideoloji baxımdan böyük əhəmiyyət daşıyırdı. Sovet dövründə türk xalqları arasında ilk qəhrəmanlıq operası kimi qəbul edilən bu əsər milli özünüdərk və mədəni müqavimətin timsalına çevrilmişdi.

Nəticə etibarilə, Üzeyir Hacıbəyli ilə Bülbülün sənət əlaqələri təkcə yaradıcı əməkdaşlıq çərçivəsində deyil, həm də milli musiqi kimliyinin formalaşması və inkişafı baxımından fundamental əhəmiyyət kəsb edir. Onların birgə fəaliyyəti Azərbaycan vokal ifaçılığında həm texniki, həm də ideya-estetik baxımdan yeni mərhələnin əsasını qoyub.

***Altun SÜLEYMANOV,***
***respublika və beynəlxalq müsabiqələr mükafatçısı, akademik vokal ifaçısı***


AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ**

*kafedralar üzrə aşağıdakı vəzifələri tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

**Professor-müəllim vəzifələrini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Kimya mühəndisliyi kafedrası | Dosent | 1 (0,5) |
| Qida və biotexnologiya kafedrası | Dosent | 3 (1,0) |
| İqtisadiyyat kafedrası | Dosent | 1 (1,0) |
| Sənaye mühəndisliyi | Dosent | 1 (0,5) |
| Kibertəhlükəsizlik və kompüter mühəndisliyi kafedrası | Baş müəllim | 1 (0,5) |

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq seçkinin elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin siyahısı:**

**1.** Kadrlar uçotunun şəxsi vərəqəsi.

**2.** Tərcümeyi-hal.

**3.** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.

**4.** Elmi və elmi-metodiki işlərin siyahısı.

**5.** Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan:** AZ-0101, Abşeron, Xırdalan şəhəri, H.Əliyev küçəsi 120.

**Əlavə məlumat üçün:**

**Telefon:** +994 (012) 349-99-66/67+Daxili nömrə: (1113, 1115, 1117, 1155, 1504).

**Fax:** (+[illegible]

**e-mail:** info@beu.edu.az web sayt: www/beu.edu.az

***REKTORLUQ***

# Hörmüz – dünya iqtisadiyyatının boğazı bağlı qalarsa...

**İki aydır ki, dünya siyasətçilərinin, politoloqların, iqtisadçıların və ekspertlərin dilindən düşməyən və az qala bütün beynəlxalq medianın gündəmini zəbt edən bir ifadə var – Hörmüz boğazı. Bu gün dünya bazarının boğazında "ilan tıxı"na çevrilib, onlarla ölkənin iqtisadiyyatını fəlakətə sürükləyən Hörmüz boğazı yüksək texnologiyalar əsrini yaşayan bəşəriyyət üçün nədən bu qədər mühümdür? 100 il əvvəl neft və neft məhsullarının daşınmasında etibarlı tranzitə çevrilən Hörmüz boğazı necə və niyə dünyanın ən vacib su yollarından biri olub? Nədən bu boğazda hər hansı səbəbdən "tıxac" yarananda dünya bir-birinə dəyir?**




Dünya mətbuatı bu sualların qısa cavabını belə verir: "Enerji qiymətləri və Avropa və Asiyanın onlarla ölkəsinin iqtisadiyyatı Hörmüz boğazının daimi və normal işləməsindən çox asılıdır". Təkcə enerji qiymətlərimi, yalnız Asiya və Avropa ölkələrindəmi? Bu cavab heç də boğazın qlobal bazar üçün nə qədər vacib olduğunu tam izah etmir. Bu səbəbdən məsələnin tarixi, geosiyasi və iqtisadi aspektlərini bir qədər ətraflı araşdırmaq qərarına gəldik.

**Hörmüz boğazı: tarix nə deyir?**

Fars körfəzi ilə Oman körfəzi (Hind okeanının bir hissəsi) arasında yerləşən dar Hörmüz boğazı Ərəbistan dənizi vasitəsilə Fars körfəzindən Hind okeanına gedən yeganə dəniz yoludur. Boğaz Şimal sahili ilə İranı Omandan ayırır və Birləşmiş Ərəb Əmirliklərinin ərazi suları ilə həmsərhəddir.

Bir əsrə yaxındır ki, Hörmüz boğazı Bəhreyn, İraq, İran, Qətər, Küveyt, Səudiyyə Ərəbistanı və BƏƏ-dən Asiya bazarlarına neft və mayeləşdirilmiş təbii qazın əsas tranzit yoludur. Neft trafikinin 25 faizinin və mayeləşdirilmiş təbii qazın (LNG) 20 faizi bu boğazın payına düşür. ABŞ Enerji İnformasiya Administrasiyasının (EIA) məlumatına görə, 2025-ci ildə hər gün Hörmüz boğazından təxminən 20 milyon barel neft daşınıb. ABŞ və İzrailin defakto İrana qarşı apardığı müharibədən əvvəl hər ay Hörmüz boğazından təxminən 3 min gəmi keçirdi. Amma bu hələ sonra baş verəcəkdi...

* * *

**Coğrafi aspektləri:** Dərinliyi 70-200 metr olan boğazın uzunluğu təxminən 195 kilometr, eni isə 97 kilometrdən 33 kilometrə qədər dəyişir. Buna baxmayaraq, gəmiçiliyin hərəkəti üçün olan zolaqlar xeyli dardır və hər biri təxminən 3 kilometr enində olan iki dəhlizdən ibarətdir. Onlar 5 kilometrlik bufer zonası ilə ayrılır. Gəmilər Fars körfəzinə bir marşrutla daxil olur və digər marşrutla oradan çıxırlar. Pik dövrlərdə qonşu gəmilər arasındakı interval altı dəqiqəyə qədər ola bilirdi.

Boğazın hər iki tərəfində on iki dəniz mili və ya təxminən 22 kilometr hazırda İran və Omanın ərazi sularına aiddir. Bu, onlara BMT-nin 1982-ci ildə qəbul etdiyi Dəniz Hüququ Konvensiyası çərçivəsində verilən hüquqdur. Boğazın ən dar nöqtəsində bu zonalar kəsişir və su sahəsi 1974-cü il sərhəd müqaviləsində nəzərdə tutulduğu kimi, iki ölkə arasında orta xətt boyunca bölünür. Boğazdan keçərkən xarici gəmilər bu dövlətlərin ərazi sularından keçirlər.

Bundan əlavə, İran Qeşm, Hörmüz, Larak, Həndqam, həmçinin BƏƏ-nin iddia etdiyi mübahisəli Əbu Musa, Böyük və Kiçik Tunb adalarına sahibdir. Artıq xeyli müddətdir ki, bir neçə adada İranın hərbi bazaları və gəmi əleyhinə raketləri yerləşir ki, bu da Tehrana boğaza, fiziki olaraq, nəzarət etmək imkanı verir.

**Maraqlıdır, bəs boğaz kimə məxsusdur?**

Hörmüz boğazı formal olaraq heç kimə məxsus deyil. BMT-nin Dəniz Hüququ Konvensiyası Hörmüz boğazını beynəlxalq marşrut kimi müəyyən edib: hərbi gəmilər də daxil olmaqla, bütün gəmilərin boğazdan tranzit keçid hüququ var və sahil ölkələrinin onları bağlamaq və ya birtərəfli şəkildə gəmiləri dayandırmaq hüququ yoxdur. Reallıqda isə məsələ daha mürəkkəbdir.

1930-cu illərdə Fars körfəzində nəhəng neft yataqları aşkar edildi. O vaxtdan başlayaraq Hörmüz boğazı qlobal əhəmiyyət daşımağa başladı. Bu onillikdə iki hadisə baş verdi: Fars dövləti rəsmi olaraq İran dövləti oldu və bölgədəki Britaniya hökmranlığına son qoymaq üçün donanma yaratmağa başladı.

1951-ci ildə "neft əsrinin" ilk böyük münaqişəsi baş verdi. İranın Baş naziri Məhəmməd Müsəddiq İran neftini milliləşdirdi. Buna cavab olaraq, Böyük Britaniya öz donanmasını göndərdi və İran iqtisadiyyatını boğmaq üçün Hörmüz boğazını, faktiki olaraq, blokadaya aldı.

**Karter doktrinası:** XX əsrin ortalarından bəri Hörmüz boğazı vaxtaşırı təkrarlanan münaqişələr nöqtəsinə çevrildi. 1980-ci ildə İranda hakimiyyət dəyişikliyinə səbəb olan İslam inqilabından sonra isə ABŞ prezidenti Cimmi Karter xüsusi doktrina elan etdi. Tarixə "Karter doktrinası" adı ilə düşən bu sənədlə bəyan olundu ki, hər hansı xarici gücün Fars körfəzi üzərində nəzarət yaratmaq cəhdi ABŞ-ın milli maraqlarına birbaşa təhdid kimi qəbul ediləcək. Bununla da boğaz "Soyuq müharibə" dövründə qlobal qarşıdurmanın əsas nöqtəsinə çevrildi.

1980-ci ildə İran-İraq müharibəsi başladı və 1988-ci ilə qədər davam etdi. Bu, Hörmüz boğazı uğrunda mübarizənin ilk qaynar mərhələsi idi. 1984-cü ildən 1988-ci ilə qədər olan dövr isə tarixə "Tanker müharibəsi" kimi düşdü. İran və İraq bir-birinin tankerlərinə və boğazdan keçən digər gəmilərə hücum etdilər. Münaqişə həmçinin sahil neft daşınması infrastrukturunu da əhatə edirdi. Hər iki tərəfə məxsus 239 neft tankeri zədələnsə də, boğazdan keçən gəmiçilik davam edirdi.

Müharibə dövründə – 1982-ci ildə BMT Hörmüz boğazının statusunu müəyyən edən Dəniz Hüququ haqqında Konvensiya qəbul etdi və bununla da boğaz açıq dənizlərin bir hissəsi (Hind okeanı) ilə digər hissəsi (Fars körfəzi) arasında naviqasiya üçün istifadə edilən beynəlxalq boğaz kimi tanındı. Bu isə o demək idi ki, bütün dövlətlər Hörmüz boğazından tranzit keçid hüququndan istifadə edir və sahilyanı ölkələrin (İran və Oman) bu keçidə maneə törətmək, onu məhdudlaşdırmaq və ya dayandırmaq hüququ yoxdur.

Lakin İran BMT-nin Dəniz Hüququ Konvensiyasını imzalasa da, sənəddə göstərilən xarici hərbi gəmilərin boğazdan keçməsinə icazə verən müddəalarla razılaşmadığını bildirərək, konvensiyanı ratifikasiya etməyib. Elə ABŞ özü də bu konvensiyanı ratifikasiya etməyib. Formal olaraq, bu o deməkdir ki, ABŞ və İran üçün konvensiyanın müddəaları məcburi müqavilə normaları deyil və ölkə daxilində heç bir qüvvəsi yoxdur. Bu da, indiki məqamda, İrana boğazın hüquqi rejimini öz xeyrinə təfsiri üçün rəsmi bəhanə verir.

Digər tərəfdən, Tehran 1993-cü ildə Hörmüz boğazı ilə bağlı qəbul etdiyi daxili qanunu çərçivəsində fəaliyyət göstərir. Ölkənin bu normativ aktında İranın ərazi sularında yalnız xarici gəmilərin "dinc keçidinə" icazə nəzərdə tutulur. Fövqəladə və ya hərbi təhlükə yarandıqda, Tehran boğazı bağlamaq və xarici hərbi gəmilərin keçidi üçün təsdiq tələb etmək hüququnu özündə saxlayır.

1988-ci ildə Amerika freqatı İran minasına dəyəndə boğazın sularında İranla ABŞ arasında qarşıdurma başladı. Buna cavab olaraq, ABŞ Hərbi Dəniz Qüvvələri "Praying Mantis" əməliyyatına başladılar və İranın 2 neft platformasına hücum etdilər. Eləcə də İranın 2 freqatını və bir neçə kiçik gəmisini məhv etdilər. Elə həmin il ABŞ-ın "Vincennes" hərbi kreyseri Hörmüz boğazı üzərindən uçan Airbus A300 sərnişin təyyarəsini qırıcı təyyarə ilə səhv salaraq vurdu. Qəza nəticəsində 298 sərnişin və heyət üzvü həlak oldu.

2000-ci illərin ikinci yarısında boğazda gərginlik yenidən artdı. Bu isə bilavasitə İranın uran zənginləşdirməsi şübhəsi ilə ona qarşı beynəlxalq sanksiyaların tətbiqi ilə bağlı idi. 2008-ci ilin yanvar ayında beş İran patrul gəmisi ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmilərinə 200 metr yaxınlaşdı və ABŞ bunu təxribat kimi qiymətləndirdi.

4 il sonra İran boğazda böyük hərbi təlimlər keçirdi və ABŞ-la AB-nin sanksiyalarına cavab olaraq, gəmiləri saxlayacağı ilə hədələdi. ABŞ administrasiyası buna boğazın bağlanmasını keçilə bilməyən "qırmızı xətt" elan etməklə cavab verdi. Buna baxmayaraq, İran sonradan dəfələrlə xarici gəmilərin su yolundan keçməsinə mane oldu və boğazda onlarla oxşar hadisə qeydə alındı. 2018-ci ilin may ayında Vaşinqton nüvə sazişindən çıxdıqdan və Tehrana qarşı sanksiyaları yenidən tətbiq etdikdən sonra vəziyyət daha da pisləşdi.

İran hökuməti dəfələrlə - həmçinin 2011, 2018 və 2025-ci illərdə boğazı bağlaya biləcəyini bəyan edib. Sonuncu hadisə isə İsrailin İrana qarşı "Kükrəyən Aslan" əməliyyatının başlaması ilə əlaqələndirilirdi. Lakin Tehran heç vaxt təhdidlərini gerçək olaraq axıra qədər yerinə yetirmirdi. Vəziyyət 28 fevral 2026-cı ildə İsrail-ABŞ hərbi qüvvələrinin İrana qarşı birgə əməliyyata başlaması ilə dəyişdi. Martın 4-də İslam İnqilabı Keşikçiləri Korpusu Hörmüz boğazına tam nəzarəti ələ keçirdiyini elan etdi.

Regionda baş vermiş bu hadisə elə ilk gündən dünya iqtisadiyyatında, xüsusilə enerji bazarında fırtınaya səbəb oldu. İndi dünya iqtisadiyyatını sarsıdan təkcə enerji bazarındakı qiymətlərin sürətli artımı deyil. Eyni zamanda, bu hadisələrin uzanacağı təqdirdə, bunun Avropa və Asiya ölkələrinin enerji resurslarından asılı olan sənayelərinin çöküşü və dünya iqtisadiyyatını resessiyaya sürükləyəcəyi ilə bağlı qorxulu proqnozların özlərini doğrultmaqda olmasıdır.




**Faktlara diqqət edək: Bu gün Hörmüz boğazından hansı ölkələr daha çox neft alır?**

Əlbəttə, Asiya dominant alıcıdır. Bu regiondakı ölkələr Hörmüz boğazından keçən bütün xam neft və kondensatın 89,2 faizini alır. Bu, regionun iqtisadiyyatını boğazdakı hər hansı bir pozuntuya qarşı son dərəcə həssas edir. Amma məsələ heç də Asiya ölkələri ilə bitmir. Dünya bazarında neftin qiyməti sürətlə artır.

2025-ci ilin birinci rübü etibarilə Hörmüz boğazı qlobal neft ticarətinin 26,6 faizini təşkil edirdi. Buna görə də boğaz vasitəsilə tədarük zəncirinin qırılması və ya hər hansı azalma neft qiymətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Rəqəmlərə diqqət edək:

• *Yanvar-fevral ayları arasında Brent markalı xam neftin qiyməti 1 barel üçün 61 dollardan 72 dollara, Urals markalı xam neft isə 41 dollardan 50 dollara yüksəldi.*

• *Açıq münaqişə 28 fevralda başladı. 12 marta qədər artıq Brent markasının 1 bareli 100 dollarlıq psixoloji baryeri aşmışdı. Urals markalı xam neft həmin vaxt 96 dollar idi.*

• *Neftin qiymətləri artmağa davam etdi və mart ayının sonunda qiymət 126 dollara çatdı - bu, tarixdə ən böyük aylıq artımdır.*

• *Rusiyanın Urals markalı xam nefti də 13 il ərzində ən yüksək səviyyəyə çatdı və 1 barel üçün 116 dolları keçdi. 8 apreldə ABŞ və İran arasında iki həftəlik atəşkəs razılaşması və Hörmüz boğazının açılması xəbərindən sonra Brent markalı xam neftin qiyməti 14 faizə düşərək 1 barel üçün 94 dollara düşdü.*

Buradan aydın görünür ki, Hörmüz boğazı bütün bu dövrdə neftin qiymətlərinin tənzimlənməsində nə qədər böyük əhəmiyyətə malikdir. Sual oluna bilər ki, təkcə neftinmi? Əlbəttə, yox.

Qlobal neft və neft məhsulları trafikinin dörddəbirini təşkil etməklə yanaşı, Hörmüz boğazı qlobal mayeləşdirilmiş təbii qaz (LNG) ticarətinin də beşdəbirini təşkil edir.

Təbii ki, zərərçəkən təkcə neft və qaz alan dövlətlər deyil. Tədarükçü ölkələr, bilavasitə Fars körfəzinin neft və qaz ixracatçıları da bu fəlakətin fəsadlarını ciddi şəkildə hiss edirlər. Çünki Hörmüz boğazından ixrac edilən neft və qaz məhsullarının ümumi həcminin 93,6 faizi fars körfəzi ölkələrinin payına düşür.

**Faktlara nəzər salaq:**

• *Səudiyyə Ərəbistanı boğaz vasitəsilə ən böyük ixracatçıdır (37,2%). Qırmızı dənizə alternativ boru kəmərlərinin mövcudluğuna baxmayaraq, bu ölkənin ixracının əksəriyyəti Hörmüz boğazından keçir.*

• *İraq 22,8 faiz payla ikinci yerdədir. İraq üçün boğaz, demək olar ki, yeganə ixrac yoludur.*

• *BƏƏ – 12,9 faiz, İran – 10,6 faiz və Küveyt– 10,1 faizlə ilk beşliyi tamamlayır. Küveyt və İran üçün boğaz həm də neftlərini qlobal bazara çatdırmaq üçün vacib bir arteriyadır.*

Sadəlövh insanlar düşünürlər ki, niyə bu daşımalar Hörmüz boğazından yan keçməklə həyata keçirilmir? Doğrudur, indi neft tədarükünü qorumaq üçün Fars körfəzi ölkələri alternativ daşıma üsullarını fəal şəkildə tətbiq etməyə başlayıblar. Lakin bunların hər biri tanker daşımalarından xeyli az səmərəlidir.

Bütün bunlardan sonra və regionda davam edən gərginlik, müharibənin yenidən alovlanacağı fonunda, dünyanın hansı sarsıntılarla qarşılaşa biləcəyi də az maraq doğurmur.

Bu həftə, ABŞ və İran arasındakı gərginliyin zəifləməsi fonunda, fond bazarlarında artma qeydə alındı və neftin qiymətləri düşdükcə, dünyanı sarsıdan enerji şokunun tez bir zamanda səngiyəcəyi və qlobal iqtisadiyyatın tənəzzülə yuvarlanma ehtimalı azalmağa başladı.

Lakin bu nikbinlik uzun sürmədi. Ötən şənbə günü İran ordusu Hörmüz boğazında məhdudiyyətlərin yenidən tətbiq olunduğunu elan etdi və bu vacib su yolunun statusunu şübhə altına aldı.

Bu qeyri-müəyyən vəziyyət, görünən sakitliyin arxasında tamamilə fərqli bir reallığın olduğunu göstərir: pozulmuş təchizat zəncirləri və zədələnmiş infrastruktur - bunların hamısı enerji istehsal, nəql və istehlak edənlər arasında artan narahatlığa səbəb olur. Narahatlıq isə səbəbsiz deyil.

Hörmüz boğazının blokadasından danışarkən, biz bilavasitə neft və onun qiymətini qeyd edirik. Amma təkcə bununla məsələ bitmir. Boğazın bağlanması üzündən dünyada ehtiyatları tükənən daha mühüm bir məhsul var - helium. Bu, dünya mediasının nadir hallarda bəhs etdiyi bir qazdır. Adi insan üçün bu, uşaqların ad günü şarlarının doldurulması vasitəsi kimi yada düşür. Lakin məsələ daha ciddidir. Bu qaz olmadan çip istehsalı yavaşıyır, laboratoriyalar işləmir. Müasir tibbi avadanlıqların və qabaqcıl texnologiyaların çox hissəsini helium enerji ilə təmin edir. Narahatlıq doğuran odur ki, helium yalnız bir neçə ölkədə istehsal olunur və 28 fevraldan bəri diqqətlə izlədiyimiz marşrutla daşınır.

Bu ölkələrdən biri Qətərdir. Hörmüz boğazı Qətər heliumunun Fars körfəzindən çıxıb böyük dünyaya gedən yolun qapısıdır. O, alıcılara Qırmızı dəniz və Süveyş kanalından keçən uzun bir marşrutla çatdırılır. Buna görə də heliumun Hörmüz boğazında bir neçə gün ləngiməsinin yaratdığı stres, neft də daxil olmaqla, bir çox digər məhsulların gecikməsindən yaranan stresdən iki dəfə artıqdır.

Hörmüzün əhəmiyyəti bununla da tamamlanmır. Beynəlxalq Valyuta Fondunun baş iqtisadçısı və birinci müavini işləmiş, ötən il bu vəzifəsindən ayrılaraq Harvard Universitetinə professor kimi qayıtmış, ABŞ-ın nüfuzlu "Foreign Policy" jurnalının "aparıcı qlobal mütəfəkkirlərdən" biri adlandırdığı Gita Qopinat "Neue Zürcher Zeitung" nəşrinə verdiyi müsahibədə deyir: "İran münaqişəsi staqflyasiya şoku yaradıb: istehsal artımı yavaşıyır və inflyasiya artır. Yalnız neft və qazın deyil, həm də gübrələrin və digər aralıq malların çatışmazlığı üzə çıxıb. Böhranın bir çox nəticələri hələ də ciddi nəzərə alınmır. Məsələn, gübrənin qiymətinin artması təxminən altı ay ərzində ərzaq qiymətlərinə təsir edəcək.

...Etiraf edim ki, dünya miqyasında həyat səviyyəsi növbəti 10 ildə aşağı düşə bilər. Bunun səbəblərini qaydalara əsaslanan qlobal nizamın yaşadığı sarsıntılarda, eləcə də azalan iqtisadi artım templərində görürəm".

Əlbəttə, Hörmüz boğazının dünya üçün əhəmiyyəti neft, qaz, gübrə və heliumla məhdudlaşmır. Lakin bu kateqoriyadan olan vacib məhsulların Hörmüz boğazından azad keçidə bu gün ciddi ehtiyacı var. Bu azad keçid ən qısa zamanda təmin edilməsə, Tramp və Netanyahunun dünyanı sürüklədiyi böhran təkcə enerji şoku ilə məhdudlaşmayacaq, həm də ən optimist siyasətçilərin, politoloq və ekspertlərin belə hazırda dərk etdiyindən daha çox şeyi əhatə edəcək. Ümumilikdə, bu böhran bəşəriyyətin həyat tərzini tamamilə dəyişə və hətta düşünmədiyimiz proseslərə belə təsir göstərə bilər.

*İlqar RÜSTƏMOV,*
*XQ-nin analitiki*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 71 (31040) 25 aprel 2026-cı il, şənbə

İDMAN

## AFFA – Yohan Kroyff İnstitutu əməkdaşlığı

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə Yohan Kroyff İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.**



AFFA-dan verilən məlumata görə, əməkdaşlıq çərçivəsində Azərbaycanda bu institutun proqramlarında təhsil almaq istəyən şəxslər milli assosiasiya vasitəsilə daha əlçatan və güzəştli şərtlərlə iştirak edə biləcəklər. Bu imkan digər idman federasiyaları üçün də açıqdır. Təşəbbüs yerli mütəxəssislərin beynəlxalq səviyyəli təhsil imkanlarından yararlanmasını təşviq edəcək, tərəflər arasında bilik və təcrübə mübadiləsini gücləndirəcək.

Bu əməkdaşlıq AFFA-nın futbol təhsili sahəsində beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi və insan resurslarının inkişafına yönəlmiş strategiyasının bir hissəsidir. AFFA bununla ölkədə bu institutla əməkdaşlıq quran ilk idman federasiyası olub.

Məqsəd qarşılıqlı əməkdaşlıq çərçivəsində idman və futbol sahəsində istedadların inkişafına, bilik və bacarıqların artırılmasına töhfə verməkdir.

## Qarabağ və Şərqi Zəngəzur bölgəsində cüdo birinciliyi



**Aprelin 30-da U-14 və U-17 yeniyetmə cüdoçular arasında Qarabağ və Şərqi Zəngəzur bölgəsi üzrə region birincilikləri keçiriləcək.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, turnir Cəbrayıl rayonunun Horovlu kəndində təşkil ediləcək. Qeyd olunub ki, yarışların əsas məqsədi yeniyetmə cüdoçular bazasını formalaşdırmaq, kvota əsasında ölkə birinciliyinə vəsiqə qazanacaq idmançıları müəyyənləşdirməkdir. U-17 kateqoriyası üzrə nəticələr, eyni zamanda, milli komandanın heyətinə seçim üçün vacib reytinq xalları qazandıracaq.

## Avropa çempionatında daha 2 bürünc

**Azərbaycanın qadın güləşçiləri Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatını 2 medalla başa vurublar. Təmsilçilərimiz Jalə Əliyeva (57 kq) və Günay Qurbanova (59 kq) bürünc mükafata sahib çıxıblar.**




Digər idmançımız Birgül Soltanova (65 kq) bürünc medal uğrunda qarşılaşmada türkiyəli Beyza Akkuşa 2:4 hesabı ilə uduzaraq 5-ci olub. B.Soltanovadan əvvəl komanda yoldaşı Ruzanna Məmmədova (62 kq) da eyni göstəricini təkrarlayıb.

Xatırladaq ki, daha əvvəl yunan-Roma güləşçilərindən Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) qızıl, Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasov (87 kq) isə bürünc medal qazanıblar. Yunan-Roma güləşi üzrə milli komanda hesabında birinci olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təbiət və biz*

# Sevən ürəklər və tapdanan çiçəklər...

## *Dənizkənarı Milli Parkda düşüncələr*

**Ötən il yayın ılıq, sakit və zərif gecələrinin birində xaricdən gələn qonaqlarımla paytaxtımızın dənizkənarı parkına gəzintiyə çıxmışdıq. Bədirlənmiş Ay Xəzərin üstündə işıq saçırdı. Dənizdən ətrafa gümüşü şeh çilənirdi. Nəmli, isti, sakit hava, sanki səhər mehinin və köhlən dalğaların yolunu gözləyirdi. Hərdən də dənizin özünəməxsus pıçıltısı gəlirdi. Sanki Xəzər sahildəki otlara, ağaclara, gül kollarına və çiçəklərə nağıl danışırdı. Şəhərimizin qonaqları Xəzərin sehirli nağılına heyranlıqla qulaq asıb deyirdilər: "Bakı bulvarı gecələr necə də romantik olur".**

Dənizkənarı bulvardakı gözəlliyi gözümüzə-könlümüzə köçürərkən fikrimizdə ağac çiçəkləyir, gül ləçəkləyir. Bu gözəlliklər qoynunda olanda duyğularımız durulur. Sahildəki gül dənizi daşıb kükrəyir. Xəzər dənizi ilə gül dənizi eyni ahənglə ruha sığal çəkir. Hələ ağacların budağına sığınıb, cilvələnib gizlənən quşların səsini, anadillərin zənguləsini demirəm. Burada hansı quş ötsə, qulağına şirin avazı gəlir. Hara boylanırsan gözəlliyin göz dustağı, güllərin əsiri olursan. Sanki behiştin bağının sehrinə düşürsən. Hər gülün qönçəsində, hər çiçəyin incəsində min duyğunun çələngi var.



Aylar, illər ötdükcə, dənizkənarı parkın görkəmi xeyli dəyişib. Burada dünyanın ən zərif güllərinin ətri və zərif təbiəti insanı valeh edir. Bir sözlə, bura ayrı bir gözəllikdir, başqa bir aləmdir. Çiçəkli, şəfəqli gözəl məkanda irəlilədikcə könlün nurlu duyğularla dolur. Bir anlıq özünü bəxtəvər hiss edirsən. Bu gözəl dənizkənarı park nə səhər, nə də axşam adamsız olur. Dəniz mənzərəli, təmiz havalı bu yer yeddidən yetmişə insanların istirahət məkanına çevrilib. Bura adamlara yayda kölgə, sərinlik və rahatlıq bəxş edir. Təmiz hava uda-uda ağac kölgəsində, Günəş işığının şöləsində dincəlirlər. Xüsusilə bir çox yaşlı insanlar yorğunluğu canından çıxarmaq üçün dincliyini burda tapır.

Sahilboyu ucalan, yaşlı insanlara yay evi kimi doğma olan yaşıl ağaclar elə bil, yamyaşıl fəvvarələrdir. Su fəvvarələri də burada istirahət edənlərin üzünə meh, göy otların üstünə şeh çiləyir. Belə bir məkanda nə çiçəklərlə xeyli baş-başa qalmaq çətin, nə də gözəlliklərdən ayrılmaq asandır.

Çiçəklər sevənlərin sirdaşıdır. Sevdalı könüllərin, vüsal günlərinin ərmağanıdır. Hələ uşaq vaxtı dağ yamaclarına gedəndə anam deyərdi ki, çiçəkləri dərib qoxlamaq, dəstə bağlamaq üçün üzmək olar, əzmək olmaz.

Çiçəklər ürəklərdən-ürəklərə yol tapır. Tapdanan çiçəkləri görəndə qərib duyğuların soyuqluğundan qəlbim üşəndi. Sanki xəyalımda ucaltdığım şümşad boylu yaşıl bir ağacın budağı sındı. Sınan budağı, əzilən qönçəni min təbib yığılsa, sağalda bilməz. Bir anlıq könlümün havası dəyişir. Ayaqlar altında tapdanmış, torpağın üstünə döşənmiş güllərin, çiçəklərin o halında bir yetim harayı var. Vay o gündən ki, gül üstündəki şeh də göz yaşları ola. Gülün o halına biganə qalmaq olarmı? Çiçəkləri tapdalayıb keçən dəcəl uşaqların, ərköyün qızların hərəkəti könül sındırır. Dənizin ən dəcəl ləpələri də bunu etməzdi, bu dəcəllər etdilər. Bu ərköyün qızlar gülləri qoxlamaqdansa, zərifliyi tapdamaqdan, əzməkdən niyə zövq alsınlar ki?! Onların gözəlliyi görməyə gözü yoxmu? Dünyanın istisinin – soyuğunun, yaxşısının-yamanının onlara dəxli yoxmu?! Onların bu əməli cəmiyyət üçün həqarət deyilmi?!

Bu sətirləri yazarkən ürəyim kövrəlir. Gözəlliklə can ülfəti bir tərəfdə, gözəlliyə qıyanlara ürək nifrəti bir tərəfdə... Qarşımda ürək dağlayan bir mənzərə açılır. Bu mənzərədən gözüm elə qorxur ki... Kaş görməyəydim. Gözəlliyə qənim kəsilmək günahdır. İnsafınız olsun, heç belə gözəlliyə qıymaq olarmı?

...Əlli il bundan əvvəl şeirlərinin havasına uyduğum, şeirimizə "gül əkən" bir şairi Sahil bağında görmək qisməti də varmış taleyimdə. İndi o görüş unudulmaz xatirəyə dönüb. Ötən gəncliyimdə ilk dəfə kənddən şəhərə gələndə bulvarı başdan-başa gəzirdik. Bu gün o dadlı xatirələrin həsrəti ilə yaşayırıq:

> ***Gül atdın məndə qaldı***
> ***Gülüm, hey!***
> ***Qaldı-qaldı saraldı***
> ***Gülüm, hey!***
> ***İstərəm sarı gülü,***
> ***Gülüm, hey!***
> ***Neynirəm ayrı gülü,***
> ***Gülüm, hey?!..***

– deyən ünlü şairimiz Eldar Baxışın "Heyvagülü" adlı gül ətri gələn bu köçik şeiri də poeziyamıza əvəzsiz töhfədir. Şairin güldən necə zövq aldığı və bunu xüsusi şövqlə ifadə etdiyi aydın görünür. O, bir-birindən gözəl, orijinal şeirləri ilə tanınırdı, sevilirdi. Onunla səmimi salam-kəlamımız vardı. Özünü və sözünü tanıyandan, sözlə mehriban tövrünü duyandan gözümdə heyrətim böyüdü. Bu şeirini də hələ mətbuatda işıq üzü görməmiş, Sahil bağında, çay süfrəsi ətrafında söhbət edərkən, öz dilindən eşitmişdim. Nə yazıqlar ki, öz ömrü az oldu. Amma söz ömrü yaşayır. O, qısa ömründə sevərək yaşadı, sevilərək yaşadı. Ruhu şad olsun.

...Baxmadan doya bilmədiyim gözəlliklər qoynundan ayrılıram. Mən gedirəm, zərif güllərin və uzaq illərin xatirəsi də ürəyimlə qoşa, yan-yana gedir. Sehirli rənglərdən gon geyinmiş tülpanlardan və dənizin ən şirin nəğmələrindən uzaqlaşıram. Sorğular, suallar hələ də cavabsız qalır. Ey sevən ürəklər, a tapdanan çiçəklər, sizə hələ deyilməmiş çoxlu sözüm var!..

**P.S. Bu günlərdə Bakı bulvarında əkilən təbii güllərin bir hissəsi tapdanıb, sındırılıb yararsız hala salınmışdı. Gül terrorunu törədənlərin əməli insanların ciddi qınağına səbəb oldu.**

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

*Düşünək, daşınaq*

# Mən hara, bəy hara?

**Azərbaycan kinematoqrafiyasının uğurlu nümunələrindən olan "Yeddi oğul istərəm" filmində yaddaqalan səhnələrdən biri Qasımın bayramqabağı hazırlıq zamanı o vaxtın ən məşhur "Cümlə-cahan proletarları, toplaşın!" şüarını divardan asarkən yerli adamlardan birinin yazını hecalayaraq oxuyub "oğlum, proletarları nədir" sualına komsomolçunun "sənsən proletar" cavabı və soruşanın da "mən hara, proletarları hara" deyə təəccüblənməsidir.**

Həmin epizodu hər dəfə biri mənə "bəy" deyə müraciət edəndə xatırlayır, müraciət edənin heç bir pis niyyət güdmədiyini bildiyimdən "mən hara, bəy hara?" deyib onu incitmək istəmirəm. Halbuki sual yersiz deyil. Bu gün Azərbaycanda xitab forması hədən çox yanlışlıqlarla doludur. Ən yayğın formalar da kişilərə müraciətdə "bəy" və "müəllim" deyilməsidir. Özlüyündə çox dərin siqləti olan bu sözlər yersiz işlənməklə ucuzlaşdırılır, ilkin, əsl mənaları cılızlaşdırılır.

Yaşımın o məqamına gəlmişəm ki, uşaq vaxtı böyüklər deyəndə anlamadığım, hətta ağız büzdüyüm "bizim vaxtımızda" ifadəsini indi tam hüquqla işlədə bilərəm. "Bizim vaxtımızda belə deyildi" deyənlər cismən sağ olsalar da, artıq dəbi dəyişdirmək, ona yön vermək iqtidarında olmadıqlarını elə günnətdə deyirlər ki, sanki "onların vaxtında" hər şey güllük-gülüstanlıq olub və onlar da bu gülüstanın bağbanı olublar. Yox. Sadəcə indi gördüklərinə etirazın ifadəsindən başqa bir şey deyil bu deyingənlik.

İçində həqiqət payı olan deyingənlik. Belə ki, bizim vaxtımızda bütün kişilər "bəy" deyildi. Daha dəqiq desək, bizim vaxtımızda "bəy" yalnız evlənən gənc idi, vəssalam. Çünki bəylərin kökünü sovet hökuməti, bolşeviklər 1917-ci ildən başlayıb 1937-ci ilə qədər amansızcasına qazımışdılar. Bəy dediyin də birdən-birə yaranmır, göbələk kimi yerdən çıxmır. Bunu deməklə əsil-kökündə bəylik olanları yaralamaq, incitmək niyyətim yoxdur. Həqiqət belədir ki, dövran əsl bəyləri də həyatda yer tuta bilmək üçün öz köklərindən imtina etməyə zorlamışdı. 90-cı illərin əvvəlində, SSRİ dövləti tarixin arxivinə getdikdən sonra dünənki kommunistlərin bu gün birdən-birə bəy olması, hətta televiziya ekranlarına çıxıb "cibimdə partbilet olsa da, daim o quruluşa nifrət edirdim" deməsi ən yüngül ifadə ilə riyakarlıq idi. İndi bunun qeybətini etməyə dəyməz. Müstəqilliyin ilk illərində də "bəylər" bir yandan rəğbət doğursalar da, digər yandan bu xitabın ucuzlaşmasında az rol oynamadılar. Sərhədlər açılandan, türk qardaşlarımızla ünsiyyət artdığdan sonra da bəylərin sayı çoxalmağa başladı. Halbuki bu gün Türkiyədə "bəy" xitabının ünvanı olanlar "sıravi" vətəndaşlardan fərqlənirlər. Azərbaycanda və respublikadan kənarda yaşayan azərbaycanlılar arasında isə ucdantutma hamıya bəy, ya da müəllim demək bir "pandemiya" halına gəlib.

Bizim vaxtımızda bəy də yox idi, çobana, mühəndisə, çilingərə müəllim deyilmirdi, kişilər görüşəndə öpüşmürdü. Yeri gəlmişkən, bu kişi öpüşünü də dəbə salan elə SSRİ dövlətinin Stalindən sonra ən uzunömürlü başçısı olmuş Brejnev idi. Biz tələbə olan vaxt, keçən əsrin ikinci yarısında, kişilərin (yaşlı, cavan) rastlaşanda görüş şəkli əl sıxmaq idi. Görüşərkən əl sıxmanın öz anlamı var.

Kişilər yalnız sağ əllə görüşərlər. Bu, solaxaylar istisna olmaqla insanların işlək əlinin (silah tutan, yumruq vuran və s.) sağ əl olduğuna görədir və sağ əllə bir-biri ilə görüşənlər hətta küsülü olanda belə xoşniyyətli olduqlarını, silahsız gəldiklərini nümayiş etdirmişlər. Təsadüfi deyil ki, indi də diplomatik protokollarda aralarında hüsumət olan liderlərin görüşündə əsas diqqətçəkən məqamlardan biri onların əl verib görüşməməsidir.

Sözün qısası, gündəlik davranışımızda rast gəldiyimiz bəzi etiket qaydalarının düzəlişə ehtiyacı var. Tanımadığın adama ilk görüşdə "qardaş" deyə müraciət etmək hər adamın cəsarət edəcəyi xitab deyil. Halbuki dinimiz də, əxlaqımız da "hər kəs bir-birinə qardaşdır" məfkurəsini təbliğ edir. Belə olduğu halda,



"eloğlu", "dost", "əmioğlu" kimi, gənclərin yaşlılara "əmi", "dayı" kimi, yaşlıların gənclərə "bacıoğlu", "qardaşoğlu" kimi uzun illərdən bəri dilimizdə işlənən ifadələrlə müraciət etməməsində nə nöqsan var? Televiziya verilişlərinə dəvət olunan adamlara adı ilə, ixtisasına, peşəsinə görə müraciət etmək daha düzgün olar. Məsələn, həkimə müəllim deməyə nə dərəcədə doğrudur? Aşıq, xanəndə, usta, ustad, sənətkar kimi onlarca müraciət forması var ki, yerinə görə işlədilsə peşəyə, sənətə münasibəti də dəyişər.

Əlbəttə, bəlli bir zümrə də var ki, onlardan danışmamaq olmaz. Son vaxtlar teleməkanlarda, xüsusən şou proqramlarında özünə "yer tutmuş" "hacı" ifadəsi. Həm də "hacı" yox, məhz "həci" şəklində. İmanlı insanların, ziyarəti həyatının mənası kimi qəbul edib bütün günahlardan uzaq duran insanların etiqadlarına hörmət boynumuzun borcudur və Tanrıdan ziyarətlərinin qəbul olunmasını diləyirik. Amma söhbət həcc ziyarətini turist səyahətinə çevirib adının kimlərəsə sponsorluq edən "xeyriyyəçi" kimi yerli-yersiz hallanmasına izin verən "dindarlardan" gedir. Bu məsələnin dərininə getmədən son vaxtlar televiziya məkanında işartısı görünən islahatlara çox ümid bəslədiyimi dilə gətirmək istəyirəm ki, "həci sponsoru ilə öyünən mügənnikimilər" də keçmişdə qalsınlar.

Dilimizin təmizliyinə, səlisliyinə çalışdığımız kimi müraciət formalarının da fərqlənməsinə, minillərdən bəri cilalanmış əxlaq qaydalarının itməməsinə fikir vermək təkcə yazarların, jurnalistlərin deyil, hər bir ziyalının borcu olmalıdır.

*Cəfər SADIQ*
*tərcüməçi-jurnalist*
**Moskva**

HAVA

## Bakıda dəyişkən hava, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şimal-qərb küləyi axşama doğru arabir güclənəcək.**

Havanın temperaturu gecə 8-12, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 768 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi gecə və səhər bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 8-11, gündüz 19-24, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi mərkəzin rəis müavini Vüsal Məmmədova əzizi

**SƏMAYƏ ZEYNALOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ 2015-ci ildə "ZƏNGİ" liseyi tərəfindən Əhmədov Əliağa Nurəli oğlunun adına verilmiş tam orta təhsil haqqında A seriyalı, 421576 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3129
SİFARİŞ 516
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00